MHŞT AZƏRBAYCAN

# İLLİK HESABAT 2014

MHŞT Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü

# Azərbaycan Respublikası

| | |
|---|---|
| Ərazi: | 86,6 min km² |
| Əhalinin sayı: | 9593,0 min nəfər |
| Paytaxt: | Bakı |
| Dövlət dili: | Azərbaycan dili |
| Pul vahidi: | Manat |

**Azərbaycan Respublikası Dövlət gerbi**



**Azərbaycan Respublikası Dövlət bayrağı**





# Mündəricat


Abreviatura və qısaltmalar . . . . . . . . . . . . . . . . . . . 2

**MHŞT AZƏRBAYCAN İLLİK FƏALİYYƏT HESABATI 2014. . . 4**
Çoxtərəfli qrup (ÇQ) . . . . . . . . . . . . . . . . . . . . . . 4
2014-cü il üzrə İş planının icrasının qiymətləndirilməsi . . . 6
MHŞT tətbiqinin icrası barədə icmal . . . . . . . . . . . . . 6
ÇQ-nin işçi qrupları. . . . . . . . . . . . . . . . . . . . . . . 7
MHŞT tərəflərinin fəaliyyəti: nailiyyət və çətinliklər. . . . . 7
MHŞT ilə əlaqədar keçirilmiş tədbirlər . . . . . . . . . . . . 9
Əlavə 1 - MSŞA üzrə QHT Koalisiyasının 2014-cü il üzrə fəaliyyətinə dair BƏYANAT. . . . . . . . . . . . . . . . 11
Əlavə 2 - Azərbaycan Respublikasında MHŞT-nin tətbiqi üzrə illik İş planı - 2014. . . . . . . . . . . . . . . . 11
Əlavə 3 – ÇQ-nin 2014-cü ildə keçirilmiş iclasları və qəbul edilmiş qərarlar . . . . . . . . . . . . . .15
Əlavə 4 – 2014-cü ildə MHŞT-nin Azərbaycanda tətbiqinin MHŞT Standartının tələblərinə uyğun qiymətləndirməsi . . . 21
Əlavə 5 – MHŞT üzrə Katibliyin 2014-cü il üzrə xərcləri . . .23

**Hökumətin Hesabatı . . . . . . . . . . . . . . . . . . . . 24**

**31 DEKABR 2014-CÜ BİTƏN İL ÜZRƏ MHŞT HESABATI . . 26**
1. İCMAL . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 29
1.1. Ümumi məlumat. . . . . . . . . . . . . . . . . . . . . 29
1.2. İşin məzmunu . . . . . . . . . . . . . . . . . . . . . . 29
1.3. Məlumatların məxfiliyi, tamlığı və dəqiqliyi . . . . . . 30
1.4. Üzləşmə prosesinin nəticələri. . . . . . . . . . . . . . 30
2. YANAŞMA VƏ METODOLOGİYA . . . . . . . . . . . . .35
2.1. İlkin iş mərhələsi . . . . . . . . . . . . . . . . . . . .35
2.2. Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi . . . . .35
2.3. Üzləşmə prosesi . . . . . . . . . . . . . . . . . . . . 36
2.4. MHŞT məlumatlarının etibarlılığı . . . . . . . . . . . 38
2.5. Mühasibatlıq siyasəti . . . . . . . . . . . . . . . . . 39
3. HASİLAT SƏNAYESİ ÜZRƏ KONTEKSTUAL MƏLUMATLAR 40
3.1. Ümumi məlumat. . . . . . . . . . . . . . . . . . . . . 40
3.2. Mədən sənayesinin icmalı . . . . . . . . . . . . . . . 50
3.3. Azərbaycan iqtisadiyyatına hasilat sənayesinin töhfəsi 57
3.4. İstehsalın həcmi . . . . . . . . . . . . . . . . . . . .65
3.5. Hasilat sənayesində dövlətin iştirakı . . . . . . . . . . 67
3.6. Hasilat sənayesindən Neft Fonduna və dövlət büdcəsinə daxil olan gəlirlər . . . . . . . . . .77
3.7. Lisenziyaların reyestri. . . . . . . . . . . . . . . . . 78
3.8. Lisenziyaların təyinatı . . . . . . . . . . . . . . . . .79
3.9. Benefisiar qanunvericiliyi . . . . . . . . . . . . . . . 80
3.10. Müqavilələr . . . . . . . . . . . . . . . . . . . . . . 80
3.11. Digər məlumatlar . . . . . . . . . . . . . . . . . . . .81
4. ÜZLƏŞMƏ PROSESİ. . . . . . . . . . . . . . . . . . . 82
4.1. Hasilat sənayesi şirkətləri. . . . . . . . . . . . . . . 82
4.2. Dövlət qurumları . . . . . . . . . . . . . . . . . . . . 82
4.3. İnfrastruktur təchizi və barter razılaşmaları . . . . . 82
4.4. Sosial xərclər . . . . . . . . . . . . . . . . . . . . . .83
4.5. Sub-milli ödənişlər və köçürmələr. . . . . . . . . . . .83
4.6. Məhsul şəklində yığılmış istehsalat və digər gəlirlər üzrə dövlətin payı . . . . . . . . . . .83
5. ÜZLƏŞMƏ PROSESİ ÜZRƏ NƏTİCƏLƏR . . . . . . . . 85
5.1. Gəlir növləri üzrə üzləşmə prosesi (xarici şirkətlər). . 85
5.2. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə prosesi (xarici şirkətlər). . . . . . . . . . . . . . . . . . . 86
5.3. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə). . . . . . . . . . . . . . . . . 89
5.4. Gəlir növləri üzrə üzləşmə prosesi (yerli şirkətlər üzrə) 90
5.5. Hasilatın pay bölgüsü sazişləri üzrə dövlətə köçürülən gəlirlər . . . . . . . . . . . . . . . . . .91
5.6. Düzəlişlər . . . . . . . . . . . . . . . . . . . . . . . .92
6. XÜSUSI YOXLAMA PROSEDURLARI. . . . . . . . . . . .97
7. HÖKUMƏT GƏLİRLƏRİNİN TƏHLİLİ. . . . . . . . . . . 99
8. TÖVSİYƏLƏR VƏ NƏTİCƏLƏR . . . . . . . . . . . . . 103
8.1. 2014–cü ildə üzləşmə prosesindən əldə olunmuş təcrübələr. . . . . . . . . . . . . . . . 103
8.2. 2013–cü ilə aid MHŞT hesabatı üzrə müvafiq tövsiyələrin icrası . . . . . . . . . . . . . . 104
ƏLAVƏLƏR. . . . . . . . . . . . . . . . . . . . . . . . . . 107
Əlavə 1. Azərbaycan Respublikası MHŞT üzrə Komissiyanın bəyannaməsi . . . . . . . . . . . . . . . . . 107
Əlavə 2. Hasilat sənayesi şirkətləri . . . . . . . . . . . . 108
Əlavə 3. Hesabat şablonları. . . . . . . . . . . . . . . . . 110
Əlavə 4. Hasilat sənayesi şirkətləri üzrə üzləşmə cədvəlləri 112
Əlavə 5. Qarşılıqlı Anlaşma Memorandumuna qoşulmuş qeyri–hökumət təşkilatları və fiziki şəxslər . . . . . . . . 138
Əlavə 6. Hesabatın tərtibi zamanı istifadə olunmuş ədəbiyyat . . . . . . . . . . . . . . . . . . . . 142

**Azərbaycan Respublikasının 2014-cü il üzrə MHŞT Hesabatına Mədən Sənayesində Şəffaflığın Artırılması (MSŞA) QHT Koalisiyasının RƏYİ . . . . . . . . . . . . 146**
Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 147
I. 2014-cü il üzrə MHŞT Hesabatının səciyyəvi xüsusiyyətləri 148
II. Hesabatın “Kontekstual məlumatlar” bölməsinin təhlili . . . . . . . . . . . . . . . . . . . . . 149
III. Üzləşmə prosesi və onun nəticələri ilə bağlı malumatların təhlili . . . . . . . . . . . . . . . . . . . . 154
IV. 2013-cü il MHŞT Hesabatı ilə bağlı Koalisiyanın tövsiyələrinə münasibət . . . . . . . . . . . . . . . . . . 155
V. Hesabat məlumatlarının təqdim edilməsi (hesabatın dizaynı) ilə bağlı məsələlər . . . . . . . . . . 156
VI. Tövsiyyələr . . . . . . . . . . . . . . . . . . . . . . . . 157

# Abreviatura və qısaltmalar

| | |
|---|---|
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **ABŞ dolları** | Amerika Birləşmiş Ştatları dolları |
| **AÇG** | Azəri–Çıraq–Günəşli |
| **AHGA** | Ev Sahibi Hökumət Sazişinə Düzəliş müqaviləsi |
| **ARDNF** | Azərbaycan Respublikası Dövlət Neft Fondu |
| **ARMB** | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| **A.S** | Aksjeselskap–Norveçdə aksiya və opsiyon tipli şirkətlər üçün termin |
| **AZN** | Azərbaycan manatı |
| **BM** | Birgə Müəssisə |
| **BP** | Britiş Petroleum |
| **BTC** | Bakı–Tbilisi–Ceyhan |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **CNPC** | Çayna Neyşnl Petroleum Korporeyşn |
| **CQBK** | Cənubi Qafqaz boru kəməri |
| **CQD** | Cənub Qaz Dəhlizi |
| **ÇBXD** | Çox Böyük Xam Daşıyıcılar |
| **ÇQ** | Çoxtərəfli Qrup |
| **DESFA** | Milli Təbii Qaz Sistemi Operatoru S.A. |
| **DSMF** | Dövlət Sosial Müdafiə Fondu |
| **DŞ** | Dövlət Şirkəti |
| **ƏDV** | Əlavə Dəyər Vergisi |
| **ƏİBK** | Əsas İxrac Boru Kəməri |
| **FZE** | Fri Zon Enteprayz (Azad İqtisadi Zona) |
| **GDF** | Qaz de Frans |
| **Hökumət** | Azərbaycan Hökuməti |
| **HPBS** | Hasilatın Pay Bölgüsü Sazişləri |
| **İSN** | İqtisadiyyat və Sənaye Nazirliyi |
| **Komissiya** | Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası |
| **Komitə** | Dövlət qurumları |
| **Kq** | Kiloqram |
| **QAM** | Qarşılıqlı Anlaşma Memorandumu |
| **Qaydalar** | Azərbaycan Respublikasında vahid lisenziya reyestrin aparılması qaydaları |
| **QHT** | Qeyri–Hökumət Təşkilatı |
| **QİBK** | Qərbi İxrac Boru Kəməri |

| | |
|---|---|
| **Qrup** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun törəmə müəssisələri |
| **QSC** | Qapalı Səhmdar Cəmiyyəti |
| **LTD** | Limited Kompani |
| **m** | Metr |
| **m³** | Kub metr |
| **MHŞT** | Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü |
| **MHŞT Katibliyi** | Azərbaycanın MHŞT üzrə Katibliyi |
| **Mln** | Milyon |
| **Mlrd** | Milyard |
| **MMBTU** | 1 milyon Britaniya istilik vahidi |
| **MMC** | Məhdud Məsuliyyətli Cəmiyyət |
| **MSŞA** | Mədən Sənayesində Şəffaflığın Artırılması |
| **MSI Integrity** | İnstitute for Multi-Stakeholder İnitiative İntegrity (Çoxtərəfli Təşəbbüs Birliyi İnstitutu) |
| **Nemb** | Neft hasilatının milyon bareli |
| **NİKO** | Naftiran İntertreyd Kompani |
| **NM** | Niyyət Memorandumu |
| **Nm³** | Normal kub metr |

| | |
|---|---|
| **ONGC** | Oyl ənd Neyçeral Qaz Orqanizeyşn |
| **ONŞ** | Ortaq Neft Şirkəti |
| **Parlament** | Azərbaycan Respublikasının Milli Məclisi |
| **PWYP** | Publish What You Pay (Ödədiyini açıqla) |
| **SESH** | SOCAR Energy Holdings AG |
| **Sm³** | Standart kub metr |
| **SOCAR** | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti |
| **STQ** | Sıxılmış Təbii Qaz |
| **STYAŞ** | SOCAR Turkey Yatırım A.S |
| **Şirkətlər** | Hasilat sənayesi şirkətləri |
| **ŞT** | Şərtlər Toplusu |
| **TAP** | Trans Adriatik Boru Kəməri |
| **TA NAP** | Trans Anadolu Təbii Qaz Boru Kəməri |
| **TƏMÖHS** | Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi |
| **TPAO** | Türkiye Petrolleri Anonim Ortaklığı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **VÖEN** | Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsi |

# MHŞT AZƏRBAYCAN İLLİK FƏALİYYƏT HESABATI 2014

## Çoxtərəfli qrup (ÇQ)

ÇQ MHŞT-nin ölkədə tətbiqində qərarverici orqan rolunu oynayır. Qrup 2010-cu il yanvar ayında yaradılmış və Azərbaycanda Təşəbbüsün inkişafı üzərində daha güclü və səmərəli çoxtərəfli nəzarəti və idarəetməni təmin etmək məqsədi ilə Memorandum tərəflərinin (QHT Koalisiyası, Şirkətlər Qrupu və MHŞT üzrə Komissiya) nümayəndələrindən ibarətdir. Belə ki, MHŞT tərəflərinin hər biri ÇQ-yə eyni hüquqa malik olan 3 əsas və 3-dək (üçədək) əvəzedici üzv təyin edir (ümumilikdə 9 əsas üzv + 9-dək əvəzedici üzv). MHŞT üzrə Komissiyanın sədri Azərbaycan hökuməti tərəfindən ÇQ-yə üzv olur və onun iclaslarına sədrlik edir. ÇQ-nin tərkibi hər il yenilənir.
Qrupun iclasları ildə ən azı dörd dəfə keçirilir.




# 2014-cü ildə Çoxtərəfli qrupun üzvləri

**MHŞT üzrə Komissiya:**

| | |
|---|---|
| Şahmar Mövsümov | ARDNF-nin İcraçı direktoru, MHŞT üzrə Komissiyanın sədri, ÇQ-nin sədri |
| İftixar Hüseynov | Energetika Nazirliyi |
| Zaur Fətizadə | Vergilər Nazirliyi |
| Şahmirzə Səfərov | Ekologiya və Təbii Sərvətlər Nazirliyi (əvəzedici) |

**Şirkətlər qrupu:**

| | |
|---|---|
| Araz Yusubov | "BP" şirkəti |
| Cəmilə Hadiyeva | "Statoyl" şirkəti |
| Kamran Məhərrəmov | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) |
| Bəxtiyar Axundov | "Şevron" şirkəti (əvəzedici) |
| Rasim Axundov | "Total" şirkəti (əvəzedici) |
| Vaqif Abdullayev | "Nefthechala" şirkəti (əvəzedici) |

**MSŞA Koalisiyası:**

| | |
|---|---|
| Qubad İbadoğlu | İqtisadi Tədqiqatlar Mərkəzi |
| Azər Mehtiyev | İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi |
| Elçin Abdullayev | Demokratik Təsisatlar və İnsan Hüquqlari İctimai Birliyi |
| Mehriban Vəzir | Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi (əvəzedici üzv) |
| Dünya Sakit | Fərdi üzv (əvəzedici üzv) |
| İlham Hüseynli | Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq İctimai Birliyinin sədri (əvəzedici üzv) |

# 2014-cü il üzrə İş planının icrasının qiymətləndirilməsi

2014-cü il üzrə İş planı MHŞT-nin Azərbaycanda tətbiqində qarşıya qoyulmuş prioritetləri, nəzərdə tutulan fəaliyyət addımlarını, fəaliyyətlərin planlaşdırılan və faktiki icra tarixlərini, məsul tərəfləri, maliyyələşdirmə mənbəyini, ayrılmış vəsaiti, cari statusu və əldə olunmuş nəticələri əks etdirir (Əlavə 2). İş planı 2013-cü ilin son ÇQ iclasında təsdiq edilmişdir.

2014-cü il üzrə İş Planında növbəti fəaliyyətlərin icrası tamamlanmamışdır: *1.1. Kontekstual məlumatların toplanması, 1.3. Kontekstual məlumatlar haqqında müzakirələrin aparılması və təsdiqi, 1.8. Auditor hesabatının təsdiqi, 1.9. Hökumətin, Auditorun hesabatının və şirkətlərin fərdi hesabatlarının MHŞT Azərbaycanın, ARDNF-nin, Koalisiyanın və Beynəlxalq katibliyin internet səhifələrində yerləşdirilməsi, 1.10. Hökumət hesabatının rəsmi dövlət qəzetində dərc edilməsi, 1.11. QHT Koalisiyasının rəyinin təqdimatı, 1.16. MHŞT hesabatının və fəaliyyət hesabatının birgə dərc ediləcəyi sənədin layihəsinin müzakirəsi, 1.17. 2013-cü il üzrə illik MHŞT hesabatının və fəaliyyət hesabatının birgə sənəddə çapı, 2.1. Auditorun Şərtlər Toplusunun Standarta uyğunlaşdırılması üzrə müzakirəsi və razılaşdırılması, 2.3. Hesabata çoxsaylı yeni məlumatların daxil edilməsi ilə əlaqədar MHŞT hesabatının əhali üçün oxunaqlı və anlaşıqlı olmasını təmin etmək məqsədilə icmal məlumatın hazırlanması, 3.1. Xüsusi çap məhsullarının hazırlanması və istehsalı (broşür, buklet, kitab), 3.5. Universitetlərdə dəyirmi masalar və mühazirələrin oxunması, 3.6. Regionlarda, mərkəzi və region TV kanallarında dəyirmi masalar, 4.1. Təlimin keçirilməsi üzrə danışıqların aparılması və hazırlıq işləri, 4.2. Təlimin keçirilməsi.*

ÇQ-nin MHŞT-nin Azərbaycanda tətbiqi üzrə 2014-cü il üçün müəyyən olunmuş fəaliyyət addımlarının bir qisminin (məsələn, *Kontekstual məlumatların toplanması, Auditor hesabatının təsdiqi, 2013-cü il üzrə illik MHŞT hesabatının və fəaliyyət hesabatının birgə sənəddə çapı* və s.) planlaşdırılan icra tarixində yerinə yetirilməməsinin səbəbi MHŞT Standartına uyğun hazırlanmış yeni Qarşılıqlı Anlaşma Memorandumunun gec imzalanması olmuşdur. Memorandumun imzalanması üçün planlaşdırılan icra tarixi 22-31 yanvar tarixləri olsada, faktiki icra tarixi 10 iyun olmuşdur.

# MHŞT tətbiqinin icrası barədə icmal

2014-cü ildə ÇQ-nin 8 iclası keçirilmişdir. Bundan əlavə, ÇQ-nin İşçi qrupları 4 görüş keçirmiş və elektron yazışma vasitəsilə işləri davam etdirmişlər. Keçirilmiş görüşlər zamanı MHŞT-nin ölkədə tətbiqi ilə bağlı İş planında olan və il boyu meydana çıxan digər məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir. Qərarların vaxtında və yüksək səviyyədə icrasını təmin etmək məqsədilə Azərbaycanın MHŞT Katibliyi, ÇQ və ümumilikdə, bütün MHŞT tərəfləri arasında sıx əməkdaşlıq 2014-cü ildə də davam etdirilmişdir.

2014-cü ilin ilk yarımilliyində ÇQ iclaslarında Memorandum üzrə geniş müzakirələr aparılmış və Memorandumun MHŞT Standartına uyğunlaşdırılması üzrə İşçi qrupunda işlər davam etdirilmişdir. 10 iyun 2014-cü il tarixində, ÇQ-nin 31-ci iclasında Azərbaycan MHŞT tərəfləri arasında yeni Qarşılıqlı Anlaşma Memorandumu imzalanmış və 2013-cü ili əhatə edən hesabat dövrü başlanılmışdır. 2013-cü il üzrə MHŞT Hesabatı Sidneydə keçirilmiş MHŞT üzrə 6-cı Qlobal Konfransda qəbul olunan MHŞT Standartı əsasında tərtib edilməyə başlanmışdır. ÇQ-nin 10 iyun 2014-cü il tarixli iclasında qəbul edilmiş qərara əsasən Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək məqsədi ilə İşçi qrupu yaradılmışdır. İl boyu ÇQ iclaslarında və İşçi qrupun görüşlərində, habelə elektron yazışma vasitəsilə 2013-cü ili əhatə edən MHŞT Hesabatına dair Auditorla birgə geniş müzakirələr aparılmış və müvafiq işlər görülmüşdür. 2014-cü ilin sonuna 2013-cü il üzrə MHŞT Hesabatının ilkin layihəsi ÇQ-yə təqdim olunmuşdur.

2014-cü ildə Norveçdə, Meksikada və Myanmada MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin iclasları keçirilmiş və Azərbaycan MHŞT üzrə Dövlət Komissiyasının sədri, yerli Katibliyin nümayəndələri sözügedən iclaslarda iştirak etmişdilər.

29 iyun 2014-cü ildə 2013-cü ili əhatə edən MHŞT üzrə İllik Fəaliyyət Hesabatı açıqlandı və Azərbaycan MHŞT rəsmi internet səhifəsində yerləşdirildi.

Beynəlxalq İdarə Heyətinin 28-ci iclasında (14-15 oktyabr 2014-cü il, Myanmanın paytaxtı Naypyido şəhərində keçirilmiş) İdarə Heyəti Azərbaycanda MHŞT üzrə erkən Qiymətləndirmənin keçirilməsinə dair qərar qəbul etmişdir. Beynəlxalq İdarə Heyətinin qərarına dair ÇQ-də geniş müzakirələr aparılmış və ÇQ-nin qərarına əsasən Qiymətləndirmə üzrə İşçi qrup yaradılmışdır. Bununla bağlı 24 dekabr tarixində MHŞT tərəflərinə ARDNF-də MHŞT üzrə "Qiymətləndirmə öncəsi seminar" keçirilmişdir.

# ÇQ-nin işçi qrupları

**Memorandumun MHŞT Standartına uyğunlaşdırılması üzrə İşçi qrupun 2014-cü ildə fəaliyyəti davam etdirilmişdir.**

Məlum olduğu kimi, Azərbaycanda MHŞT-nin tətbiqini tənzimləyən əsas sənəd olan Memorandumun yeni Standarta uyğunlaşdırılması ehtiyacı yaranmış və 2011-ci ildə ÇQ üzvlərindən ibarət yaradılmış İşçi Qrup fəaliyyətini davam etdirmişdir.

2014-cü ildə İşçi qrupun müzakirələri elektron şəkildə mütamadi olaraq davam etdirilmişdir. Müzakirələrdə əsas etibarı ilə Memorandumun tamamilə yenilənərək MHŞT Standartının müddəalarına uyğun hazırlanması, Memoranduma əlavələrin, xüsusilə hesabat formalarının təkmilləşdirilməsi üzrə gərgin müzakirələr aparılmış, sual doğuran məsələlər isə MHŞT üzrə Beynəlxalq Katibliyə müraciət edilərək öz həllini tapmışdır. 10 iyun 2014-cü il tarixində ÇQ-nin 31-ci iclasında Azərbaycan MHŞT tərəfləri arasında yeni Qarşılıqlı Anlaşma Memorandumu imzalanmışdır.

**"Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstəyi" üzrə ÇQ üzvlərindən ibarət İşçi qrup yaradılmışdır.**

2013-cü ildə qəbul edilmiş Yeni Standartın tələbinə əsasən, MHŞT sənayesinin icmalını verən kontekstual məlumatlar MHŞT Hesabatlarında əks olunmalıdır. ÇQ-nin 10 iyun 2014-cü il tarixli iclasında "Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstəyi" üzrə ÇQ üzvlərindən ibarət (MSŞA Koalisiyasından 2 nəfər, Şirkətlər qrupundan 2 nəfər, MHŞT üzrə Komissiyadan 2 nəfər) İşçi qrup yaradılmışdır. ÇQ-nin qərarına əsasən Kontekstual Məlumatların toplanması Auditora tapşırılmış və İşçi qrupun nəzarəti altında işlərin davam etdirilməsinə qərar verilmişdir. 2014-cü ilin avqust ayından etibarən İşçi qrupun 5-dək görüşü keçirilmiş, müzakirələr elektron şəkildə mütamadi olaraq davam etdirilmişdir. İşçi qrupun fəaliyyəti 2015-ci ildə də davam etdirilir.

**"Qiymətləndirmə" üzrə İşçi Qrupu yaradılmışdır.**

Beynəlxalq İdarə Heyətinin erkən Qiymətləndirmə qərarına dair ÇQ iclaslarında geniş müzakirələr aparılmış və ÇQ-nin qərarına əsasən Qiymətləndirmə üzrə ÇQ üzvlərindən ibarət (MSŞA Koalisiyasından 1 nəfər, Şirkətlər qrupundan 1 nəfər, MHŞT üzrə Komissiyadan 1 nəfər) İşçi qrupu yaradılmışdır. "Qiymətləndirmə" üzrə İşçi Qrupun işləri 2015-ci ildə də davam etdirilmişdir.

# MHŞT tərəflərinin fəaliyyəti: nailiyyət və çətinliklər

**MSŞA üzrə QHT Koalisiyası:**

2014-cü il üçün xarakterizə edilən hər iki dövrdə Koalisiyanın Çoxtərəfli Qrup (ÇQ) formatında fəaliyyətində sabitlik hökm sürmüş, QHT təmsilçiləri bu formatda MHŞT-nin reallaşdırılmasına öz töhfələrini verərək, bəzi nailiyyətlər əldə etmişdir. Dövr ərzində tərəflər arasında yeni Qarşılıqlı Anlaşma Memorandumunun müzakirəsi başa çatdırılmış və bu sənəd ÇQ tərəfindən qəbul olunaraq imzalanmış, QHT Koalisiyasının ÇQ-də təmsil olunan üzvləri 2013-cü il MHŞT hesabatının kontekstual məlumatlar bölməsinin işlənilməsi üçün İşçi Qrupunda fəaliyyət göstərmiş, Koalisiya ekspertləri 2013-cü il üçün layihə hesabatına öz rəyini hazırlamış və bir sözlə ÇQ-də vətəndaş cəmiyyətinin iştirakı məhsuldar olmuşdur.

Buna baxmayaraq MSŞA üzrə QHT Koalisiyasının fəaliyyətində çətinliklər də olmuşdur.

Bu barədə ətraflı məlumat Koalisiyasının Əlavə 1-dəki Bəyanatında verilib.

**Şirkətlər qrupu:**

2014-cü il ərzində yeni Qarşılıqlı Anlaşma Memorandumu üzərində iş və yeni tələblərə uyğun hesabatlılığın hazırlanması ilə əlaqədar Şirkətlər qrupu daxilində intensiv məsləhətləşmələr aparılmışdır. Şirkətlər qrupu ÇQ iclaslarında fəal iştirak etməklə yanaşı, BP və Şevron şirkətlərinin nümayəndələri xüsusi İşçi qrup çərçivəsində yeni Memorandumlayihəsinin hazırlanmasına öz töhfəsini vermişdir. İl boyu SOCAR və BP nümayəndələri ÇQ-nin digər işçi qruplarında fəal iştirak etmişlər. Bundan başqa MHŞT üzrə Katiblik və QHT Koalisiyasının tövsiyyəsi ilə Şirkətlər qrupu üzvləri müxtəlif vaxtlarda Rusiya dövlət nümayəndə heyəti (may), "MSI İntergrity" (may), Dünya Bankı nümayəndələri (sentyabr) və beynəlxalq MHŞT Beynəlxaq İdarə Heyətinin xüsusi missiyasının nümayəndələrini qəbul edib, QHT Koalisiyasının dəvəti ilə onların keçirdiyi müxtəlif tədbirlərdə iştirak ediblər.

**Hökumət Komissiyası:**

2014-cü ildə Hökumət Komissiyasının sədri və üzvləri MHŞT-nin tətbiqi ilə əlaqədar fəaliyyətlərdə yaxından iştirak etmişdir. Komissiyanın sədri, ARDNF-nin İcraçı direktoru ÇQ-nin fəaliyyətinin səmərəliliyinin artırılması, müxtəlif görüş və tədbirlərdə Təşəbbüsə dair çıxışlar və müzakirələrin aparılması, MHŞT üzrə Katibliyin işinə nəzarəti həyata keçirməklə bərabər beynəlxalq səviyyədə də MHŞT-nin idarə olunmasında fəaliyyətlərini davam etdirmişdir.

MHŞT üzrə Hökumət Komissiyasının sədri, İdarə Heyətinin üzvü, ARDNF-nin İcraçı direktoru Şahmar Mövsümovun başçılıq etdiyi nümayəndə heyəti 2014-cü ildə aşağıda göstərilmiş iclaslarda iştirak etmişdir:

18-19 mart 2014-cü il tarixlərində Norveçin paytaxtı Oslo şəhərində MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin 26-cı iclası.

1-2 iyul 2014-cü il tarixlərində Meksikanın paytaxtı Mexiko şəhərində MHŞT üzrə Beynəlxalq İdarə Heyətinin 27-ci iclası.

3 dekabr 2014-cü il tarixində Rusiya Federasiyasının payataxtı Moskva şəhərində "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün biznesin idarə edilməsi mühitinə təsiri: beynəlxalq təcrübə" mövzusunda Beynəlxalq Konfrans.

Həmçinin, Dövlət Komissiyanın üzvləri ÇQ üzvlərindən ibarət xüsusi İşçi qruplarında təmsil olunmuş, dəfələrlə keçirilən görüşlərdə iştirak etmiş və müvafiq sənədlərin hazırlanması üzrə işlərdə öz töhfələrini vermişdilər.

**MHŞT Katibliyi:**

Azərbaycanın MHŞT üzrə Katibliyi 2014-cü ildə ÇQ tərəfindən qəbul edilən qərarların icrası, tərəflərə təşkilati və koordinativ dəstəyin göstərilməsi, onlarla mütəmadi əlaqələrin saxlanılması, MHŞT-nin birbaşa iştirakçısı olmayan təşkilat və qurumların müraciətlərinə cavab və digər funksiyaların icrası ilə yanaşı MHŞT üzrə yerli, beynəlxalq və əlaqədar tədbirlərdə iştirakı da həyata keçirmişdir.

## Qiymətləndiricinin və Auditorun tövsiyələri əsasında MHŞT üzrə həyata keçirilmiş təkmilləşmələr

Azərbaycan 2009-cu ildə Qiymətləndirmədən uğurla keçdikdən dərhal sonra Qiymətləndirici tərəfindən irəli sürülmüş tövsiyələrin icrasına başlamış və qısa müddətdə irəli sürülən bütün təkliflərin həyata keçirilməsinə nail olmuşdur. Həmin dövrdən etibarən ölkədə MHŞT-nin daim dərinləşdirilməsi üzrə işlər artan xətt üzrə davam etdirilmişdir.

2014-cü ildə ölkəmizdə MHŞT hesabatlılığının məzmununun təkmilləşdirilməsi və keyfiyyətinin artırılması üzrə işlər davam etdirilmişdir. 2013-cü il üzrə MHŞT Hesabatının layihəsi 2012-ci ili əhatə edən MHŞT Hesabatına dair auditor tərəfindən irəli sürülən bütün tövsiyələri nəzərə alınmaqla və MHŞT Standartına uyğun olaraq hazırlanmışdır.

## MHŞT ilə əlaqədar keçirilmiş tədbirlər

**Bakıda "Anonim Azərbaycan və psevdoşəffaflıq" mövzusunda müzakirələr**

MSŞA Koalisiyası SOCAR ilə bağlı "Global Witness" qeyri-hökumət təşkilatının 2013-cü il dekabrın 13-də "Anonim Azərbaycan" adlı hesabatı ilə bağlı ictimai müzakirə təşkil etmiş və yanvarın 15-də Bakıda "Anonim Azərbaycan və psevdoşəffaflıq" mövzusunda ictimai müzakirə keçirilmişdir. Tədbirdə çıxış edən Koalisiya üzvü, Neft Araşdırmalar Mərkəzinin sədri İlham Şaban bu hesabatda SOCAR-a qarşı yönəlimiş ittihamların əsasən xam neft satışı üzrə ixtisaslaşan "SOCAR Trading SA" şirkətinin fəaliyyəti üzərində qurulduğunu qeyd etmişdir.

Həmin keçirilən tədbirdə iştirak edən Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin Hüquq İdarəsinin rəisi Eldar Orucov bu hesabatda Azərbaycana qarşı qərəzli və yanlış mövqeyi ifadə edildiyini qeyd etmiş və bildirmişdir ki, "Global Witness" hesabatında yaranan qaranlıq məqamlar SOCAR tərəfindən aydınlaşdırılmış və bütün arqumentlərin əsassız olması sübuta yetirilmişdir. O əlavə olaraq bu hesabatın SOCAR tərəfindən həyata keçirilən irimiqyaslı beynəlxalqlayihələrin reallaşmasına start verilən zaman dərcinin təsadüf olmadığını və bütün bunların SOCAR-ın beynəlxalq səviyyədə əldə etdiyi müsbət imicinə zərər vurmaq və irimiqyaslı layihələrdə iştirakının qarşısını almaq məqsədilə edildiyini də vurğulamışdır.



**MHŞT-nin 10 illiyi ilə bağlı TV, media, internet və sosial şəbəkələrdə kampaniya**

"MHŞT-nin 10 illiyi ilə bağlı milli ve regional TV-lərdə, media, internet ve sosial şəbəkələrdə kampaniya"layihəsi çərçivəsində Azadlıq radiosunda 28 dekabr 2013-cü il tarixində "MHŞT-nin yeni Standartı", 1 fevral 2014-cü il tarixində "Dövlət Neft Şirkətinin hesabatlılığı və hesabatları" adlı verilişlər efirə getmişdir.



**Şəffaflıq Koalisiyası 10 yaşını qeyd edib**

2004-cü il may ayının 13-də yaradılan İctimai Birliklərin "Mədən sənayesində şəffaflığın artırılması" (MSŞA) Koalisiyasının 10 yaşı tamam olub.

Yubiley tədbirində Koalisiyanın üzvləri, vətəndaş cəmiyyətinin və medianın təmsilçiləri, MHŞT üzrə Katibliyin nümayəndələri, eləcə də beynəlxalq təşkilatların və diplomatik korpusun nümayəndələri iştirak edib. Yubiley tədbiri Koalisiyanın 10 illik fəaliyyətinə həsr olunmuş filmin nümayişi ilə başa çatıdırıldı.

**İstanbulda dəyərləndirmə öncəsi seminar**

5-7 dekabr 2014-cü il tarixlərində Azərbaycan MSŞA Koalisiyası İstanbulda Beynəlxalq MHŞT İdarə Heyətinin qərarı ilə 2015-ci ilin yanvar ayında baş tutacaq erkən Qiymətləndirmə prosesinə hazırlaşmaq və müzakirələr üçün bir yerə toplaşdı.

Sessiyaya MHŞT Beynəlxalq Katibliyindən Jonas Moberg, Sam Bartlett və Dvyeke Rogan skype əlaqə vasitəsi ilə qoşulmuşdular. MHŞT Beynəlxalq Katibliyinin başçısı Jonas Moberg İdarə Heyətinin erkən Qiymətləndirmə qərarı, Qiymətləndirmə prosesinin miqyası və vətəndaş cəmiyyətinin bu prosesdəki rolu barədə məlumat verdi. "Azərbaycanda erkən Qiymətləndirmə MHŞT tələbləri ilə bərabər, ölkə ilə bağlı 3 spesifik şərtin də qiymətləndirməsini daxil edir" cənab Moberg qeyd etdi.



## Əlavə 1 - MSŞA üzrə QHT Koalisiyasının 2014-cü il üzrə fəaliyyətinə dair BƏYANAT

2014-cü il İctimai Birliklərin "Mədən Sənayesində Şəffaflığın Artırılması" (MSŞA) Koalisiyası üçün ağır il olmuşdur. Belə ki, ümumi vətəndaş cəmiyyətinin qarşılaşdığı çətinliklər QHT Koalisiyasından da yan keçməmişdir. Koalisiyaının 2014-cü ildəki proqram fəaliyyətini dövrü olaraq 2 qrupa bölmək olar. Birincisi, 2014-cü ilin iyul ayınadək olan dövrdə MSŞA QHT Koalisiyasının fəaliyyəti kiçik məhdudiyyətlərlə keçirilsə də, ikinci dövrdə, iyun ayının sonundan başlayaraq xeyli çətinləşmişdir. Vətəndaş cəmiyyətinin ölkədəki durumunu ağırlaşdıran texniki, hüquqi, inzibatı və maliyyə məhdudiyyətləri QHT Koalisiyasının fəaliyyətində də durğunluğun yaranmasına səbəb olmuşdur. Belə ki, QHT Koalisiyası iyun ayında 10 illik yubiley tədbirini keçirmək üçün böyük otellərdə iclas zalı kirayələmək çətinliyi ilə qarşılaşmışdır. İlin ikinci yarısından QHT-lərin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarında baş verən dəyişikliklər faktiki olaraq Koalisiyanı donor yardımından məhrum etmişdir. Bu dövrdə vətəndaş cəmiyyəti qurumlarının üzləşdikləri çətinliklər Koalisiyadan yan keçməmişdir. Koalisiya üzvü olan bəzi təşkilatların bank hesabı bağlanıb, onların bir qismi 2014-cü ilin aprel ayından QHT-lərə qarşı başlayan istintaqa və vergi yoxlamalarına cəlb olunmuş, xaricə səfərləri zamanı sərhəd keçid məntəqələrində yoxlamalara məruz qalmışdır. Odur ki, bu və digər səbəblərdən QHT Koalisiyası həmin dövr ərzində 2014-cü il üçün MHŞT Fəaliyyət Planı üzrə öhdəsinə düşən tədbirləri icra edə bilməyib.

## Əlavə 2 - Azərbaycan Respublikasında MHŞT-nin tətbiqi üzrə illik İş planı - 2014

2014-cü ildə MHŞT-nin Azərbaycanda tətbiqi əsas etibarı ilə ölkədə MHŞT tətbiqinin Standarta uyğunlaşdırılması, MHŞT hesabatlarının əhali üçün oxunaqlılığının və anlaşıqlılığının təkmilləşdirilməsi, MHŞT üzrə məlumatlılığının artırılması və maarifləndirmə işlərinin aparılması, ölkədə hökumət, vətəndaş cəmiyyəti və şirkətlər arasındakı effektiv dialoqun davam etdirilməsinə yönəldiləcəkdir.

| 2014-cü il üçün prioritetlər | | Fəaliyyət addımları | Planlaşdırılan icra tarixi | Faktiki icra tarixi | İcraya məsul tərəf(lər) | Maliyyələşdirmə mənbəyi | Ayrılmış vəsait | İcra statusu | Nəticə |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. 2013-cü il üzrə illik MHŞT hesabatının və fəaliyyət hesabatının MHŞT Standartına uyğun hazırlanıb açıqlanması. Hesabatların vahid sənəddə çapı | MHŞT hesabatı[1] | 1.1. Kontekstual məlumatların toplanması | 15 yanvar-30 may | | Katiblik[3], ÇQ[5], Auditor[4] | ARDNF[9] | 4.995 azn | İcrası davam edir | Ölkənin hasilat sənayesindən əldə olunan gəlirləri barədə əhalinin məlumatlandırılması, MHŞT hesabatlarının məzmununun təkmilləşdirilməsi və həcminin artırılması, MHŞT məlumatlarının faydalılığının artırılması və istifadəsinin asanlaşdırılması |
| | | 1.2. 2013-cü il üzrə şirkətlər tərəfindən DSMF-ə ödənişlərin əhəmiyyətliliyinin yoxlanılması | 3 fevral-17 fevral | 15.04.2014 | ÇQ, Katiblik | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.3. Kontekstual məlumatlar haqqında müzakirələrin aparılması və təsdiqi | 17 fevral-10 iyun | 24.01.2014; 19.02.2014; 13.03.2014; 15.04.2014; 10.06.2014; 21.07.2014; 12.09.2014; 17.10.2014 | ÇQ | Maliyyə tələb olunmur | | 1. ÇQ və İşçi Qrupun iclaslarında Moore Stephens şirkəti ilə müzakirələr aparılmışdır 2. İşlər davam edir | |
| | | 1.4. Hesabat formalarının yerli və xarici şirkətlərə göndərilməsi | 3-7 mart | 19.06.2014 | Katiblik | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.5. Hökumətin, xarici və yerli şirkətlərin hesabatlarının auditora təqdim olunması | ən geci 1 may | 10.08.2014 | Komissiya[6], Şirkətlər qrupu[7] | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.6. Tutuşdurma prosesinin aparılması | 1 may-1 iyul | 4 avqust - 2 oktyabr | Auditor | ARDNF | 24.849 azn | İcra olunub | |
| | | 1.7. Tutuşdurma üzrə auditor hesabatının, şirkətlərin fərdi hesabatlarının və hökumətin hesabatının ÇQ-yə təqdim olunması. | 1-15 iyul | 03.10.2014 | Auditor | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.8. Auditor hesabatının təsdiqi | 15-30 iyul | | Auditor, ÇQ | Maliyyə tələb olunmur | | | |
| | | 1.9. Hökumətin, Auditorun hesabatının və şirkətlərin fərdi hesabatlarının MHŞT Azərbaycanın, ARDNF-nin, Koalisiyanın və Beynəlxalq katibliyin internet səhifələrində yerləşdirilməsi | 1.8. bəndinin icrasından sonra 5 gün ərzində | | Katiblik | Maliyyə tələb olunmur | | | |
| | | 1.10. Hökumət hesabatının rəsmi dövlət qəzetində dərc edilməsi | 1.8. bəndinin icrasından sonra 5 gün ərzində | | Katiblik | ARDNF | 400 azn | | |
| | | 1.11. QHT Koalisiyasının rəyinin təqdimatı | ən geci 1 sentyabr | | Koalisiya[8] | Maliyyə tələb olunmur | | | |

| 2014-cü il üçün prioritetlər | | Fəaliyyət addımları | Planlaşdırılan icra tarixi | Faktiki icra tarixi | İcraya məsul tərəf(lər) | Maliyyələşdirmə mənbəyi | Ayrılmış vəsait | İcra statusu | Nəticə |
|---|---|---|---|---|---|---|---|---|---|
| | İllik fəaliyyət hesabatı[2] | 1.12. Fəaliyyət hesabatı üzrə ilkin müzakirələrin aparılması | 17-24 yanvar | 24.01.2014 | ÇQ | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.13. Hesabatınlayihə mətninin hazırlanması | 5 fevral-14 mart | 19.03.2014 | ÇQ, Katiblik | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.14. Lazımi məlumat və materialların Katibliyə göndərilməsi | 5 fevral-14 mart | 19.03.2014 | Koalisiya, Şirkətlər qrupu, Komissiya | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 1.15. Hesabatın yekun mətnin təsdiqi, MHŞT Azərbaycanın internet səhifəsində yerləşdirilməsi | 14 mart-1 aprel | 29.06.2014 | ÇQ, Katiblik | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | Hesabatların çapı | 1.16. MHŞT hesabatının və fəaliyyət hesabatının birgə dərc ediləcəyi sənədin layihəsinin müzakirəsi | 15 avqust-1 sentyabr | | ÇQ, Katiblik | Maliyyə tələb olunmur | | | |
| | | 1.17. 2013-cü il üzrə illik MHŞT hesabatının və fəaliyyət hesabatının birgə sənəddə çapı | 1 sentyabr-17 noyabr | | Katiblik | ARDNF | | | |
| 2. Azərbaycanın MHŞT Standartına tam keçidinin təmin edilməsi | | 2.1. Auditorun Şərtlər Toplusunun Standarta uyğunlaşdırılması üzrə müzakirəsi və razılaşdırılması | 17 yanvar-17 fevral | 24.01.2014; 19.02.2014; 13.03.2014; 15.04.2014; 10.06.2014; 21.07.2014; 12.09.2014; 17.10.2014 | Koalisiya | Maliyyə tələb olunmur | | 1. ÇQ və İşçi Qrupun iclaslarında Moore Stephens Audit şirkəti ilə müzakirə aparılıb. 2. İcrası davam edir | Azərbaycanın MHŞT tətbiqinin MHŞT Standartının tələb və qaydalarına uyğunlaşdırılması |
| | | 2.2. Standarta uyğun hazırlanmış yeni Memorandumun imzalanması | 22-31 yanvar | 10.06.2014 | ÇQ, Şirkətlər qrupu, Komissiya, Koalisiya | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 2.3. Hesabata çoxsaylı yeni məlumatların daxil edilməsi ilə əlaqədar MHŞT hesabatının əhali üçün oxunaqlı və anlaşıqlı olmasını təmin etmək məqsədilə icmal məlumatın hazırlanması | 1-30 iyul | | ÇQ | Maliyyə tələb olunmur | | | |
| | | 2.4 MHŞT-nin tətbiqinə dair Hüquqi bazanın yaradılması üzrə müzakirələr | 1 may -30 iyun | 10.06.2014 | ÇQ | Maliyyə tələb olunmur | | İcra olunub | |
| | | 2.5 İctimai birliklərin MSŞA Koalisiyası üzvü olan təşkilatların fəaliyyətində yaranmış çətinliklər üzrə müzakirələr | 21 iyul - 30 sentyabr | 21.07.2014; 03.10.2014 | ÇQ | Maliyyə tələb olunmur | | İcra olunub | |

| 2014-cü il üçün prioritetlər | Fəaliyyət addımları | Planlaşdırılan icra tarixi | Faktiki icra tarixi | İcraya məsul tərəf(lər) | Maliyyələşdirmə mənbəyi | Ayrılmış vəsait | İcra statusu | Nəticə |
|---|---|---|---|---|---|---|---|---|
| 3. MHŞT-nin Azərbaycanda tətbiqi ilə bağlı ölkədaxili və ölkədənkənar təbliğat və təcrübə mübadiləsi tədbirlərinin həyata keçirilməsi | 3.1. Xüsusi çap məhsullarının hazırlanması və istehsalı (broşür, buklet, kitab) | il boyu | | Katiblik, Koalisiya | ARDNF, Beynəlxalq donor təşkilatları | | | Əhalinin Azərbaycanda MHŞT-nin tətbiqinə dair məlumatlılığının artırılması, MHŞT-nin ümumi fəlsəfəsi və Azərbaycanın MHŞT hesabatlarının geniş təbliği, xarici təcrübə mübadiləsi |
| | 3.2. Materialların internet səhifəsində yerləşdirilməsi və kağız daşıyıcıda paylanması | il boyu | il boyu | Katiblik, ÇQ, Koalisiya | Maliyyə tələb olunmur | | İcrası davam edir | |
| | 3.3. Xaricdə keçirilən MHŞT tədbirlərində (konfranslar, seminarlar, treninqlər, sərgilər, mübadilə proqramları və s.) iştirak | il boyu | il boyu | ÇQ, Katiblik, Komissiya, Şirkətlər qrupu, Koalisiya | ARDNF, Şirkətlər qrupu, Beynəlxalq donor təşkilatları | 29.000 azn | İcrası davam edir | |
| | 3.4. MHŞT Azərbaycanın rəsmi internet səhifəsinin mütəmadi təkmilləşdirilməsi və yenilənməsi | il boyu | il boyu | Katiblik | ARDNF | | İcrası davam edir | |
| | 3.5. Universitetlərdə dəyirmi masalar və mühazirələrin oxunması | il boyu | | Koalisiya | Beynəlxalq donor təşkilatları, Şirkətlər qrupu | | | |
| | 3.6. Regionlarda, mərkəzi və region TV kanallarında dəyirmi masalar | il boyu | | Koalisiya, Şirkətlər qrupu | Beynəlxalq donor təşkilatları, Şirkətlər qrupu | | | |
| 4. MHŞT hesabatlılığının keyfiyyətinin artırılması məqsədilə Şirkətlər qrupuna təlimin keçirilməsi | 4.1. Təlimin keçirilməsi üzrə danışıqların aparılması və hazırlıq işləri | 15 sentyabr-20 oktyabr | | Katiblik, Şirkətlər qrupu, ÇQ | Maliyyə tələb olunmur | | | Şirkətlərin MHŞT üzrə hesabat formalarının doldurulması üzrə peşəkarlığının və MHŞT hesabatlılığının keyfiyyətinin artırılması |
| | 4.2. Təlimin keçirilməsi | 24-31 oktyabr | | Katiblik, Şirkətlər qrupu | ARDNF | 6.000 azn | | |

1 Auditor tərəfindən hökumət və hasilat şirkətlərindən daxil olmuş hesabatların tutuşdurulması, təhlili və fərqlərin izahı, həmçinin kontekstual informasiyaları əhatə edən illik hesabat
2 Ölkədə MHŞT tətbiqinə və MHŞT üzrə ÇQ-nin illik fəaliyyətinə dair illik hesabat
3 Azərbaycanın MHŞT üzrə Katibliyi
4 MHŞT hesabatlarının tutuşdurulmasını həyata keçirən və yekun hesabat hazırlayan audit şirkəti. ÇQ-nin qərarına əsasən Azərbaycanda MHŞT hesabatlarının tutuşdurulması üçün auditor şirkət 3 illik əsasda seçilir. 2012, 2013, 2014-cü illər üzrə MHŞT hesabatlarını tutuşdurmaq üçün "Moore Stephens" audit şirkəti 2013-cü ildə ÇQ tərəfindən seçilmişdir.
5 Hər üç MHŞT tərəfinin (hökumət, şirkətlər,QHT Koalisiyası) bərabər təmsil olunduğu Çoxtərəfli qrup
6 Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamı ilə yaradılmış Hökumət Komissiyası
7 Azərbaycanda hasilat sənayesi sahəsində fəaliyyət göstərən yerli və xarici şirkətlər
8 Azərbaycanın Mədən Sənayesində Şəffalığın Artırılması üzrə qeyri-hökumət təşkilatlarının Koalisiyası
9 Azərbaycan Respublikası Dövlət Neft Fondu

İş Planı Çoxtərəfli qrupun (ÇQ) 03.12.2013 tarixli iclasında təsdiq olunmuşdur. İş planının yenilənməsi və əlavələrin edilməsi bütün tərəflərlə razılaşdırılmaqla aylıq əsasda həyata keçirilir.

| ÇQ-nin 2014-cü il üzrə nəzərdə tutulan iclasları | İş planına daxil edilən məsələlər |
|---|---|
| 24 yanvar | 2.1. 1.12. 2.2. |
| 19 fevral | 1.1. 1.3. 1.16. 2.2. |
| 13 mart | 2.1. 2.2. 2. 12. |
| 15 aprel | 2.1. 2.3. 1.2. |
| 10 iyun | 2.4. 2.2. 2.1. 1.16 |
| 21 iyul | 2.5 |
| 3 oktyabr | 10.1 |
| 10 dekabr | 1.11 |

# Əlavə 3 – ÇQ-nin 2014-cü ildə keçirilmiş iclasları və qəbul edilmiş qərarlar

| ÇQ iclasları-nın tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| 24 yanvar | Auditorun Şərtlər Toplusunun MHŞT Standartına uyğunlaşdırılma-sı məsələsinin müzakirəsi | 1. Azərbaycan MHŞT Katibliyi tərəfindən Beynəlxalq Katiblikdən növbəti hesabatlılıq mərhələsində 2013-cü il üzrə hesabatları tutuşdurmaq üçün auditorun yenidən seçilib-se-çilməməsi zərurəti haqqında məlumat əldə edilsin.<br><br>2. Mur Stefens (Moore Stephens) audit şirkəti Azərbaycanda istifadə olunacaq Şərtlər Toplusuna zəruri dəyişiklikləri və əlavələri etsin, həmin sənədin layihəsini və kontekstual məlumatların toplanma metodologiyasını ÇQ-nin növbəti iclasında təqdim etsin. |
| | MHŞT üzrə fəa-liyyət hesabatı (2013-cü il) ətra-fında müzakirələr | 1. Hesabatın layihə mətni elektron poçt vasitəsi ilə ÇQ üzvlərinə göndərilsin və hesabatla bağlı rəy və təkliflər 3 fevral 2014-cü il tarixinədək Katibliyə təqdim edilsin.<br><br>2. Hesabatın yekun versiyası ÇQ-nin növbəti iclasında baxılsın. |

| ÇQ iclaslarının tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| | Yeni Memorandumun yekun layihəsinin müzakirəsi | 1. QHT Koalisiyasının ÇQ-dəki üzvləri iclasda Memorandumla bağlı səslənən rəy və təklifləri QHT Koalisiyasının Şura iclasında müzakirə etdikdən sonra müzakirələrin nəticələrini ÇQ-nin növbəti iclasında açıqlasınlar.<br><br>2. Protokolların açıqlanması məsələsi növbəti iclasın gündəliyinə salınsın.<br><br>3. MHŞT üzrə Katiblik Beynəlxalq Katibliyə yazmaqla aşağıdakı suallara aydınlıq gətirsin:<br><br>- ÇQ-nin Memorandumu imzalamayacağı, ancaq hesabatlılığı yeni Standarta uyğun həyata keçirəcəyi təqdirdə Azərbaycanın Qiymətləndirmə prosesindən keçməsində maneə yarana bilərmi? ÇQ-nin Memorandumu imzalamadan hesabatlılığı yeni Standarta uyğun başlayacağı və Qiymətləndirmə prosesinin Azərbaycanda başlanmasından əvvəl Memorandumun imzalanması prosesini yekunlaşdıracağı təqdirdə Qiymətləndirmədən keçmədə maneə yarana bilərmi?<br><br>- 2013-cü il hesabatlılıq prosesinin yeni Standarta uyğun olaraq aparılması məqsədilə auditorun yenidən seçilməsinə zərurət varmı? Və ya 2013-cü ildə növbəti 3 hesabatlılıq dövrü üçün seçilmiş auditor şirkəti (Mur Stefens) ilə bağlanmış müqaviləyə Beynəlxalq İdarə Heyətinin yeni Standarta uyğun hazırladığı Şərtlər Toplusunun əlavə edilməsi kifayətdirmi? |
| 19 fevral | 1.Kontekstual məlumatların toplanması haqqında müzakirə | QHT Koalisiyası tərəfindən tərtib olunmuş hesabat formaları MHŞT üzrə Katiblik tərəfindən Auditora göndərilsin.<br><br>Auditor 23 fevral 2014-cü il tarixinədək Standarta uyğun yenilənmiş Şərtlər Toplusunu, hesabat formalarını və kontekstual məlumatların toplanma metodologiyasının yekun versiyasını ÇQ-yə təqdim etsin.<br><br>Növbəti hesabatlılıq ilində Auditor tərəfindən İlkin Hesabat hazırlanmasın |
| | 2.Yeni Memorandumun yekun layihəsinin müzakirəsi | Azərbaycanın MHŞT Katibliyi Beynəlxalq MHŞT Katibliyinə yeni Memorandumlayihəsi ilə bağlı aşağıdakı məsələlər üzrə tövsiyələrin öyrənilməsi üçün sorğu göndərsin:<br><br>Azərbaycan MHŞT Katibliyinin statusu<br><br>“Məxfilik” bəndi<br><br>“Memorandumun qüvvəsi” bəndi<br><br>“ÇQ-nin tərkibi” bəndində ÇQ-nin əvəzedici üzvlərinin sayı artırılaraq hər bir tərəf üçün maksimum 3 kimi müəyyən edilsin.<br><br>Azərbaycan MHŞT Katibliyi Memoranduma dair Şirkətlər Qrupunun və QHT Koalisiyasının təkliflərini bir sənəddə toplayaraq ən sonlayihə mətni hazırlasın və ÇQ üzvlərinə göndərsin |

| ÇQ iclasları-nın tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| | 3.MHŞT üzrə fəaliyyət hesaba-tının (2013-cü il) layihə mətninin müzakirəsi | ÇQ üzvləri illik Fəaliyyət hesabatı ilə bağlı bütün məlumatları və təklifləri 28 fevral 2014-cü il tarixinədək Azərbaycan MHŞT Katibliyinə göndərsin.<br><br>Hesabata kənar ekspertlərin rəylərinin (sitatları) daxil edilməsi üçün ÇQ üzvləri kimlərin rəylərinin daxil edilməsi haqqında təkliflərini 28 fevral 2014-cü il tarixinədək Katibliyə bildirsin. |
| | 4. Protokolların açıqlanması məsələsinin müzakirəsi. | PWYP Katibliyinə ÇQ-nin son 3 iclasının protokollarından çıxarışlar Azərbaycan dilində göndərilsin.<br><br>Azərbaycanın MHŞT Katibliyi ÇQ-nin 28-ci iclasından başlayaraq müəyyən edilmiş for-matda protokollardan çıxarışlar hazırlasın və çıxarışlar Azərbaycan MHŞT rəsmi internet səhifəsində müvafiq bölmə açılmaqla orda hər iki dildə yerləşdirilsin. |
| | 5. QHT Koalisiya-sının hazırladığı hesabat formala-rının müzakirəsi | Auditor QHT Koalisiyasının tərtib etdiyi icmal cədvəllərinin doldurulması üçün İşçi qrupun hazırladığı hesabat formalarında məlumatların yetərli olub-olmamasını yoxlasın və 28 fevral 2014-cü il tarixinədək ÇQ-yə bildirsin |
| | 6. Digər məsələlər | MHŞT Katibliyi beynəlxalq MHŞT internet səhifəsində Azərbaycana dair bölmədə aşkar olunmuş bəzi məlumat çatışmazlığı və texniki qüsurların aradan qaldırılması ilə bağlı Beynəlxalq Katibliyə müraciət göndərilsin. |
| 13 mart | 1. Kontekstual məlumatların toplanması və Auditorun Şərtlər Toplusunun Stan-darta uyğunlaşdı-rılması məsələlə-rin müzakirəsi | Auditorun Şərtlər Toplusu auditor tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq yekun-laşdırılsın və 19 mart tarixinədək Katibliyə göndərilsin.<br><br>“Seçmə üsulu”nun tətbiq metodologiyası auditorun Şərtlər Toplusuna daxil edilsin. |
| | 2.Yeni Memoran-dumun yekun layihəsinin müza-kirəsi | Katiblik iclasda səslənmiş rəylərə əsasən yekun Memorandumlayihəsini hazırlayaraq 14 mart tarixinədək tərəflərə razılaşdırmaq üçün göndərsin.<br><br>Azərbaycanda MHŞT üçün hüquqi bazanın yaradılması məsələsinə baxılması 2014-cü il üzrə MHŞT İş planına əlavə edilsin |
| | 3.QHT Koalisiya-sının hazırladığı hesabat formala-rının müzakirəsi | Auditor hesabat formaları üzərində yenidən daha dərindən işləyərək işləri yekunlaşdırsın və 19 mart tarixinədək yekun formaları Katibliyə göndərilsin |
| | 4.MHŞT üzrə fəaliyyət hesaba-tının (2013-cü il) layihə mətninin müzakirəsi | ÇQ üzvü Q.İbadoğlu 2013-cü il üzrə Fəaliyyət hesabatına daxil ediləcək Koalisiyaya dair məlumatları Katibliyə 19 mart tarixinədək göndərsin.<br><br>ÇQ üzvləri 2013-cü il üzrə Fəaliyyət hesabatının mətninə dair yekun rəy və təklifləri olduğu təqdirdə 19 mart tarixinədək Katibliyə bildirsin.<br><br>MHŞT tərəflərinin internet səhifələrinin ünvanları siyahısı Fəaliyyət hesabata daxil edilmə-sin. |

| ÇQ iclasları-nın tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| | 5. Digər məsələlər | ÇQ üzvü Q.İbadoğlu 19 mart tarixinədək İctimai televiziya kanalında MHŞT haqqında verilişin keçirilməsinə dair müraciətin ünvanlanması üçün keçiriləcək verilişinlayihəsini hazırlayaraq Katibliyə göndərsin. |
| 15 aprel | 1. Yeni Memorandumun yekun layihəsinin müzakirəsi | QHT-lər qrupu Memorandumun yekunlayihəsinə Şirkətlər qrupu tərəfindən edilən son 2 dəyişikliyə İctimai Birliklərin MSŞA Koalisiyasının mövqeyini formalaşdıraraq, bununla bağlı MHŞT üzrə Katibliyi məlumatlandırsınlar.. |
| | 2. Hesabat formalarının və Auditor üçün yeni Şərtlər Toplusunun müzakirəsi | Koalisiyanın hazırladığı kontekstual xarakterli məlumatlar və icmal cədvəllər Auditorun Şərtlər Toplusuna əlavə edilsin.<br><br>Auditor iclasda səslənmiş rəyləri nəzərə almaqla Katiblik və SOCAR-ın nümayəndələri ilə birgə Şərtlər Toplusu yekunlaşdırsın və Katiblik öz növbəsində yekun sənədi ÇQ üzvləri ilə bölüşsün. |
| | 3. DSMF-dən əldə olunan məlumatların müzakirəsi | Növbəti hesabatlılıq dövründən etibarən DSMF-ə məcburi dövlət sosial sığorta haqları üzrə mədən sənayesi şirkətlərindən daxilolmalar MHŞT hesabatına kontekstual məlumat bölməsinə daxil edilsin. |
| | 4. Digər məsələlər | Katiblik Azərbaycanın MHŞT üzrə 2014-cü il İş planına proqnozlaşdırılan maliyyə məbləği sütununu əlavə etsin və yenilənmiş İş planını ÇQ üzvlərinə göndərsin.<br><br>Hər bir ÇQ üzvü MHŞT üzrə Beynəlxalq Katibliyin Azərbaycanın 2014-cü il üzrə İş planına dair rəyini nəzərdən keçirsin və fikirlərini bütün ÇQ üzvləri bölüşsün. |
| 10 iyun | 1. MHŞT-nin tətbiqinə dair hüquqi bazanın yaradılması üzrə müzakirə | QHT Koalisiyasının hazırladığı MHŞT haqqında Qanunlayihəsinin təqdimatı dinlənmiş hesab edilsin. |
| | 2. Yeni Memorandumun imzalanması | MHŞT üzrə yeni Memorandum 10 iyun 2014-cü il tarixində imzalanmış, 24 noyabr 2004-cü il tarixli Memorandum və ÇQ-nin fəaliyyətinə dair Razılaşma isə qüvvədən düşmüş hesab edilsin.<br><br>Yeni Memorandum MHŞT-nin rəsmi internet səhifəsində yerləşdirilsin və qüvvədən düşmüş sənədlər ləğv olunsun.<br><br>Azərbaycanın MHŞT tərəfləri arasında yeni Memorandumun imzalanması haqqında pres-reliz dərc olunsun. |
| | 3. Auditorun Şərtlər Toplusunun müzakirəsi | Auditorun Şərtlər Toplusunun əsas mətni ÇQ tərəfindən təsdiq edilmiş hesab edilsin. Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək vermək üçün ÇQ üzvləri əsas üzvlər - Q.İbadoğlu, K.Məhərrəmov, Z.Fətizadə və köməkçi üzvlər - A.Mehtiyev, A.Yusubovdan ibarət İşçi qrup yaradılsın. |

| ÇQ iclasları-nın tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| | 4.MHŞT üzrə 18-ci hesabatlılıq dövrünün (2013-cü ili əhatə edən) başlanması üzrə müzakirə | MHŞT üzrə 18-ci hesabatlılıq dövrü (2013-cü ili əhatə edən) başlanılsın və MHŞT üzrə Katiblik tərəfindən müvafiq tədbirlər görülsün. |
| 21 iyul | 1. İctimai birliklərin MSŞA Koalisiyası üzvü olan təşkilatların fəaliyyətində yaranmış çətinliklər üzrə müzakirə | Yaranmış çətinliklər və problemlər 2014-cü ilin sentyabr ayına qədər aradan qaldırılmazsa, MHŞT üzrə Katiblik bu məsələlərin müzakirəsi üçün cari ilin sentyabr ayında ÇQ-nin növbəti iclasını təşkil etsin |
| | 2.Auditorun hesabatında yer alacaq sintetik cədvəllər və kontekstual məlumatların hazırlanması işinə dəstək vermək üçün ÇQ üzvlərindən ibarət İşçi qrupun işi ilə bağlı müzakirə | Auditor kontekstual məlumatlarla bağlı verəcəyi hesabatın layihə strukturunu İşçi Qrupa təqdim etsin.<br><br>İşçi Qrupun iclası 26 avqust-9 sentyabr tarixləri arasında Katiblik tərəfindən təşkil edilsin. |
| 3 oktyabr | 1.2013-cü ili əhatə edən Hökumətin Hesabatı və Auditor hesabatının yekunlayihəsinin təqdimatı | Təqdim edilmiş auditorun 2013-cü ili əhatə edən MHŞT hesabatı nəzərə alınsın və 1 ay ərzində tərəflər hesabat barədə şərhlərini və qeydlərini bölüşsünlər.<br><br>Koalisiya 2013-cü il üzrə hesabat barədə rəyini 1 ay ərzində hazırlayaraq ÇQ-nin növbəti iclasında təqdim etsin. |
| | 2.İctimai birliklərin MSŞA Koalisiyası üzvü olan təşkilatların fəaliyyətində yaranmış çətinliklər üzrə müzakirə | |
| | 3.Digər məsələlər | MHŞT üzrə Katiblik 2013-cü il üzrə MHŞT İş planının icrası barədə qısa məlumat hazırlayaraq ÇQ üzvlərinə göndərsin və sözügedən məsələ növbəti ÇQ iclasında müzakirə edilsin. |

| ÇQ iclaslarının tarixləri | Gündəlik | Qəbul edilmiş qərarlar |
|---|---|---|
| 10 dekabr | 1. MHŞT üzrə Komissiyanın və Müstəqil Mühasiblərin hesabatlarına (2013-cü il üzrə) dair QHT Koalisiyasının rəyinin təqdimatı | Azərbaycanda 1 yanvar 2015-ci il tarixində başlanacaq MHŞT üzrə Qiymətləndirmə prosesini aparacaq Qiymətləndirici şirkətin hansı kriteriyalara uyğun seçilməsi və Beynəlxalq Katiblik tərəfindən ÇQ-yə verilmiş qısa müddətdə Qiymətləndirici şirkətin təsdiq edilməsinin qeyri-mümkünlüyü ilə bağlı yerli Katiblik Beynəlxalq Katibliyə müraciət etsin. |
| | 2. Azərbaycanda keçiriləcək Qiymətləndirmə haqqında müzakirə | Aşağıdakı məlumatlar MHŞT hesabatına daxil edilməsin və bunun əsasları 2013-cü il üzrə MHŞT hesabatında izah edilsin:<br>infrastruktur təchizi və barter razılaşmaları<br>submilli ödəmələr və submilli köçürmələr<br>sosial xərclər<br>lisenziya qeydiyyatı və yerləşdirilməsi<br>benefisiar sahibliyi |

# Əlavə 4 – 2014-cü ildə MHŞT-nin Azərbaycanda tətbiqinin MHŞT Standartının tələblərinə uyğun qiymətləndirməsi

| MHŞT Standartının tələbləri[10] | Azərbaycanın MHŞT standartının tələbi üzrə əldə etdiyi proqress |
|---|---|
| **1. Çoxtərəfli qrup səmərəli nəzarəti təmin etməlidir** | |
| Hökumətdən MHŞT-ni tətbiq etmək niyyətinə dair birmənalı ictimai bəyanat vermək tələb olunur. | +[11] |
| 1. 2. Hökumətdən MHŞT-nin tətbiq edilməsi üçün yüksək vəzifəli rəhbər şəxsi təyin etmək tələb olunur. | + |
| 1. 3. Hökumətdən vətəndaş cəmiyyəti və şirkətlərlə işləmək və MHŞT-nin tətbiqinə nəzarət etmək üçün Çoxtərəfli qrup təşkil etmək tələb olunur. | + |
| 1. 4. Çoxtərəfli qrupdan xərcləri (smetası) tam müəyyən edilmiş və MHŞT üzrə İdarə Heyətinin hesabatvermə və Qiymətləndirmə üzrə təyin etdiyi son tarixlərlə uyğunlaşdırılmış cari iş planı tələb olunur. | + |
| **2. MHŞT hesabatların vaxtlı-vaxtında nəşr olunmasını tələb edir** | |
| 2.1. Tətbiq edən ölkələrdən ilk MHŞT Hesabatını MHŞT Namizədi kimi qəbul edildikdən sonra 18 ay ərzində hazırlamaq tələb olunur. Bundan sonra tətbiq edən ölkələrdən hər il MHŞT Hesabatı hazırlamaq tələb olunacaq. | + |
| 2.2. MHŞT Hesabatları sonuncudan əvvəlki hesabat ilindən gec olmayan dövrü əhatə etməlidir, yəni 2014-cü il təqvim / maliyyə ilində nəşr edilmiş MHŞT Hesabatı 2012-ci təqvim / maliyyə ilindən əvvəlki yox, sonrakı məlumatlara əsaslanmalıdır. Çoxtərəfli qruplar MHŞT Hesabatlarını mümkün qədər tez nəşr etməyə səy göstərməlidirlər. MHŞT Hesabatı xeyli gecikdirildiyi hallarda, Çoxtərəfli qrup MHŞT Hesabatlarının aralıq hesabat müddətləri üçün də verildiyini təmin etmək məqsədi ilə tədbir görməlidir ki, hər bir il hesabat çərçivəsində əhatə edilsin | + |
| 2.3. Çoxtərəfli qrupdan MHŞT Hesabatı ilə əhatə edilən hesabat müddətinin razılaşdırılması tələb olunur. | + |
| **3. MHŞT-nin bu tələbinə əsasən, MHŞT Hesabatları mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrinə dair kontekstual məlumatı ehtiva etməlidir** | |
| 3.1. Kontekstual məlumatın tərtibi | + |
| 3.2. MHŞT Hesabatı mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayeləri tənzimləyən hüquqi konsepsiyanı və maliyyə rejimini təsvir etməlidir. | + |
| 3.3. MHŞT Hesabatları mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərin, həmçinin hər hansı diqqətəlayiq kəşfiyyat işlərinin icmalını verməlidir. | + |
| 3.4. MHŞT Hesabatları hesabatın əhatə etdiyi maliyyə ili ərzində mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərin iqtisadiyyata töhfəsi (mümkün hallarda) barədə məlumatı açıqlamalıdır. | + |

10 MHŞT Standartının tələbləri ilə daha ətraflı Azərbaycan MHŞT rəsmi internet səhifəsində tanış ola bilərsiniz, http://www.eiti.az/index.php/az/senedler/mhsht-standarti

11 MHŞT Standartının tələbinə cavab verir

| MHŞT Standartının tələbləri[10] | Azərbaycanın MHŞT standartının tələbi üzrə əldə etdiyi proqress |
|---|---|
| 3.5. MHŞT Hesabatı əhatə etdiyi maliyyə ili üçün aşağıdakılar daxil olmaqla hasilat məlumatlarını açıqlamalıdır.<br><br>a) Ümumi hasilat həcmləri və məhsul və müvafiq hallarda ştat/bölgə üzrə hasilatın dəyəri.<br>b) Ümumi ixrac həcmləri və məhsul və müvafiq hallarda ştat/bölgə üzrə ixracın dəyəri. | + |
| 3.6. Dövlətin mineral ehtiyatların hasilatı ilə məşğul olan sənayelərdə iştirakı əhəmiyyətli gəlir ödənişlərinin artmasına səbəb olursa, MHŞT Hesabatı aşağıdakıları ehtiva etməlidir:<br><br>a) hökumət və dövlət təşkilatları (DT) arasında maliyyə münasibəti ilə əlaqədar üstünlük təşkil edən qayda və təcrübələrin izahatı b) dövlət təşkilatlarının sosial xidmətlər, ictimai infrastruktur, yanacaq subsidiyaları və dövlət borcunun ödənilməsi kimi kvazi-fiskal xərclərinin açıqlanması. c) Hökumətin və dövlət təşkilatlarının ölkənin neft, qaz və mədən sektorunda fəaliyyət göstərən dağ-mədən, neft və qaz şirkətlərində, o cümlədən dövlət təşkilatlarının tabe şirkətlarında və birgə müəssisələrində olan benefisiar sahibliyi səviyyəsinin dəyişməsi, eləcə də sahiblik səviyyəsinin hesabat dövrü ərzində dəyişməsi ilə bağlı açıqlamalar. | + |
| 3.7. MHŞT Hesabatı mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrindən daxil olan gəlirlərin bölüşdürülməsini təsvir etməlidir. | + |
| 3.8. Çoxtərəfli qrup MHŞT Hesabatına gəlirlərin idarə edilməsi və xərclər barədə əlavə məlumatın, o cümlədən aşağıdakıların daxil edilməsinə həvəsləndirilir | *[12] |
| 3.9. Lisenziyaların qeydiyyatı | + |
| 3.10. Lisenziyaların təyinatı | + |
| 3.11. Benefisiar sahibliyi | * |
| 3.12. Müqavilələr | + |
| **4. MHŞT mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye gəlirləri barədə məlumatların hökumət tərəfindən tam açıqlanmasını və neft, qaz və mədən şirkətlərinin dövlətə köçürdüyü əhəmiyyətli ödənişlərin açıqlanmasını ehtiva edən hərtərəfli MHŞT Hesabatlarının hazırlanmasını tələb edir.** | |
| 4.1. MHŞT Hesabatında əhatə ediləcək vergi və gəlirlərin müəyyənləşdirilməsi | + |
| 4.2. Hansı şirkətin və hökumət müəssisəsinin hesabat verməsinin müəyyənləşdirilməsi | + |
| **5. MHŞT beynəlxalq standartların tətbiqi üzrə etibarlı zəmanət prosesinin olmasını tələb edir.** | |
| 5.1. Müstəqil inzibatçının təyin edilməsi | + |
| 5.2. Müstəqil inzibatçının Şərtlər Toplusunun razılaşdırılması | + |
| 5.3. Müstəqil inzibatçı tərəfindən qiymətləndirmə və tövsiyələr | + |
| 5.4. Çoxtərəfli qrup MHŞT Hesabatını nəşrdən əvvəl təsdiqləməlidir | + |

| MHŞT Standartının tələbləri[10] | Azərbaycanın MHŞT standartının tələbi üzrə əldə etdiyi proqress |
|---|---|
| **6. MHŞT tələb edir ki, MHŞT Hesabatları hərtərəfli olsun, fəal təbliğ edilsin və ictimaiyyət üçün açıq olmaqla yanaşı, ictimai müzakirələrə öz töhfəsini versin.** | |
| 6.1 Çoxtərəfli qrup MHŞT Hesabatının hərtərəfli olmasını, fəal təbliğ edilməsini və ictimaiyyət üçün açıq olmaqla yanaşı, ictimai müzakirələrə də töhfə verməsini təmin etməlidir. | + |
| 6.2. Çoxtərəfli qrupa tövsiyə olunur ki, MHŞT Hesabatlarını kompyuterdə oxuna bilən formatda hazırlasın və MHŞT Hesabatlarını, o cümlədən məlumat fayllarını ictimaiyyətə açıqlanmış digər məlumatla müqayisə oluna biləcək şəkildə kodlaşdırsın və ya işarələsin. | * |
| **7. MHŞT Çoxtərəfli qrupdan tələb edir ki, Çoxtərəfli qrup əldə olunan təcrübə əsasında fəaliyyət üçün tədbirlər görsün və MHŞT-nin tətbiqinin nəticə və təsirlərini nəzərdən keçirsin** | |
| 7.1. Çoxtərəfli qrupdan tələb olunur ki, o, əldə edilmiş təcrübə əsasında fəaliyyət üçün tədbirlər görsün, hər hansı uyğunsuzluq halını aşkarlayaraq təhqiq və həll etsin, o cümlədən Müstəqil inzibatçının təkmilləşdirmə ilə bağlı tövsiyələrini nəzərdən keçirsin. | + |
| 7.2. Çoxtərəfli qrupdan təbii ehtiyatların idarə edilməsi ilə bağlı MHŞT-nin tətbiqinin nəticə və təsirlərini nəzərdən keçirmək tələb olunur. | + |

# Əlavə 5 – MHŞT üzrə Katibliyin 2014-cü il üzrə xərcləri

| Xərc istiqaməti | Xərclər (manat) |
|---|---|
| MHŞT - Mətbəə | 3,929.40 |
| MHŞT - Ezam | 11,082.48 |
| MHŞT - Audit | 23,457.46 |
| **Cəmi** | **38,469.34** |

12 Ulduz işarəsi ilə qeyd edilmiş tələblər aşağıdakı mənanı kəsb edir: Maddə ilə tələb olunan məlumatlar Azərbaycanda mövcud olmadığına görə açıqlnamır/ və ya MHŞT Standartının tələbinin qarşılanmasına dair işlər davam etdirilir / və ya tələbin tətbiqi tövsiyə edildiyindən Azərbaycanda qismən tətbiq edilir və ya tətbiq edilmir.

# Azərbaycan Respublikası Hökumətinin mədən hasilatı sənayesində əldə etdiyi məcmu daxilolmaları barədə hesabat

## Hesabat dövrü: 1 yanvar – 31 dekabr 2014-cü il

| | | DƏYƏR | | HƏCM (naturada) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ABŞ dolları (milyon) | Azərbaycanı manatı (milyon) | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | mis konsentratında | |
| | | | | | | | | | qızıl (min unsiya) | gümüş (min unsiya) |
| 1 | | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| **1. Ərazisində fəaliyyət göstərdiyi ölkə hökumətinə xarici şirkətlərdən daxilolmalar** | | | | | | | | | | |
| 1.1 | Neft | 65.071 | | 160.820 | | | | | | |
| 1.2. | Təbii qaz | 523.153 | | | 27,379.408 | | | | | |
| 1.3. | Səmt qaz | | | | 2,892,987.824 | | | | | |
| 1.4. | Əlvan metallar (mis) | | | | | | | 0.071 | | |
| 1.5 | Qızıl | | | | | 7.702 | | | | |
| 1.6 | Gümüş | | | | | | 0.972 | | | |
| 1.7 | Hökumətə digər ödənişlər, cəmi, o cümlədən : | | | | | | | | | |
| | mis konsentratında qızıl | | | | | | | | 0.003 | |
| | mis konsentratında gümüş | | | | | | | | | 3.196 |
| **2. Hökumətin yerli şirkətlərdən daxilolmaları. Yerli şirkətlərin hasilatında dövlətə məxsus pay** | | | | | | | | | | |
| 2.1. | Neft | | | | | | | | | |
| 2.2. | Təbii qaz | | | | | | | | | |
| 2.3. | Səmt qaz | | | | | | | | | |
| 2.4. | Əsas metallar | | | | | | | | | |
| 2.5. | Qızıl | | | | | | | | | |
| 2.6 | Gümüş | | | | | | | | | |
| **3. Hökumətin xarici şirkətlərdən digər daxilolmaları (yerli dövlət şirkəti vasitəsilə toplanmış ödənişlər daxil olmaqla)** | | | | | | | | | | |
| 3.1. | Royalti (mədən vergisi) | | | | | | | | | |
| 3.2. | Mənfəət vergisi | | 1,265.693 | | | | | | | |
| 3.3. | Digər vergilər (fiziki şəxslərin gəlir vergisi, sosial və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | | | | | | | | |
| 3.4. | İmzalanma bonusları və digər bonuslar | 17.010 | | | | | | | | |
| 3.5. | Lisenziya və konsessiya haqları | | | | | | | | | |

| | | DƏYƏR | | HƏCM (naturada) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | ABŞ dolları (milyon) | Azərbaycanı manatı (milyon) | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | mis konsentratında | |
| | | | | | | | | | qızıl (min unsiya) | gümüş (min unsiya) |
| 3.6. | Hökumətə digər ödənişlər, cəmi, o cümlədən : | | | | | | | | | |
| | 3.6.1. akrhesabı ödənişlər | 2.118 | | | | | | | | |
| | 3.6.2. tranzit haqqı | 11.360 | | | | | | | | |
| | 3.6.3. qazın satışı üzrə müqavilə qiymətində edilmiş dəyişiklik nəticəsində yaranmış fərqdən daxilolmalar | | | | | | | | | |
| **4. Hökumətin yerli şirkətlərdən digər daxilolmaları** | | | | | | | | | | |
| 4.1 | Vergilər: | | | | | | | | | |
| | 4.1.1. Royalti (mədən vergisi) | | 112.643 | | | | | | | |
| | 4.1.2. Mənfəət vergisi | | 22.964 | | | | | | | |
| | 4.1.3. Əlavə dəyər vergisi | | 140.647 | | | | | | | |
| | 4.1.4. Torpaq vergisi | | 10.720 | | | | | | | |
| | 4.1.5. Əmlak vergisi | | 38.143 | | | | | | | |
| | 4.1.6. Qiymət fərqi | | 311.730 | | | | | | | |
| | 4.1.7. Sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla) | | 0.502 | | | | | | | |
| 4.2. | İmzalanma bonusları və digər bonuslar | | | | | | | | | |
| 4.3. | Lisenziya və konsessiya haqları | | | | | | | | | |
| 4.4. | Hökumətə digər ödənişlər, cəmi, o cümlədən : | | | | | | | | | |
| | | ABŞ dolları (milyon) | Azərbaycan manatı (milyon) | neft (milyon barel) | qaz (min kub metr) | qızıl (min unsiya) | gümüş (min unsiya) | əlvan metallar (min ton) | mis konsentratında qızıl (min unsiya) | mis konsentratında gümüş (min unsiya) |
| Cəmi: | | 618.712 | 1,903.042 | 160.820 | 2,920,367.232 | 7.702 | 0.972 | 0.071 | 0.003 | 3.196 |

MOORE STEPHENS
AZERBAIJAN

Azərbaycan Respublikası

# 31 Dekabr 2014-cü il tarixində bitən il üzrə MHŞT hesabatı

Yanvar 2016-cı il

# MÜSTƏQİL ADMİNİSTRATORUN HESABATI

**Azərbaycan Respublikası Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü ("MHŞT") üzrə Komissiyaya:**

Biz, MHŞT üzrə Komissiyanın ("Komissiya") bəyannaməsinin (bax: Əlavə 1) yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2014–cü il tarixində başa çatan il ərzində Azərbaycan Respublikası Hökumətinin ("Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən ("Şirkətlər") aldığı ödənişlərin/ayırmaların cədvəli MHŞT üzrə Komissiya, Azərbaycan Respublikasında mineral ehtiyatların hasilatı sahəsində çalışan yerli və xarici şirkətlər (bax Əlavə 2) və qeyri-hökumət təşkilatları və fiziki şəxslərin daxil olduğu Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (bax: Əlavə 5) Qarşılıqlı Anlaşma Memorandumuna ("QAM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası bəyannaməyə görə cavabdehdir. Bizim cavabdehliyimiz yoxlama əsasında Bəyannamə üzrə rəy ifadə etməkdir.

Aşağıdakı paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamanı Əminlik Yoxlamaları üzrə Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və bizim şərtlərdə vacib hesab etdiyimiz bu kimi başqa prosedurları həyata keçirmişik. İnanırıq ki, yoxlamamız rəyimizin əsaslı olmasını təmin edir.

Komissiya Bəyannaməsini yoxlamaq üçün əldə olunan məlumat QAM–ın üzvü olan Şirkətlərin yazılı ərizələrindən və Hökumətin aldığı ödənişlər/ayırmalara dair Komissiya tərəfindən təqdim edilən təfsilatlı hesabatlardan ibarət olmuşdur. Bizim yoxlamamız Hökumətin aldığı bütün ödənişləri/ayırmaları və Şirkətlərin etdiyi bütün ödənişləri/ayırmaları əhatə etməyib. Əgər Şirkətlər ödənişlər/ayırmalar həyata keçiribsə,lakin bu öz əksini nə Hökumətin, nə də Şirkətin təqdimatında tapmayıbsa, bizim yoxlamamız onları aşkar etmək üçün yetərli deyildir.

### İcra olunmuş işin xülasəsi

Komissiyanın Hesabatını (Əlavə 1) yoxlamaq üçün biz 31 dekabr 2014–cü il tarixində başa çatan il ərzində Hökumətin aldığı ödənişlərin/ayırmaların cədvəlinin (bax "Hökumətin cədvəli") QAM üzvü olan Şirkətlər tərəfindən hazırlanmış və Əlavə 2-də verilmiş cədvəllərlə ("Şirkətlər cədvəli") müqayisəsini aparmışıq. Yuxarıdakı cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək üçün biz şəraitin tələb etdiyi zəruri prosedurları həyata keçirmişik. Biz üzləşmə prosesinə cəlb olunan əməliyyatlar barədə əsaslı əminlik əldə etmək üçün müəyyən xüsusi yoxlama prosedurları həyata keçirdik. Biz bir neçə hasilat şirkətləri üzrə əminlik prosedurlarını tətbiq elədik.

# MÜSTƏQİL ADMİNİSTRATORUN RƏYİ

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/ayırmaların və Hökumət tərəfindən qəbul olunan bütün ödənişlərin/ayırmaların yoxlanmasını apardığımız zaman edilməsi zəruri olan hər hansı mümkün düzəlişlər (əgər olmuşsa) istisna olmaqla, bu hesabatda öz əksini tapmış yoxlamamıza əsaslanaraq verdiyimiz rəy belədir: 31 dekabr 2014-cü il tarixində başa çatan il ərzində qəbul olunmuş ödənişlərin/ayırmaların cədvəli ilə bağlı Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyanın Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış və bütün əhəmiyyətli hallar düzgün əks olunmuşdur.

26 yanvar 2016–cı il

# 1. İCMAL

## 1.1. Ümumi məlumat

MHŞT neft, qaz və mineral ehtiyatlarla zəngin olan ölkələrdə şirkətlərin hökumətə təqdim etdiyi ödənişlər və hökumətin daxilolmaları sahəsində şəffaflıq və hesabatlılığın təmin edilməsinə yönəldilmiş bir təşəbbüsdür. MHŞT şirkətlər, hökumətlər, sərmayəçilər və vətəndaş cəmiyyəti təşkilatları tərəfindən dəstəklənən könüllü təşəbbüsdür. Dövlət büdcəsində şəffaflığın təmin edilməsi sahəsində digər cəhdlərlə yanaşı MHŞT, həmçinin vətəndaşların öz hökumətlərindən büdcə gəlirlərinə dair açıqlama verməsinə nail olunmuş bir prosesdir.

Azərbaycan MHŞT-yə 2003-cü ildə qoşulmuş və Təşəbbüsün icrası ilə bağlı pilot ölkə olmağa könüllü olmuşdur. Azərbaycan hasilat sənayesi şirkətləri tərəfindən dövlətə edilən ödənişlərin və dövlət tərəfindən bu daxilolmaların açıqlanması, üzləşdirilməsi və dərc edilməsi ilə bağlı müntəzəm proses təsis etmişdir. Azərbaycanda birinci MHŞT hesabatı 2005–ci ildə dərc edilmişdir. Cari hesabat sayca 19–cu hesabat olmaqla, 31 dekabr 2014–cü ildə bitən ili əhatə edir.

2007–ci il 27 sentyabr tarixində Azərbaycan "MHŞT Namizədi" kimi qəbul edilmiş və 16 fevral 2009–cu ildə "MHŞT üzrə tam hüquqlu üzv" statusunu almışdır.

2014–cü ildə MHŞT–nin Azərbaycanda icrası əsas etibarilə təşəbbüsün və MHŞT hesabatlarının yeni MHŞT Standartına uyğun olaraq ölkədə icrası üzərində qurularaq hesabatların əhali üçün oxunaqlılığı və müfəssəlliyinin artırılması, MHŞT haqqında məlumatlılığın artırılması, dövlət, vətəndaş cəmiyyəti və şirkətlər arasında effektiv dialoqun təmin edilməsinə yönəlmişdir.

2015-ci ildə Brazzavilldə keçirilən 29-cu MHŞT Idarə Heyətinin toplantısında Azərbaycan Qiymətləndirmə hesabatına əsasən namizəd ölkə statusu almışdır. Qiymətləndirmə 2013-cü ilin MHŞT hesabatı üzərində aparılmışdır, baxmayaraq ki 2013-cü ilin hesabatının yekun versiyası təqdim olunmamışdır.

## 1.2. İşin məzmunu

Müstəqil Administratorun məqsədi 31 dekabr 2014–cü bitən il üzrə hasilat şirkətləri tərəfindən Hökumətə edilmiş ödənişləri/ayırmaları və Hökumət tərəfindən qəbul edilmiş ödənişləri/ayırmaları yığılması, yoxlanılması və üzləşdirilməsindən ibarətdir.

2014–cü ili əhatə edən MHŞT hesabatı yeni MHŞT Standartına uyğun olaraq hazırlanmalı və Şərtlər Toplusuna ("ŞT") əsasən Müstəqil Administratordan kontekstual məlumatın hazırlanması da tələb edilmişdir.

İşin icrası Çoxtərəfli Qrupda ("ÇQ") öz təsdiqini tapmış ŞT-ya uyğun olaraq yerinə yetirilmişdir və aşağıdakı əsas mərhələlərdən keçmişdir:

- Hesabat formalarının birbaşa iştirakçı şirkətlər və Komissiyadan alınması;
- Şirkətlərdən və Komissiyadan yığılmış hesabatlar əsasında məlumat bazasının hazırlanması;
- Şirkətlərdən yığılmış hesabatların Komissiya hesabatı ilə üzləşdirilərək uyğunsuzluqların müəyyən olunması;
- Uyğunsuzluqların aydınlaşdırılması məqsədilə şirkətlər və Komissiya ilə müzakirələrin aparılması;
- İlkin MHŞT hesabatının şirkətlər və Komissiyadan yığılmış hesabatlar və üzləşmə prosesində aşkar olunan fərqlər nəzərə alınmaqla hazırlanması; və
- Yekun hesabatın ÇQ-dən alınmış rəylər əsasında hazırlanması.

Biz, iş zamanı aşkar etdiyimiz nöqsanları hesabatda və onun müvafiq əlavələrində qeyd etmişik. Həyata keçirilən üzləşmə prosesi zamanı əldə olunan hesabatlar Beynəlxalq Audit Standartlarına və ya maliyyə hesabatlarının Beynəlxalq İcmal Yoxlamaları Standartlarına əsasən auditi və yoxlamanı nəzərdə tutmur və bu səbəbdən biz bu hesabatda qeyd olunan əməliyyatlara dair əminlik vermirik.

Bu hesabat özündə icmal, yanaşma və metodologiya, hasilat sənayesi üzrə kontekstual məlumatlar, üzləşmə prosesi və nəticələri, xüsusi yoxlama prosedurları, hökumət gəlirlərinin təhlili və tövsiyələri əks etdirir.

## 1.3. Məlumatların məxfiliyi, tamlığı və dəqiqliyi

Müstəqil Administrator Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") ilə imzalanmış 21 fevral 2013–cü il tarixli müqavilədə məxfilik haqqında müddəaya uyğun olaraq işlərin icrası zamanı əldə etdiyi bütün məlumatların məxfiliyini təmin etmişdir.

Biz ilkin hesabat formalarını 2015–ci ilin iyul ayından başlayaraq avqust ayınadək topladıq. Bütün lazımi hesabatlar hökumət və şirkətlər tərəfindən təqdim edildi. Biz ilkin hesabat formalarını topladıqdan sonra üzləşmə prosesinə başladıq və təhlil edərək fərqləri müəyyən etdik. Biz hasilat sənayesi şirkətlərinin ilkin olaraq təqdim etdikləri ödəniş şablonları ilə Hökumətin təsdiq etdiyi rəqəmlər arasında uyğunsuzluqlar müşahidə etdik.

MHŞT-nin Azərbaycanda tətbiqinə dair Qarşılıqlı Anlaşma Memorandumunu imzalamış xarici və yerli şirkətlərin sayı 39-a çatmışdır. 12 noyabr 2015-ci il tarixində Azərbaycanda yeni fəaliyyət göstərən "SGC Upstream" şirkəti Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün ("MHŞT") Azərbaycanda tətbiqinə dair QAM qoşulması barədə aktı imzalamışdır. İştirakçı şirkətlərin siyahısı hesabata dair Əlavə 2–də göstərilmişdir (Əlavə 2. Hasilat sənayesi şirkətləri).

Azərbaycan Respublikasında hökumətə ödənişləri həyata keçirən bütün hasilat şirkətləri Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünə dair Anlaşma Memorandumunu imzalamışdır. Bu şirkətlər üzləşmə prosesində iştirak etmişdir və hesabatlarını 2014-cü il üzrə təqdim etmişdirlər.

## 1.4. Üzləşmə prosesinin nəticələri

İlkin hesabat formalarına əsasən üzləşmə prosesi başa çatdıqdan və fərqlər aradan götürüldükdən sonra hasilat sənayesi şirkətləri və Hökumət tərəfindən göstərilən ödənişlər arasında yekun fərq aşağıdakı kimi olmuşdur:

| Gəlir növləri/məhsul | Hasilat sənayesi şirkətləri | Hökumət | Fərq | Yekun fərq |
|---|---|---|---|---|
| **Neft-qaz ehtiyatları üzrə** | | | | |
| neft (mln ABŞ dolları) | 77,5 | 65,1 | 12,4 | - |
| qaz (mln ABŞ dolları) | 523,2 | 523,2 | - | - |
| neft (mln barel) | 160,9 | 160,8 | 0,1 | - |
| təbii qaz (min $m^3$) | 27 379,4 | 27 379,4 | - | - |
| səmt qazı (min $m^3$) | 2 720 827,9 | 2 892 987,8 | (172 159,9) | - |
| **Qızıl-gümüş ehtiyatları üzrə** | | | | |
| qızıl (min unsiya) | 7,7 | 7,7 | - | - |
| gümüş (min unsiya) | 1,0 | 1,0 | - | - |
| qızıl konsentratı (min unsiya) | 0,003 | 0,003 | - | - |
| gümüş konsentratı (min unsiya) | 3,2 | 3,2 | - | - |
| mis konsentratı (min unsiya) | 0,07 | 0,07 | - | - |
| **Vergilər və sair ödənişlər** | | | | |
| mənfəət vergisi (mln ABŞ dolları) | 1 543,1 | 1 613,7 | (70,6) | - |
| mənfəət vergisi (mln manat) | 22,9 | 22,9 | - | - |
| royalti (mln manat) | 112,6 | 112,6 | - | - |
| ƏDV (mln manat) | 140,7 | 140,7 | - | - |
| əmlak vergisi (mln manat) | 38,1 | 38,1 | - | - |
| torpaq vergisi (mln manat) | 10,7 | 10,7 | - | - |
| qiymət fərqi (mln manat) | - | 311,7 | (311,7) | - |
| sair vergilər (mln manat) | 1 083,3 | 0,5 | 1 082,8 | - |
| akrhesabı ödənişlər | 2,1 | 2,1 | - | - |
| ARDNF-a nəqletmə tarifi | 3,9 | 11,4 | (7,5) | - |
| bonuslar | 8,4 | 17,0 | (8,6) | - |

Hesabat təqdim edən şirkətlərin ilkin məbləğinə edilmiş dəyişikliklər və həll olunmamış qalıq fərqləri hesabatın 5.6 bölməsində təqdim olunmuşdur.

Aşağıdakı cədvəldə MHŞT-a qoşulmuş şirkətlərin hökumətə etdiyi nağd pul vəsaitləri şəklində ödənişlərin yekun məbləğləri göstərilmişdir:

| Hasilat sənayesi şirkətləri | Gəlir növü (nağd pul vəsaitləri şəklində) | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | (mln ABŞ dolları) | | | | | (mln ABŞ dolları) | (mln AZN) | (mln AZN) | | | | | |
| | Neft hasilatı üzrə pul vəsaitləri | Qaz hasilatı üzrə pul vəsaitləri | Bonus | ARDNF-ə nəqletmə tarifi | Akrhesabı ödənişlər | Mənfəət vergisi | | Mədən vergisi | ƏDV | Əmlak vergisi | Torpaq vergisi | Qiymət fərqi | Sair vergilər |
| Abşeron İnvestment Limited | 8,2 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Azen Oyl Kompani B.V. | - | - | - | - | - | 4,7 | - | - | - | - | - | - | - |
| Azərbaycan (AÇG) Limited | - | - | - | 0,5 | - | 153,7 | - | - | - | - | - | - | - |
| Azərbaycan (Şah Dəniz) Limited | - | 60,2 | - | - | - | 25,7 | - | - | - | - | - | - | - |
| Bahar Energy Limited | 8,9 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Binəqədi Oyl Kompani | 8,8 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| BP Eksploreyşn (Azərbaycan) Limited | | 147,0 | 4,8 | | - | 75,8 | - | - | - | - | - | - | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | - | - | - | 1,4 | - | 441,7 | - | - | - | - | - | - | - |
| BP Şəfəq-Asiman Limited | - | - | - | - | 2,1 | - | - | - | - | - | - | - | - |
| CNPC | - | - | - | - | - | 3,8 | - | - | - | - | - | - | - |
| Commonvealth | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Ekson Azərbaycan Limited | - | - | - | 0,3 | - | 104,3 | - | - | - | - | - | - | - |
| Əli-Bayramlı Neft MMC | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Focnmeyt Əssets Limited | - | - | - | - | - | 3,8 | - | - | - | - | - | - | - |
| GDF SUEZ E&P Absheron BV | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Inpeks Sausvest Kaspian Si, Ltd. | - | - | - | 0,4 | - | 147,6 | - | - | - | - | - | - | - |
| İtoçu Oyl Eksploreyşn (Azərbaycan) Inc. | - | - | - | 0,2 | - | 55,9 | - | - | - | - | - | - | - |
| Karasu Development Kompani | - | - | - | - | - | 9,4 | - | - | - | - | - | - | - |
| Kura Valeey Development Company LTD | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Qobustan Neft MMC | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Lukoyl Oversiz Shah Deniz | - | 52,3 | 1,9 | - | - | 21,5 | - | - | - | - | - | - | - |
| Naftiran Intertrade Co (NICO) Limited | - | 52,3 | 1,9 | - | - | 9,6 | - | - | - | - | - | - | - |
| Neftçala İnvestments Limited | 0,8 | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Novatis Oyl F.Z.E. | 15,2 | - | - | - | - | 8,3 | - | - | - | - | - | - | - |
| ONGC Videş Limited | - | - | - | 0,1 | - | 34,6 | - | - | - | - | - | - | - |
| R.V. Investment Group Services | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| Salyan Neft MMC | - | - | - | - | - | 0,7 | - | - | - | - | - | - | - |
| SGC Upstream MMC | - | 12,4 | - | - | - | - | - | - | - | - | - | - | - |
| Statoil Apsheron A.S | - | - | - | 0,3 | - | 95,8 | - | - | - | - | - | - | - |
| Statoil Shah Deniz AS | - | 99,6 | 4,8 | - | - | 76,0 | - | - | - | - | - | - | - |
| Şevron Xəzər, Ltd. | - | - | - | 0,4 | - | 152,2 | - | - | - | - | - | - | - |
| Shirvan İnvestment Limited | 10,2 | - | - | - | - | 5,8 | - | - | - | - | - | - | - |
| Total E & P Abşeron B.V | - | - | - | - | - | - | - | - | - | - | - | - | - |

| Hasilat sənayesi şirkətləri | Gəlir növü (nağd pul vəsaitləri şəklində) | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | (mln ABŞ dolları) | | | | | (mln ABŞ dolları) | (mln AZN) | (mln AZN) | | | | | |
| | Neft hasilatı üzrə pul vəsaitləri | Qaz hasilatı üzrə pul vəsaitləri | Bonus | ARDNF-ə nəqletmə tarifi | Akrhesabı ödənişlər | Mənfəət vergisi | | Mədən vergisi | ƏDV | Əmlak vergisi | Torpaq vergisi | Qiymət fərqi | Sair vergilər |
| TOTAL E & P Azərbaycan B.V. | - | 37,0 | 1,9 | - | - | 62,6 | - | - | - | - | - | - | - |
| Türkiye Petrolleri Anonim Ortaqlığı | - | - | - | 0,3 | - | 86,9 | - | - | - | - | - | - | - |
| Türkiş Petroleum Oversiz Kompani Ltd | - | 62,4 | 1,7 | - | - | 23,0 | - | - | - | - | - | - | - |
| UGE-LANCER PTE.LTD | 13,0 | - | - | - | - | 10,3 | - | - | - | - | - | - | - |
| SOCAR | - | - | - | - | - | - | 19,6 | 112,6 | 140,7 | 38,1 | 10,7 | 311,7 | 0,5 |
| ARDNF | - | - | - | 7,5 | - | - | - | - | - | - | - | - | - |
| AzGerneft | - | - | - | - | - | - | 3,3 | - | - | - | - | - | - |
| | 65,1 | 523,2 | 17,0 | 11,4 | 2,1 | 1 613,7 | 22,9 | 112,6 | 140,7 | 38,1 | 10,7 | 311,7 | 0,5 |

Aşağıdakı cədvəldə MHŞT-a qoşulmuş şirkətlərin hökumətə etdiyi natura şəklində ödənişlərin yekun məbləğləri göstərilmişdir:

| Hasilat sənayesi şirkətləri | Gəlir növü (natura şəklində) | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | (nemb) | (min m³) | (min m³) | (min unsiya) | | | | |
| | Xam neft | Təbii qaz | Səmt qazı | Qızıl | Gümüş | Qızıl konsentratı | Gümüş konsentratı | Mis konsentratı |
| Abşeron İnvestment Limited | - | - | 60 672,0 | - | - | - | - | - |
| Azen Oyl Kompani B.V. | - | - | - | - | - | - | - | - |
| Azərbaycan (AÇG) Limited | 18,7 | - | - | - | - | - | - | - |
| Azərbaycan (Şah Dəniz) Limited | - | - | - | - | - | - | - | - |
| Bahar Energy Limited | - | 27 379,4 | 7 896,9 | - | - | - | - | - |
| Binəqədi Oyl Kompani | - | - | 125,5 | - | - | - | - | - |
| BP Eksploreyşn (Azərbaycan) Limited | - | - | - | - | - | - | - | - |
| BP Eksploreyşn (Kaspian Si) Limited | 57,5 | - | 2 776 473,3 | - | - | - | - | - |
| BP Şəfəq-Asiman Limited | - | - | - | - | - | - | - | - |
| CNPC | - | - | 8 152,1 | - | - | - | - | - |
| Commonvealth | - | - | - | - | - | - | - | - |
| Ekson Azərbaycan Limited | 12,9 | - | - | - | - | - | - | - |
| Əli-Bayramlı Neft MMC | - | - | - | - | - | - | - | - |
| Focnmeyt Əssets Limited | - | - | 8 152,1 | - | - | - | - | - |
| GDF SUEZ E&P Absheron BV | - | - | - | - | - | - | - | - |
| Inpeks Sausvest Kaspian Si, Ltd. | 17,6 | - | - | - | - | - | - | - |
| İtoçu Oyl Eksploreyşn (Azərbaycan) Inc. | 6,9 | - | - | - | - | - | - | - |
| Karasu Development Kompani | - | - | - | - | - | - | - | - |
| Kura Valeey Development Company LTD | - | - | - | - | - | - | - | - |

MHŞT Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü

| Hasilat sənayesi şirkətləri | Gəlir növü (natura şəklində) | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | (nemb) | (mln m³) | (mln m³) | (mln unsiya) | | | | |
| | Xam neft | Təbii qaz | Səmt qazı | Qızıl | Gümüş | Qızıl konsentratı | Gümüş konsentratı | Mis konsentratı |
| Qobustan Neft MMC | - | - | - | - | - | - | - | - |
| Lukoyl Oversiz Shah Deniz | - | - | - | - | - | - | - | - |
| Naftiran Intertrade Co (NICO) Limited | - | - | - | - | - | - | - | - |
| Neftçala İnvestments Limited | - | - | - | - | - | - | - | - |
| Novatis Oyl F.Z.E. | - | - | 4 783,6 | - | - | - | - | - |
| ONGC Videş Limited | 4,4 | - | - | - | - | - | - | - |
| R.V. Investment Group Services | - | - | - | 7,7 | 1,0 | 0,003 | 3,2 | 0,07 |
| Salyan Neft MMC | - | - | 16 304,2 | - | - | - | - | - |
| SGC Upstream MMC | - | - | - | - | - | - | - | - |
| Statoil Apsheron A.S | 13,8 | - | - | - | - | - | - | - |
| Statoil Shah Deniz AS | - | - | - | - | - | - | - | - |
| Şevron Xəzər, Ltd. | 18,1 | - | - | - | - | - | - | - |
| Shirvan İnvestment Limited | - | - | 9 441,9 | - | - | - | - | - |
| Total E & P Abşeron B.V | - | - | - | - | - | - | - | - |
| TOTAL E & P Azərbaycan B.V. | - | - | - | - | - | - | - | - |
| Türkiye Petrolleri Anonim Ortaqlığı | 10,9 | - | - | - | - | - | - | - |
| Türkiş Petroleum Oversiz Kompani Ltd | - | - | - | - | - | - | - | - |
| UGE-LANCER PTE.LTD | - | - | 986,2 | - | - | - | - | - |
| SOCAR | - | - | - | - | - | - | - | - |
| ARDNF | - | - | - | - | - | - | - | - |
| AzGerneft | - | - | - | - | - | - | - | - |
| | 160,8 | 27 379,4 | 2 892 987,8 | 7,7 | 1,0 | 0,003 | 3,2 | 0,07 |

# 2. YANAŞMA VƏ METODOLOGİYA

## 2.1. İlkin iş mərhələsi

Biz ilkin iş mərhələsini üzləşmə prosesi ilə birləşdirdik, 31 dekabr 2014–cü il üzrə üzləşmə prosesini hazırlayarkən onu əhatə edən aşağıdakı vacib məsələlərə nəzər yetirdik:

- Ödənişlər və daxilolmalar üzrə əhəmiyyətlilik dərəcəsi;
- Əhatə olunacaq vergilər və daxilolmalar;
- Hesabat təqdim edəcək şirkətlər və dövlət qurumları (bölmə 4.1 və 4.2); və
- Hesabat təqdim edən şirkətlər tərəfindən bizə verilən məlumatlara əminlik.

Azərbaycan 10 ildən artıqdır ki, üzləşmə prosesinə dair təcrübə qazanmış və şəffaflıq üzrə təşəbbüslə əlaqədar hesabat təqdim etmək üçün kifayət qədər imkanlara malikdir. Biz Azərbaycan Respublikası Vergilər Nazirliyindən hasilat sektoru ilə bağlı qeydə alınmış şirkətlərin tələb olunan məlumat bazasını əldə etdik.

## 2.2. Əhəmiyyətlilik dərəcəsinin müəyyən edilməsi

Şirkətlərin və hökumətin etdiyi əhəmiyyətli sayılan ödənişlərin təsdiqi üçün, ÇQ müvafiq ödəniş növlərininin əhəmiyyətliliyini müəyyən etməlidir. Azərbaycanda mədən hasilatı ilə məşğul olan bütün xarici və yerli şirkətlər tərəfindən Azərbaycan dövlətinə köçürülən gəlirlər üzrə (natura və dəyər ifadəsində) əhəmiyyətlilik həddinin müəyyən edilməsi aşağıdakı iki mərhələdə baş verir:

*Hesabata daxil edilən əhəmiyyətli gəlir mənbələrinin müəyyən edilməsi:*
MHŞT üzrə ÇQ tərəfindən əhəmiyyətli sayılan gəlir mənbələri aşağıdakı kimi müəyyənləşdirilib:

- Neft hasilatı üzrə natura və dəyər ifadəsində;
- Təbii və səmt qazı natura və dəyər ifadəsində;
- Əsas və qiymətli metallar üzrə natura və dəyər ifadəsində;
- Mənfəət vergisi;
- İmzalanma və digər bonuslar;
- Akr ödənişləri və tranzit haqları [13]; və
- Mədən vergisi, əlavə dəyər vergisi, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi və sair vergilər (fiziki şəxslərin gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırmalar və ödəmə mənbəyindən tutulan vergilər istisna olmaqla).
- Akr ödənişləri, bonusları və tranzit haqları hasilat sənayesi şirkətləri tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fonduna köçürülür;
- Təbii və səmt qazını hasilat sənayesi şirkətləri Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə transfer edirlər; və
- Müvafiq vergi ödənişləri (mənfəət vergisi, ƏDV, torpaq vergisi, əmlak vergisi, qiymət fərqi və sair vergilər) hasilat sənayesi şirkətləri Azərbaycan Respublikası Vergilər Nazirliyinə köçürürlər.

13 Tranzit haqqı və nəqletmə tariflərinin anlayışları oxşar olduğundan, hesabatda nəqletmə tarifi kimi istinad olunacaqdır. Nəqletmə tarifinin təsviri hesabatın 44–cü səhifəsinin 3.1 bəndində qeyd olunmuşdur.

Qeyd edilməlidir ki, dividend ödənişləri mövcud olmadığından ÇQ-nin 12 aprel 2012–ci il tarixli qərarı ilə 2013–cü ildən başlayaraq dividend xanası hesabat formalarından çıxarılmışdır.

*Hər müəyyən edilmiş gəlir mənbəyi üzrə əhəmiyyətli sayılan məbləğ/həcm həddi:*
Göstərilmiş gəlir mənbələri üzrə Azərbaycan hökumətinə sıfırdan (0–dan) yuxarı məbləğdə/həcmdə daxilolmalar əhəmiyyətli sayılır və hesabatda əks etdirilir.

## 2.3. Üzləşmə prosesi

Bizim hesabat yalnız Şirkətlərdən və Hökumətdən aldığımız faktiki məlumatların üzləşdirilməsi, fərqlərin araşdırılaraq şərhindən ibarətdir və aşağıdakı əsas mərhələlərdən keçib. Bizim yanaşmamız mütəmadi məsləhətləşmələr vasitəsilə bütün sualların qısa zaman ərzində həll olunması və üzləşmənin əsas mərhələyə keçməsinə şərait yaratmaq məqsədi daşıyır.

*İlkin iş mərhələsi:*
Bu, məlumatların toplanması ilkin mərhələdir:

- Əməliyyatlar haqqında anlayışın əldə edilməsi;
- Tapşırığın düzgün perspektivdə təhlilinin aparılması; və
- Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində fəaliyyət göstərən şirkətlərin ödənişləri və Hökumətə daxilolmalar haqqında məlumatların toplanması.

*Üzləşmə mərhələsi:*
Tapşırığın ən mühüm hissəsi olan üzləşmə mərhələsində aşağıdakı işlər həyata keçirilir:

- Sənədlərin yoxlanılması;
- Hesabatların üzləşdirilməsi və təhlili; və
- Fərqlərin araşdırılması

*Əminlik mərhələsi:*
Bu mərhələ, əminlik dərəcəsinin artırılması üçün seçim üsulu əsasında icra olunur. Aşağıdakı işlər həyata keçirilmişdir:

- Hasilat şirkətləri siyahısından ÇQ ilə razılaşdırılmış seçim üsulu ilə şirkətlərin seçilməsi;
- Seçilmiş şirkətlərdə təsdiqedici sənədlərin nəzərdən keçirilməsi; və
- İcra olunmuş işin yekunlaşması barədə nəticənin hesabata daxil edilməsi.

*Rəy mərhələsi:*
Bu mərhələ zamanı aşağıdakı işlər həyata keçirilir:

- İlkin MHŞT hesabatının ÇQ üzvlərinə təqdim edilməsi;
- İlkin MHŞT hesabatına dair şərhlərin qəbul edilməsi;
- Yekun hesabatın ÇQ–yə təqdim edilməsi; və
- Hesabata dair Koalisiya rəyinin əldə olunması.

Üzləşdirmə zamanı Müstəqil Administratorun əsas vəzifələrinə aşağıdakı mühüm məsələlər daxildir:
*Hesabat şablonlarının paylanması:* Hesabat şablonları MHŞT Katibliyi tərəfindən məktublara əlavə olunaraq müvafiq şirkətlərə və hökumət orqanlarına göndərilir.

*Müvafiq şirkətlərlə və Hökumətlə iş:* Bu mərhələ iş prosesində yaranan sualların aydınlaşdırılması və hesabatların təhvil verilmə vaxtına riayət edilməsi məqsədilə Şirkətlərlə və Hökumətlə danışıqlardan ibarətdir.

- MHŞT üzrə Katiblikdən Hesabat Şablonlarının bütün Şirkətlərə paylanması barədə təsdiqedici sənəd alındıqdan sonra biz üzləşmə işlərini başlamaq üçün əsas əlaqədar şəxslərin siyahısını əldə edirik; və
- Hesabatlar hər hansı bir şirkət və ya hökumət orqanı tərəfindən təqdim olunmadığı təqdirdə MHŞT üzrə Katiblik bu barədə məlumatlandırılır.

*Məlumatların toplanması:* Bu mərhələ Şirkətlər və Hökumət tərəfindən doldurulmuş Hesabat Şablonlarının və təsdiqedici sənədlərin toplanmasından ibarətdir.

- Hesabatların Müstəqil Administratora təqdim edilməsinin son tarixi 28 avqust 2015–ci il olaraq MHŞT Katibliyi tərəfindən müəyyən edilmişdir; və
- Hesabatın yekun versiyasını tələb olunan vaxtda təhvil vermək məqsədilə biz şirkətlər tərəfindən təqdim olunmuş hesabatları müəyyən edilmiş tarixə qədər toplayaraq üzləşmə prosesinə başlamışdıq.

*Şirkətlərin ödənişləri:*
ÇQ üzvləri tərəfindən imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna daxil olan şirkətlər, hesabat şablonlarını bizə təqdim etmişdirlər. Hesabat şablonlarının düzgün şəkildə doldurulması məqsədilə hesabat şablonlarına əlavə texniki qaydalar daxil edilmişdir.

*Hökumət hesabatlarından daxilolmalar:*
Biz aşağıda qeyd edilən Dövlət qurumlarından hesabatlar aldıq:

- Azərbaycan Respublikası Dövlət Neft Fondu;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkəti;
- Azərbaycan Respublikası Vergilər Nazirliyi; və
- Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi.

*Nöqsanlar və uyğunsuzluqlar:* Bu mərhələ üzləşmə zamanı şirkətlər və hökumət tərəfindən təqdim olunan məlumatlar arasında fərqlərin tapılmasını əhatə edir.

- Əldə olunmuş hesabat şablonları üzrə təhlilimizi asanlaşdırmaq məqsədilə hər bir şirkət üçün fərdi üzləşmə cədvəli yaratdıq, və bu cədvəldə şirkətin ödənişlərini və hökumətin gəlirlərini əks etdirən xanalar yaratdıq;
- Şirkətlər və hökumət tərəfindən məlumatlar əldə olunduqdan sonra hesabata daxil edilmiş ödənişlər və gəlirlər təhlil üçün cədvəllərə daxil edilmişdir; və
- Bütün məlumatlar əldə edildikdən sonra şirkətlərin ödəniş/ayırmaları və hökumətin daxilolmaları arasındakı uyğunsuzluqların tapılması məqsədilə müqayisə aparılmışdır.

Üzləşmə prosesi zamanı yaranan fərqlərin izahını əldə etmək məqsədilə müvafiq şirkət və hökumət komissiyası ilə əlaqə saxlayıb bu uyğunsuzluğun səbəbini müəyyənləşdirmək üçün təsdiqedici sənədlər tələb etdik. Bu mərhələdə yerinə yetirilmiş işlərin təsviri aşağıda göstərilmişdir:

- Məlumat bazasından istifadə edərək fərqləri araşdırmaq üçün hansı növ əlavə məlumatınlazım olduğunu müəyyən etmişdik;
- Biz uyğunsuzluqların aradan qaldırılması məqsədilə bütün şirkətlərə və hökumətəlazım olan təsdiqləyici sənədlərin bizə təqdim etmələrini xahiş etmişdik; və
- Əgər əlavə təsdiqləyici sənədlər uyğunsuzluğun aradan qaldırılması üçün münasib deyildirsə və ya heç bir əlavə sənəd təqdim olunmurdusa, biz bu fərqi "qeyri-müəyyən/izah olunmayan uyğunsuzluq" kimi hesab etmişdik.

## 2.4. MHŞT məlumatlarının etibarlılığı

MHŞT-nin 5-ci tələbinə əsasən məlumatların etibarlılığını təmin etmək məqsədilə aşağıdakılar tələb edilmişdir:

- Şirkətlərin hesabatları rəhbər işçi heyəti tərəfindən imzalanmalıdır;
- Hökumət orqanlarının hesabatları müvafiq hökumət qurumunun rəhbəri tərəfindən imzalanmalıdır; və
- Hesabat təqdim edən şirkətlər ödənişləri/daxilolmaları təsdiq edərkən ödəmələr üzrə müvafiq sənədlərə əsaslanmalıdırlar.

Biz, üzləşmə prosesinə cəlb olunan əməliyyatlar barədə əsaslı əminlik əldə etmək üçün xüsusi yoxlama prosedurları həyata keçirdik. Müvafiq yoxlama prosedurları Şərtlər Toplusunda qeyd olunmuş şəkildə həyata keçirilmişdir. Bununla bağlı ətraflı məlumatlar hesabatın 6-cı bölməsində əks etdirilmişdir. Xüsusi yoxlama hesabatda göstərilən nağd və natura formada köçürmələrin seçilib yoxlanmasını əhatə etmişdir.

HPBS-lərin şərtinə əsasən hasilat sənayesində iştirak edən şirkətlər müvafiq prosedurlar çərçivəsində müqavilə öhdəliklərini yerinə yetirməlidirlər. HPBS-lərin mühasibatlıq prosedurlarına əsasən bütün şirkətlər hər təqvim ilindən 7 ay gec olmayaraq beynəlxalq audit şirkətləri tərəfindən audit yoxlamasından keçməlidirlər. [14]

Şirkətlərin maliyyə hesabatlarının auditi Beynəlxalq Audit Standartlarına əsasən həyata keçirilir. MHŞT hesabatlarının kassa metoduna əsasən hazırlanmasına baxmayaraq, Şirkətlərin maliyyə hesabatları hesablama metoduna əsasən hazırlanmışdır.

Azərbaycan Respublikasında HPBS üzrə fəaliyyət göstərən şirkətlər hər təqvim ili üçün vergi, maliyyə hesabatları və mənfəət vergisi haqqında bəyannamə, auditorun müvafiq arayışı ilə birlikdə sonrakı təqvim ilinin on beş (15) martından və ya on beş (15) aprelindən gec olmayaraq vergi orqanlarına təqdim edir. [15]

MHŞT hesabatlarına müstəqil auditorlar tərəfindən rəyin verilməsi tətbiqi olmadığından, hesabatlar şirkətin vəzifəli şəxsləri tərəfindən izmalanır. Məlumatların tamlığını və düzgünlyünu təmin etmək məqsədilə Şərtlər Toplusunda hesabatların şirkətin vəzifəli şəxsləri tərəfindən imzalanması qeyd edilmişdir.

Hökumət tərəfindən təqdim edilən hesabat Azərbaycan Respublikası Vergilər Nazirliyi, Azərbaycan Respublikası Ekologiya Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən imzalanmış hesabat şəklində hazırlanır və hökumətin adından MHŞT komissiyasının sədri hesabatı imzalayaraq təqdim edir.

MHŞT standartının 5.3. c) bəndinin tələbinə əsasən 2014-cü bitən il üzrə şirkətlər və hökumət tərəfindən təqdim edilən hesabatlarda əks etdirilmiş məlumatların dəqiqliyi, etibarlılığı və tamlığı tərəfimizdən üzləşdirilib hesabata daxil edilmişdir. Üzləşdirmə prosesi zamanı MHŞT-da iştirak edən şirkətlərin və hökumətin təqdim etdiyi rəqəmlər tam olaraq yoxlanılıb, zəruri düzəlişlər qeyd edilərək hesabatda öz əksini tapmışdır. Üzləşmə prosesinin nəticəsinə əsasən bütün fərqlər aradan qaldırılmışdır.

---

14 "HPBS-"Şəfəq-Asiman" perspektiv strukturu" "Əlavə 3-Mühasibat Uçotunun Aparilması Qaydası", "1.3 Auditor təftişləri", http://www.eiti.az/index.php/az/senedler/sazishler/44-shefeq-asiman-hasilatin-pay-bolgusu

15 http://tedris.taxes.gov.az/uploads/files/1_2_7_-Xususi%2Bvergi%2Brejimi,%2Bbelediyye%2Bvergileri.pdf

MHŞT standartının 5.3. d) bəndinə uyğun olaraq 2014-cü ilin MHŞT hesabatında üzləşmə prosesi nəticəsində QAM-ı imzalamış bütün şirkətlərin hesabatları əldə edilərək hökumətin təqdim etdiyi məlumatlarla üzləşdirilmişdir. Bu bəndin tələbinə əsasən hər hansı çatışmazlıq mövcud olmadığından əlavə açıqlama göstərilməmişdir.

MHŞT standartının 5.3. e) bəndinə uyğun olaraq dövlət şirkətinin maliyyə hesabatları beynəlxalq audit standartına müvafiq olaraq auditdən keçir və rəsmi internet səhifəsində dərc olunur.[16] Dövlət qurumları hər il Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən yoxlama prosedurlarından keçir. Dövlət qurumlarına aid olan gəlir və xərc növləri dövlət büdcəsini formalaşdırır və Azərbaycan Respublikası Prezidenti tərəfindən qanun formasında təsdiqlənir. Azərbaycan Respublikası Dövlət Neft Fondu hər il maliyyə hesabatları beynəlxalq audit standartlarına uyğun olaraq yoxlanılır və rəsmi internet səhifəsində yerləşdirilir.[17]

## 2.5. Mühasibatlıq siyasəti

2014–cü il üzrə hasilat sənayesi şirkətləri tərəfindən edilən ödənişlər və hökumət tərəfindən əldə edilən daxilolmalara dair üzləşmə prosesində mühasibat uçotunun kassa metodundan istifadə edilmişdir.

Ödənişlər xarici valyutada edildiyindən, hesabat verən müəssisədən hesabatı ödəniş valyutasına uyğun olaraq verilməsi tələb olunurdu. Amerika Birləşmiş Ştatları dollarında (ABŞ dollarında) edilən ödənişlər Mərkəzi Bankın orta illik məzənnəsinə uyğun olaraq AZN-ə konvertasiya olunmuşdur. 31 dekabr 2014–cü il üzrə ABŞ dollarının AZN orta illik məzənnəsi 0,7843 olmuşdur.

16 http://www.socar.az/socar/az/economics-and-statistics/economics-and-statistics/socar-reports
17 http://www.oilfund.az/uploads/auditor_report_2014_az.pdf

# 3. HASİLAT SƏNAYESİ ÜZRƏ KONTEKSTUAL MƏLUMATLAR

## 3.1. Ümumi məlumat

Mədən sənayesi əsas faydalı qazıntı yataqlarını kəşf edən, faydalı qazıntıları hasil və ilkin emal edən istehsal sahələrini özündə cəmləşdirir. Azərbaycan Respublikası neft və qaz başda olmaqla müxtəlif mineral ehtiyatlarla zəngindir.

*Neft və qaz sənayesi*–neft və qaz yataqlarının kəşfiyyatını, neft-qaz quyularının qazılmasını, neft və qazın hasilatını, xam neft, neft məhsulları və qazın nəqlini əhatə edir.

- *Kəşfiyyat*–geoloji və geofiziki kəşfiyyat işlərinin aparılması, qazma üsullarının müəyyənləşdirilməsi, yatağın qiymətləndirilməsi və sənaye üsulu ilə istifadəyə hazırlanması kimi işləri əhatə edir;
- *Qazma*–yer qabığında süxurları qazma aləti ilə dağıtmaqla quyu,lağım və ya şaxtalüləsinin qazılması prosesindən ibarətdir;
- *Neft və qaz yataqlarının işlənməsi və istismarı*–neft-qaz quyularının işə salınması, dayanmış neft quyularının bərpası və istismara qaytarılmasını təmin etməkdir;
- *Neft və qaz hasilatı*–müxtəlif metodların tətbiqi ilə quruda və dənizdə neftin və qazın çıxarılması; və
- *Nəqletmə*–xam neft borularla, tankerlərlə və müxtəlif vasitələrlə hasilat yerindən emal müəssisələrinə və ya digər məntəqələrə çatdırılmasıdır.

**Kəşfiyyat** → **Qazma** → **Neft və qaz yataqlarının işlənməsi və istismarı** → **Neft və qaz hasilatı** → **Neft və qazın yığılması və nəqli**

Azərbaycan dünyanın ən qədim neft hasil edən ölkələrindən biri sayılır. Azərbaycanın əsas neft və qaz ehtiyatları Abşeron yarımadasında və Xəzər dənizində yerləşir.

Azərbaycanda neft və qaz çıxarılmasının tarixinə dair faktlar [18]:

18 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", http://new.socar.az/socar/az/company/about-socar/oil-history-in-azerbaijan

- XIV əsr səyyahı Marko Polo Azərbaycan neftindən müxtəlif məqsədlər üçün istifadə edilməsi və yaxın ölkələrə daşınması barədə yazmışdır;
- Dünyada ilk dəfə olaraq 1847–ci ildə Bibiheybətdə, sonra isə Balaxanıda neft quyuları qazılmışdır;
- 1901–ci ildə Azərbaycan 11,5 mln ton neft hasil edərək dünyada birinci yerə sahib olmuşdur;
- 1941–ci ildə Azərbaycanda 23,5 mln ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%–ni təşkil etmişdir;
- Dənizdə neftin çıxarılması ilk dəfə olaraq Azərbaycanda başlamışdır. 1949–cu ildə "Neft Daşları" yatağının aşkar edilməsi Azərbaycanı və Xəzəri bütün dünyada tanıtmışdır;
- 1970–ci illərin sonu 1980–ci illərin əvvəllərində dənizdə 80 metrdən 350 metr dərinlikdə "Azəri", "Çıraq", "Kəpəz" və "Günəşli" kimi yataqlar aşkar edilmişdir. Hazırda SOCAR hasil etdiyi neftin 60%–dən çoxunu "Günəşli" yatağının hesabına əldə edir;
- 1994–cü ilin 20 sentyabr tarixində "Əsrin müqaviləsi" imzalanmışdır;
- Bugünə qədər Azərbaycan hökuməti xarici şirkətlərlə bir sıra HPBS imzalamışdır. Daha ətraflı məlumatı MHŞT hesabatının 3.2. Mədən sənayesinin icmalı bölməsində olan neft və qaz sənayesi; qızıl və gümüş hasilatı bəndlərində əks etdirilmişdir.

## Qiymətli metallar [19]

Azərbaycan ərazisi davamlı və uzunmüddətli qızıl və gümüş hasilatı sənayesinin yaradılması üçün zəngin potensiala malikdir. Qızıl və gümüş yataqları əsasən Kiçik Qafqazın ərazisində, və Azərbaycanın cənub–qərbindəki altı yataqda–Gədəbəy, Ordubad, Qoşa Bulaq, Qızıl Bulaq, Vecnəli və Söyüdlüdə yerləşir.

Respublikanın mis ehtiyatları əsasən Balakən–Zaqatala, Gədəbəy, Qarabağ və Ordubad filiz rayonlarında cəmləşmişdir. Balakən-Zaqatala filiz rayonunda misin əsas ehtiyatları mis-kolçedan, kolçedan-polimetal tipli, Kiçik Qafqaz və Naxçıvan qırışıqlıq zonasının filiz rayonlarında isə əsasən mis–porfir, molibden–mis–porfir və qızıl–mis–kolçedan tipli yataq və təzahürlərdə cəmləşmişdir.

## Hüquqi rejim

Azərbaycanın mədən sənayesində fəaliyyətin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları və mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktlarından ibarət olan Azərbaycan Respublikasının qanunvericilik sistemi, və o cümlədən Konstitusiyaya əsasən bu sistemin ayrılmaz tərkib hissəsi hesab edilən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr təşkil edir.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bütün yeraltı faydalı qazıntılar dövlətə məxsusdur. Azərbaycanda mədən sənayesində fəaliyyəti tənzimləyən mövcud qanunvericilik bazasına daxil olan və aşağıdakılarla məhdudlaşmayan normativ hüquqi sənədlərlə dövlət tərəfindən yaradılmış və ictimaiyyət üçün açıq olan **http://www.e-qanun.az/, http://www.president.az/, http://www.meclis.gov.az/** və **http://www.cabmin.gov.az/** rəsmi internet səhifələrində dərc edilmişdir:

Azərbaycanda mədən sənayesində fəaliyyəti tənzimləyən mövcud qanunvericilik bazası aşağıda qeyd olunmuşdur [20]:

- 12 noyabr 1995–ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyası;

19 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", "Azərbaycanın faydalı qazıntıları", http://www.eco.gov.az/faydaliqazintilar.php.
20 "Azərbaycan Respublikası Ədliyyə Nazirliyi", "Normativ hüquqi aktların vahid internet elektron bazası", http://e-qanun.az

**Beynəlxalq Sazişlər:**

- Boru kəmərləri magistralları ilə neft və neft məhsullarının tranzit sahəsində razılaşdırılmış siyasətin aparılması haqqında 1996–cı il aprelin 12-də Moskva şəhərində imzalanmış Saziş; və
- 1999–cu il iyulun 22–də Kiyev şəhərində Azərbaycan Respublikası tərəfindən qeyd-şərtlə imzalanmış dövlətlərarası neft və qaz nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dair Çərçivə Sazişi.

**Məcəllələr:**

- 28 dekabr 1999–cu il tarixli 779–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsi;
- 11 iyul 2000–ci il tarixli 905–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
- 11 iyul 2000–ci il tarixli 906–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi;
- 26 dekabr 1997–ci il tarixli 418–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Su Məcəlləsi;
- 24 iyun 2011–ci il tarixli 164–IVQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Gömrük Məcəlləsi;
- 01 fevral 1999–cu il tarixli 618–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Əmək Məcəlləsi; və
- 25 iyun 1999–cu il tarixli 695–IQ nömrəli qanun ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsi.

**Qanunlar:**

- 30 may 1996–cı il tarixli 94–IQ nömrəli "Enerji resurslarından istifadə haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 02 fevral 2009–cu il tarixli 766–IIIQ nömrəli "İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 30 iyun 1998–ci il tarixli 513–IQ nömrəli "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 13 fevral 1998–ci il tarixli 439-IQ nömrəli "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanunu;
- 10 iyun 2005–ci il tarixli 924–IIQ nömrəli "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu; və
- 24 noyabr 1998–ci il tarixli Energetika haqqında Azərbaycan Respublikasının Qanunu.

Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası istisna olmaqla) HPBS–lər arasında ziddiyyət yaranarsa, həmin Sazişlər tətbiq edilir.

**E-qanun portalı [21]**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının bütün hüquqi və normativ aktlarının əldə edilməsin təmin etmək məqsədilə hüquqi sistemə dair internet portalını yaratmışdır. Mövcud portal hasilat sənayesinə dair bütün qanunvericilik məlumatlarını özündə əks etdirir. Portala daxil edilmiş bütün hüquqi və normativ aktlar mütəmadi olaraq yenilənir. E-qanun portalı lazımi qanunvericilik məlumatlarının əldə edilməsi məqsədilə icmaiyyət üçün açıqdır.

**Fiskal rejim**

Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın ümumi əsaslarını, vergilərin ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzarətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət edilməsi qaydalarını müəyyən edən Vergi Məcəlləsidir.

21 http://www.e-qanun.az/

Hasilatın pay bölgüsü sazişləri (HPBS), habelə əsas boru kəməri sazişləri Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir. Bu sazişlər yataqlarda fəaliyyət göstərən əməliyyat şirkətlərinin, podratçı tərəflərin və bunların subpodratçılarının fəaliyyətlərini, mühasibatlıq və vergi rejimini tənzimləyir.

Vergi Məcəlləsi ilə hasilatın pay bölgüsü haqqında, əsas boru kəməri haqqında və digər bu qəbildən olan saziş və qanunlarla, o cümlədən neft və qaz haqqında, ixrac məqsədli neft–qaz fəaliyyəti və xüsusi iqtisadi zonalar haqqında qanunlar arasında vergilər haqqında fərqli müddəalar müəyyən edildikdə, həmin saziş və qanunların müddəaları üstün götürülür.

İxrac olunan neftin və təbii qazın nəql edilməsi ilə bağlı fəaliyyətləri, münasibətləri və vergi rejimi qanun qüvvəsinə malik Əsas İxrac Boru Kəməri (Bakı–Tbilisi–Ceyhan) və Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) sazişləri ilə tənzimlənir. Bu sazişlərlə fəaliyyət göstərən əməliyyat şirkətlərinin, ƏİBK iştirakçılarının və onların podratçılarının fəaliyyətləri, mühasibatlıq və vergi rejimi tənzimlənir.

Azərbaycan Respublikası Vergi Məcəlləsi Azərbaycanda mövcud olan ümumi vergiqoyma sistemini təşkil edərək aşağıdakı vergi növlərini tənzimləyir:

- Mənfəət vergisi;
- Əmlak vergisi;
- Mədən vergisi;
- Aksiz vergisi;
- Sadələşmiş vergi.
- Əlavə dəyər vergisi (ƏDV);
- Gəlir vergisi;
- Torpaq vergisi;
- Yol vergisi; və

Azərbaycan Respublikasında qanunla təsdiq olunmuş formada HPBS üzrə fəaliyyət göstərən müəssisələr, şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir və SOCAR ilə bir sıra transmilli şirkətlər arasında HPBS–lər, habelə onların əsasında tərtib olunan və vergitutmanın müəyyən aspektlərini dəqiqləşdirən protokolları əhatə edir:

- "Mənfəət vergisi haqqında protokol";
- "Əlavə dəyər vergisi haqqında protokol";
- "Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında protokol";
- "Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında protokol"; və
- "İdxal və ixrac vergiləri haqqında protokol".

*Əsas İxrac Boru Kəməri Bakı–Tbilisi–Ceyhan (BTC), Tranzit Əraziyə Malik Ölkə Hökuməti Sazişi (TƏMÖHS) və Cənubi Qafqaz Boru Kəməri (Şahdəniz Qaz) sazişləri əsasında işləyən müəssisələr üçün xüsusi vergi rejimləri tətbiq edilir.*

Qanunvericiliyə əsasən hasilatla əlaqədar hökumətə edilən ayırmalar və ödənişlər aşağıda qeyd olunub:

| Hökumətə edilən ayırmalar və ödənişlər [22] | Ödənişin təsviri |
|---|---|
| Neft hasilatı üzrə gəlirlər | Hasilat şirkətləri Azərbaycan Respublikasının payını HPBS–ə uyğun olaraq məhsul şəklində hökuməti təmsil edən SOCAR-a təhvil verir. |
| Qaz hasilatı üzrə gəlirlər | Hasilat şirkətləri Azərbaycan Respublikasının payını HPBS–ə uyğun olaraq məhsul şəklində hökuməti təmsil edən SOCAR-a təhvil verir. |
| Mənfəət vergisi | Mənfəət vergisi şirkətin vergiyə cəlb olunan mənfəət əsasında hesablanır. Mənfəət vergisi qanunvericiliyə uyğun olaraq vergi ödəyicisinin gəliri ilə gəlirdən çıxılan xərci arasındakı fərqdən ibarətdir. Mənfəət vergisi dövlət büdcəsinə ödənilir. |

| Hökumətə edilən ayırmalar və ödənişlər [22] | Ödənişin təsviri |
|---|---|
| Bonuslar | Bonuslar neft şirkətləri tərəfindən hasilat hüquqlarının onlara təhvil verilməsi və köçürülməsinə görə ödədiyi haqları əks etdirir. Bu haqlar hökumətlə olan müvafiq razılaşmalara əsasən neft və qaz yataqlarının inkişafının müəyyən mərhələlərində ödənilir. Bonuslar ARDNF-in hesabına köçürülür. |
| Tranzit haqqı* | Tranzit haqqı xam neft və qaz ixrac boru kəməri vasitəsi ilə ötürülməsi üçün edilən ödənişlərdir. Tranzit haqqı ARDNF-in hesabına köçürülür. |
| Akrhesabı ödənişləri | Akrhesabı ödənişləri kəşfiyyat dövrü, habelə əlavə kəşfiyyat dövrü ərzində podratçı tərəflər Kontrakt sahəsinin istifadəyə görə hər kvadrat kilometri üçün haqq ödənişi hesab olunur. Akrhesabı ödənişlər ARDNF-in hesabına köçürülür. |
| Mədən vergisi | Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı qazıntıların çıxarılmasına görə vergi növüdür. Mədən vergisi dövlət büdcəsinə ödənilir |
| Digər ödənişlər | Digər ödənişlər, yuxarıda qeyd olunmayan ödənişlərə aiddir. Bura, sair vegilər (Əmlak vergisi, torpaq vergisi, ƏDV, qiymət fərqi-neft, qaz və neft məhsullarının ixracı zamanı məhsulun kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığım (ixrac vergisi xarakterində) qiymət fərqinin yaranmasına səbəb olur), natura şəklində hökumətə təhvil verilən məhsulları (qızıl və gümüş) daxil etmək olar. Digər vergilər də dövlət büdcəsinə ödənilir |

*Azərbaycan Respublikasında 4 neft-qaz boru kəməri mövcuddur:

- Bakı-Tbilisi-Ceyhan;
- Bakı-Ərzurum;
- Bakı-Supsa; və
- Bakı-Novorossiysk.

Hər bir boru kəmərinin özünə məxsus nəqletmə tarifi var. Tariflərin formalaşma mənbəyi boru kəmərinin sahibkar strukturundan asılıdır. Tranzit gəlirləri hər bir boru kəmərində nəql etmə tarifinin ödənilməsi nəticəsində formalaşır. Həmin boru kəməri vasitəsi ilə nefti nəql edən şirkətlər nəql olunmuş həcmlərə görə tarif üzrə ödəniş edirlər.

Bakı-Supsa neft boru kəməridir. Bu kəmər üzrə nəqletmə tarifi mexanizmi aşağıdakı kimidir:

- Boru kəmərinin Azərbaycan ərazisindən keçən hissəsinə görə;
- Boru kəmərinin Gürcüstan ərazisindən keçən hissəsinə görə;
- Boru kəmərinin müvafiq dövr üzrə saxlanılması xərcləri.

Növbəti boru kəməri ilə əldə olunacaq tranzit gəlirlərdə Azərbaycan ərazisi ilə nəqletmə tarifindən asılıdır. Azərbaycan hökumətinə çatan nəql edilmiş mənfəət neftinin gəlirləri birbaşa ARDNF-a köçürüldüyü üçün müvafiq karbohidrogen həcmlərinin nəql edilməsi xərcləri ARDNF tərəfindən qarşılanır. Beləliklə, həmin neft həcmlərinin daşınmasına görə Bakı-Supsa boru kəmərinin əməliyyat şirkəti olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə (ABƏŞ) aylıq tranzit haqqı ödənilir.

22 "Azərbaycan Respublikası Dövlət Neft Fondu", "Terminlər", http://www.oilfund.az/az_AZ/about_found/terminler.asp.

**Azərbaycan Respublikasının dövlət büdcəsinin strukturu[23]:**

**Dövlət büdcəsi**

**Dövlət büdcəsinin gəlirləri**
- Mərkəzləşdirilmiş gəlirlər
- Yerli gəlirlər

**Dövlət büdcəsinin xərcləri**
- Mərkəzləşdirilmiş xərclər
- Yerli xərclər

**Dövlət büdcəsinin kəsiri/artıqlığı**

Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitlərinin toplanması və səmərəli istifadəsinin təmin edilməsi, iqtisadi, sosial və digər strateji məsələlərin həll edilməsindən ibarətdir. Azərbaycan Respublikasının büdcəsi mərkəzləşdirilmiş gəlir və xərclərdən, həmçinin, yerli gəlir və xərclərdən ibarətdir.

**İcmal büdcənin strukturu**

**İcmal büdcənin strukturu**
- Dövlət büdcəsinin gəlirləri
- Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri
- Dövlət Neft Fondunun büdcəsinin gəlirləri
- Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri

**İcmal büdcənin xərcləri**
- Dövlət büdcəsinin xərcləri
- Dövlət Sosial Müdafiə Fondu büdcəsinin xərcləri
- Dövlət Neft Fondu büdcəsinin xərcləri
- Naxçıvan Muxtar Respublikası büdcəsinin xərcləri
- Xarici kreditlər hesabına maliyyələşənlayihələr üzrə xərclər

**İcmal büdcənin kəsiri və onun maliyyələşdirmə mənbələri**
- Xarici kreditlər hesabına maliyyələşənlayihələr üzrə xərclər
- Daxili və xarici borclanma
- Özəlləşmədən daxilolmalar xərcləri
- Xarici qrantlar
- Vahid xəzinə hesabının qalığı

23 http://maliyye.gov.az/sites/default/files/kitab.compressed.protected.pdf

Naxçıvan Muxtar Respublikasının büdcəsi Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarına əsasən yaradılmışdır.

Azərbaycan Respublikasının 2014–cü il dövlət büdcəsinin icrası gəlirlər 18,4 mlrd manat, xərclər 18,7 mlrd manat məbləğində olmaqla təsdiq edilmişdir.

**Dövlət büdcəsinin gəlir və xərcləri, 2012-2014-cü illər (milyon manat).[24]**

| **Gəlir** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|
| Fiziki şəxslərin gəlir vergisi | 813,0 | 859,7 | 980,3 |
| Hüquqi şəxslərin mənfəət vergisi | 2 252,0 | 2 374,8 | 2 302,7 |
| Torpaq vergisi | 30,6 | 33,1 | 35,4 |
| Əmlak vergisi | 105,1 | 125,1 | 141,3 |
| Əlavə Dəyər Vergisi | 2 366,9 | 2 710,0 | 3 119,6 |
| Aksiz vergisi | 531,5 | 593,3 | 797,3 |
| Mədən vergisi | 125,8 | 121,5 | 116,2 |
| Xarici iqtisadi fəaliyyətlərlə əlaqədar vergilər | 592,5 | 675,2 | 684,7 |
| Sair vergilər | 157,6 | 161,5 | 192,7 |
| Digər daxilolmalar (ARDNF-ın dövlət büdcəsinə edilən köçürmələri daxi olmaqla) | 10 306,5 | 11 842,1 | 10 030,4 |
| **Cəmi** | **17 281,5** | **19 496,3** | **18 400,6** |

| **Xərclər** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|
| Milli iqtisadiyyat | 6 960,7 | 8 207,5 | 7 596,6 |
| Təhsil | 1 453,2 | 1 437,7 | 1 553,9 |
| Mədəniyyət, incəsənət, informasiya və digər kateqoriyalara daxil olmayan fəaliyyət növləri | 184,7 | 226,6 | 248,5 |
| Səhiyyə | 609,4 | 618,9 | 665,3 |
| Fiziki hazırlıq | 56,1 | 48,3 | 45,5 |
| Sosial müdafiə | 1 750,7 | 1 730,9 | 1 946,8 |
| Sosial sığorta | 18,8 | 19,4 | 24,4 |
| Elm | 116,7 | 117,0 | 124,2 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanları | 929,2 | 1 049,3 | 1 103,6 |
| Qanunvericilik, icra və hökumət orqanları | 342,3 | 349,3 | 449,7 |
| Sair xərclər | 4 994,7 | 5 338,6 | 4 940,8 |
| Cəmi | 17 416,5 | 19 143,5 | 18 699,3 |

24 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi" "Azərbaycan rəqəmlərdə", http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Büdcəyə dair məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsindən götürülmüşdür. Bu məlumatların daha təsnifatlı cədvəli Azərbaycan Respublikası Maliyyə Nazirliyinin də rəsmi internet səhifəsindən əldə etmək mümkündür.[25]

2014-cü il ərzində mədən hasilatı sənayesindən icmal dövlət büdcəsinə 14,2 milyrad AZN vəsait daxil olmuşdur. Bu məbləğin tərkibində həmçinin Azərbaycan Respublikası Dövlət Neft Fondundan daxilolmalar da mövcuddur. 2014-cü ildə Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin məbləği 9,3 milyard AZN təşkil etmişdir.[26] Büdcə gəlirlərinin təsnifatı səhifə 59-da "Hasilat sənayesindən Neft Fonduna və dövlət büdcəsinə daxil olan gəlirlər" başlığı altında göstərilmişdir.

Azərbaycan Respublikasının dövlət büdcəsinin 2014–cü ildə qanunvericilikdə nəzərdə tutulmuş mənbələr hesabına formalaşan mərkəzləşdirilmiş gəlirlərinin 97%–i Bakı şəhərinə, qalan 3%–i isə digər şəhər və rayonların yerli gəlirlərinə aid edilməsi nəzərdə tutulmuşdur. Gəlirlər "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid edilən gəlirlərdən başqa, ARDNF-dən daxilolmalar, vergi daxilolmaları, gömrük rüsumları, verilmiş kreditlər üzrə daxilolmalar və sair gəlir növlərindən formalaşdırılır.[27]

Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini həyata keçirmək, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcə bələdiyyələrin maliyyə vəsaitinin formalaşması 7 dekabr 1999-cu il tarixli № 772-IQ saylı "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanunla tənzimlənir.

Yerli büdcənin gəlirləri aşağıda qeyd olunan vergilər vasitəsi ilə formalaşır:

- fiziki şəxslərdən torpaq vergisi;
- fiziki şəxslərdən əmlak vergisi;
- yerli əhəmiyyətli tikinti materiallar üzrə mədən vergisi;
- bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;
- və digər vergilər

Yerli büdcə gəlirlərini formalaşdıran digər mənbələr haqqında məlumatı № 772-IQ saylı "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" qanundan əldə etmək mümkündür.[28]

### Müvafiq dövlət qurumlarının rolu və vəzifələri

Azərbaycan Respublikasının xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla müqavilələri Azərbaycan Respublikası adından (dövlətlərarası müqavilələr) və Azərbaycan Respublikasının hökuməti adından (hökumətlərarası müqavilələr) bağlanır.

Azərbaycan Respublikasında HPBS–lərinin bağlanması prosedurları:

- İlkin danışıqlar Azərbaycan hökumətini təmsil edən SOCAR-la HPBS-da maraqlı olan şirkətlər arasında aparılır;
- Bu danışıqlardan sonra ilkin razılıq olaraq Niyyət Memorandumu ("NM") imzalanır;
- SOCAR NM-nı təklifi münasib olan və məqbul sayılan tərəflə (xarici neft şirkəti ilə) birlikdə icra edir;
- NM imzalandıqdan sonra, SOCAR HPBS ilə bağlı müvafiq şərtləri və perspektivləri ilə əlaqədar tərəflərlə danışıqlara başlayır;
- Ölkə başçısına HPBS üzrə danışıqlar aparmaq və onu imzalamaq haqqında SOCAR–a səlahiyyətlərin verilməsi haqqında müraciət edilir və Prezidentin müvafiq sərəncamı əsasında NM qüvvəyə minir;
- NM əsasında sonrakı əməkdaşlıq çərçivəsində tərəflərin hüquq və vəzifələri razılaşdırılır;

25 http://maliyye.gov.az/node/1720
26 http://www.oilfund.az/az_AZ/huequqi-senedler/fondun-buedcesine-dair/azerbaycan-respublikasi-doevlet-neft-fondunun-2013-cu-il-buedcesinin-icrasi-haqqinda-azerbaycan-respublikasi-prezidentinin-serencami-22-05-2014.asp
27 http://www.oilfund.az/uploads/2014_budget_law.pdf
28 http://e-qanun.az/framework/5231

- HPBS–nin əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş imzalanır;
- Əsas prinsipləri və kommersiya şərtləri haqqında saziş əsasında HPBSlayihəsi razılaşdırılır;
- İmzalanmış HPBS ratifikasiya üçün Milli Məclisə təqdim edilir; və
- Ratifikasiyadan sonra Prezidentin fərmanı ilə HPBS qüvvəyə minir.

*Azərbaycan Respublikasının Prezidenti*
Azərbaycan Respublikasında icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. İcra hakimiyyəti mərkəzi və yerli icra hakimiyyəti orqanlarından ibarət olub, əsas funksiyası qanunların icrasının həyata keçirilməsidir. Bu sistem geniş hüquqlara malikdir və dövlət qulluqçularının mühüm çoxluğunu əhatə edir.

*Azərbaycan Respublikası Nazirlər Kabineti*
Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin icrası məqsədilə yaradılan, birbaşa Prezidentə tabe olaraq, onun qarşısında cavabdeh olan yuxarı icra orqanıdır. Nazirlər Kabineti səlahiyyətlərinə dövlət büdcəsi layihəsinin hazırlanması və prezidentə təqdim edilməsi, onun icrasının, maliyyə-kredit və pul siyasətlərinin, dövlət və sosial təminat proqramlarının həyata keçirilməsinin təmin edilməsi daxildir.

*Azərbaycan Respublikasının Milli Məclisi*
Azərbaycan Respublikasının Milli Məclisi qanunvericilik hakimiyyətini həyata keçirən orqandır. Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri, qanunları, o cümlədən HPBS–lərini Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.

*Azərbaycan Respublikası Vergilər Nazirliyi* [29]
Vergilər Nazirliyi Azərbaycan Respublikasında aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində dövlət vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

*Azərbaycan Respublikası Maliyyə Nazirliyi*
Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ölkənin maliyyə siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik öz fəaliyyətini ölkə prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı ilə təsdiq edilmiş Əsasnaməsi əsasında həyata keçirir.

*Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu*
Azərbaycan Respublikası Dövlər Sosial Müdafiə Fondu büdcədənkənar dövlət fondu olub əhalinin sosial müdafiəsini təşkil etmək məqsədilə mərkəzləşdirilmiş pul fondu yaradılması və istifadəsi formasıdır. Fondun gəlirlərinin formalaşması sosial sığorta haqları və dövlət büdcəsindən ayırmalar hesabına həyata keçirilir.

*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi* [30,31]
Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Qurumun əsas vəzifələrindən biri, təbii sərvətlərin öyrənilməsi, onlardan istifadə edilməsi, bərpası və mühafizəsi və bu sahədə ekoloji təhlükəsizliyin təmin edilməsi və bioloji müxtəlifliyin qorunub saxlanılması üzrə dövlət siyasətini həyata keçirməkdən ibarətdir.

29 "Azərbaycan Respublikası Vergilər Nazirliyi", http://www.taxes.gov.az/vn/info/icmal.pdf.
30 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", http://www.eco.gov.az.
31 "MHŞT Hesabatı", "2014-cü il üzə Azərbaycan MHŞT Hesabatı" , bənd "3.2. Mədən sənayesin icmalı"

*Azərbaycan Respublikası Energetika Nazirliyi*
Azərbaycan Respublikası Energetika Nazirliyi yanacaq-energetika sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Yanacaq–energetika sahəsi Energetika haqqında Azərbaycan Respublikasının qanunu ilə energetika sahəsində müəyyən edilmiş fəaliyyətdən (bundan sonra–müvafiq sahədə) ibarətdir.[32]

Azərbaycan Respublikası Energetika Nazirliyinin əsasnaməsinə görə karbohidrogen ehtiyatları hasilatının pay bölgüsü və ya digər şərtlərə uyğun işlənməsi barədə sazişlərin layihələrini hazırlayır, bu sazişlər üzrə danışıqlar aparır, onları müəyyən olunmuş qaydada imzalayır, bağlanmış sazişlərin həyata keçirilməsinə nəzarət edir.

*Azərbaycan Respublikası Dövlət Neft Fondu [33]*
Azərbaycan Respublikası Dövlət Neft Fondu ("ARDNF") gələcək nəsillər üçünlikvid aktivlərin (müxtəlif formada) yığılmasını, idarə edilməsini həyata keçirən səmərəli mexanizmdir. ARDNF, büdcədənkənar fond kimi təsis edilmiş, Hökumət və ya Azərbaycan Respublikası Mərkəzi Bankından ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində fəaliyyət göstərir. ARDNF-in məqsədi tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsi, ümummilli əhəmiyyətlilayihələrin birbaşa maliyyələşdirilməsidir.

*Azərbaycan Respublikası Dövlət Neft Şirkəti [34] (SOCAR)*
SOCAR Azərbaycanın dövlət neft və təbii qaz korporasiyasıdır. Şirkət neft və təbii qaz istehsal edir, ölkənin neft emalı və ölkə ərazisində neft və qaz kəmərlərinin fəaliyyət göstərməsini həyata keçirir. Daha ətraflı məlumat hesabatın 3.5 "Hasilat sənayesində dövlət iştirakı" adlı bəndində öz əksini tapmışdır.

**Hasilat sənayesi üzrə mövcud islahatlar**

MHŞT hesabatının əhatə etdiyi ildə hasilat sənayesinə dair bir sıra islahatlar tətbiq edilmişdir:

- 2014-cü il 6 fevral tarixli 35 saylı qərara əsasən Nazirlər Kabineti tərəfindən 2013-cü ili 2 dekabr tarixli 333 saylı qərarda dəyişikliklər edilmişdir. Nazirlər Kabinetinin çıxardığı qərara əsasən neft məhsullarına qoyulan aksiz vergisinin dərəcəsi dəyişdirilmişdir. Bu dəyişikliklər 2014-cü ilin 1 yanvar tarixindən etibarən qüvvəyə minmişdir; [35]
- "Ölkə daxilində neft məhsullarının tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2 dekabr 2013-cü il tarixli 14 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 10 fevral 2014-cü il tarixli 1 saylı Qərarı ilə ölkə daxilində neft məhsullarının topdan və pərakəndə satışının yeni tarifləri müəyyən edilib; [36]
- "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2014-cü il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 19 dekabr tarixli 57 nömrəli fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı; [37]
- Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti strukturunun inkişafı"na dair dəyişikliklər edilməsi haqqında 2014-cü il 24 fevral tarixli Azərbaycan Respublikası Prezidentinin fərmanı; [38] və
- 2013-cü il 22 oktyabr tarixli 3 saylı fərmana əsasən Yanacaq və Energetika Nazirliyiləğv olunaraq əvəzində Energetika Nazirliyi yaradılmışdır. Hal-hazırda, Energetika Nazirliyi fəaliyyətinə dair əsasnaməsi Azərbaycan Respublikası Prezidentitin 2014-cü il 11 aprel tarixli 149 saylı fərmanına əsasən həyata keçirilir. [39]

32 "Azərbaycan Respublikası Energetika Nazirliyi", "Energetika haqqında Azərbaycan Respublikasının Qanunu", http://www.minenergy.gov.az/db/Energetika_haqqinda.pdf
33 "Azərbaycan Respublikası Dövlət Neft Fondu", http://www.oilfund.az.
34 "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti", http://new.socar.az/socar/en/home.
35 Nazirlər Kabineti "Qərar və Sərəncamlar" 2014, http://www.cabmin.gov.az
36 http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/118/
37 http://www.oilfund.az/en_US/huequqi-senedler/fondun-buedcesine-dair/ferman_deyishiklik_11042014.asp
38 http://www.e-qanun.az/framework/29789
39 http://www.minenergy.gov.az/db/EN_Esasname.pdf

# 3.2. Mədən sənayesinin icmalı

## Neft və qaz sənayesi

Azərbaycanda neftin əsas yataqları Xəzər dənizi şelfi və Abşeron yarımadasındadır. Neftin əsas ehtiyatları Abşeron sularının cənubunda aşkar edilmişdir. Abşeron yarımadasının şimalında–Siyəzəndə və Abşeronun qərbində və cənub-qərbində–Qobustan, Şirvan və Salyandakı neft mənbələri perspektivli ehtiyatlara malikdirlər. Gəncə yaxınlığındakı Naftalan yataqlarında özünəməxsus xüsusiyyətə malik müalicəvi neft mədənləri vardır. Neftlə bərabər çıxan təbii qazın mövcudluğu da böyük əhəmiyyət daşıyır.



2014–cü ilin sonuna Azərbaycanın təsdiq edilmiş neft və qaz rezervləri aşağıdakı cədvəldə əks etdirilmişdir:

| **Sənaye nəticələri** | |
|---|---|
| Neft ehtiyatları, milyon barel [40] | 7 000 |
| Təbii qaz ehtiyatları, milyard $m^3$ [41] | 1 300 |

Azərbaycanda neft və qaz ehtiyatları ilə məşğul olan şirkətlər 31 HPBS (17 dənizdə və 14 quruda) imzalamışlar. 2014-cü il ərzində neft və qaz resursları üzrə mövcud olan 31 HPBS-dən 17-i fəaliyyətdə olmuşdur:

| **Dənizdəki yataqlar** | | | | | |
|---|---|---|---|---|---|
| **İmza tarixi** | **Podratçı tərəflər və onların payları** | | | **Ehtiyatlar** | |
| | **Şirkətin adı** | **2013-cü bitən il üzrə %** | **2014-cü bitən il üzrə %** | **Neft** | **Qaz** |
| **Azəri–Çıraq–Dərinsulu Günəşli [42] (hasilat mərhələsi)** | | | | | |
| 20.09.1994 | BP Eksploreyşn (Kaspian Si) Limited | 35,8 | 35,8 | • | |
| | Azərbaycan (AÇG) Limited | 11,6 | 11,6 | | |
| | Şevron Xəzər, Ltd | 11,3 | 11,3 | | |
| | Inpeks Sauzvest Kaspian Si, Ltd. | 11,0 | 11,0 | | |
| | Statoil Apsheron A.S | 8,6 | 8,6 | | |
| | Ekson Azərbaycan Limited | 8,0 | 8,0 | | |
| | Türkiye Petrolleri Anonim Ortaqlığı. | 6,8 | 6,8 | | |
| | İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnc. | 4,3 | 4,3 | | |
| | ONGC Videş Limited | 2,7 | 2,7 | | |
| **Şahdəniz [43] (hasilat sənayesi)** | | | | | |
| 04.06.1996 | BP Eksploreyşn (Azərbaycan) Limited | 25,5 | 28,8 | | • |
| | Statoil Shah Deniz AS | 25,5 | 15,5 | | |
| | Azərbaycan (Şah Dəniz) Limited | 10,0 | 10,0 | | |
| | Lukoyl Oversiz Shah Deniz | 10,0 | 10,0 | | |
| | Naftiran İntertrade Co (NICO) Limited | 10,0 | 10,0 | | |
| | Total E & P Azərbaycan B.V | 10,0 | - | | |
| | Türkiş Petroleum Oversiz Kompani Ltd | 9,0 | 19,0 | | |
| | SGC Upstream | - | 6,7 | | |

40 "OPEC", "Annual Statistical Bulletin", "Section 3 – Oil data: upstream", səh. 22, http://www.opec.org/opec_web/static_files_project/media/downloads/publications/ASB2015.pdf
41 "OPEC", "Annual Statistical Bulletin", "Section 8 – Natural gas data", səh. 93, http://www.opec.org/opec_web/static_files_project/media/downloads/publications/ASB2015.pdf
42 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Azəri–Çıraq–Dərinsulu Günəşli", http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
43 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Şahdəniz", http://www.bp.com/az_az/caspian/operationsprojects/Shahdeniz.html

| | | | | | |
|---|---|---|---|---|---|
| **Abşeron Qaz yatağı [44] (kəşfiyyat mərhələsi)** | | | | | |
| 27.02.2009 | SOCAR-ın Ortaq Şirkəti | 40,0 | 40,0 | | • |
| | Total E & P Abşeron B.V | 40,0 | 40,0 | | |
| | GDF SUEZ E&P Absheron BV | 20,0 | 20,0 | | |
| **Şəfəq–Asiman [45] (kəşfiyyat mərhələsi)** | | | | | |
| 07.10.2010 | BP Şəfəq-Asiman Limited | 50,0 | 50,0 | | • |
| | SOCAR-ın Ortaq Şirkəti | 50,0 | 50,0 | | |

2014-cü il 1 may tarixində Statoil şirkətinin mövcud olan 25,5%-lik Şah Dəniz Hasilatın Pay Bölgüsündə və Cənubi Qafqaz Boru Kəmərində iştirak payını 10%- həcmində BP (3,33%) və SOCAR (“SGC Upstream”[46]) (6,67%) şirkətlərinə satmışdır. [47] SGC Upstream şirkəti haqqında 2014-cü ildə SOCAR-ın “Benefisiar sahibliyin səviyyəsində dəyişikliklər (birgə və asılı müəssisələr)” bölməsində ətraflı məlumat qeyd edilmişdi.

2014-cü il 30 may tarixində Total şirkəti Şah Dəniz yatağına aid olan 10%-lik iştirak payını Türkiyənin dövlət kəşfiyyat və hasilat şirkəti TPAO-ya satmağını qeyd etmişdir.[48]

| **Qurudakı yataqlar [49,50,51,52]** | | | | | |
|---|---|---|---|---|---|
| **İmza tarixi** | **Podratçı tərəflər və onların payları** | | | **Ehtiyatlar** | |
| | **Şirkətin adı** | **2013-cü bitən il üzrə%** | **2014-cü bitən il üzrə%** | **Neft** | **Qaz** |
| **Qaraçuxur neft yatağı (kəşfiyyat mərhələsi)** | | | | | |
| 18.06.2004 | Noblskay | 75,0 | 75.0 | • | |
| | SOCAR | 25,0 | 25.0 | | |
| **Padar (kəşfiyyat mərhələsi)** | | | | | |
| 27.04.1999 | Kura Valeey Development Company LTD | 80,0 | 80,0 | • | |
| | SOCAR | 20,0 | 20,0 | | |
| **Bahar Qum Dəniz (hasilat mərhələsi)** | | | | | |
| 22.12.2009 | Bahar Energy Limited | 80,0 | 80,0 | | • |
| | SOCAR | 20,0 | 20,0 | | |
| **Balaxanı, Sabunçu, Ramana və Kürdəxanı (hasilat mərhələsi)** | | | | | |
| 06.05.2011 | UGE-LANCER PTE.LTD | 75,0 | 75,0 | • | |
| | SOCAR | 25,0 | 25,0 | | |

44 “SOCAR”, “Fəaliyyət”, http://new.socar.az/socar/az/activities/production.
45 “BP şirkəti”, “Əməliyyatlar vəlayihələr”, “Şəfəq–Asiman”, http://www.bp.com/az_az/caspian/operationsprojects/Shafagasiman.html
46 “2014-cü ilin 24 iyul tarixində Azərbaycan Dövlət Neft Şirkəti “Cənub qaz dəhlizi”layihəsi çərçivəsində şirkət yaradıb: “SOCAR Upstream Management İnternational”: http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2014.pdf; “Davamlı İnkişaf üzrə Hesabat – 2014-cü il”, səhifə 24.
47 “2014-cü ilin 24 iyul tarixində Azərbaycan Dövlət Neft Şirkəti “Cənub qaz dəhlizi”layihəsi çərçivəsində şirkət yaradıb: “SOCAR Upstream Management İnternational”: http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2014.pdf; “Davamlı İnkişaf üzrə Hesabat – 2014-cü il”, səhifə 24.
48 http://www.total.com/en/energies-expertise/oil-gas/exploration-production/projects-achievements/other-projects/shah-deniz-stage-2-project-azerbaijan
49 “SOCAR”, “Fəaliyyət”, http://new.socar.az/socar/az/activities/production
50 “SOCAR”, “Fəaliyyət”, http://new.socar.az/socar/az/activities/production
51 “SOCAR”, “Fəaliyyət”, http://new.socar.az/socar/az/activities/production
52 “SOCAR”, “Fəaliyyət”, http://new.socar.az/socar/az/activities/production

| Qurudakı yataqlar | | | | | |
|---|---|---|---|---|---|
| **İmza tarixi** | **Podratçı tərəflər və onların payları** | | | **Ehtiyatlar** | |
| | **Şirkətin adı** | **2013-cü bitən il üzrə%** | **2014-cü bitən il üzrə%** | **Neft** | **Qaz** |
| **Kürovdağ (hasilat mərhələsi)** | | | | | |
| 03.02.2009 | Shirvan İnvestment Limited | 80,0 | 80,0 | • | |
| | SOCAR | 20,0 | 20,0 | | |
| **Kürsəngi və Qarabağlı (hasilat mərhələsi)** | | | | | |
| 15.12.1998 | Salyan Neft MMC | 50,0 | 50,0 | • | |
| | CNPC | 25,0 | 25,0 | | |
| | Focnmeyt Əssets Limited | 25,0 | 25,0 | | |
| **Mişovdağ və Kəlaməddin (hasilat mərhələsi)** | | | | | |
| 12.09.2000 | Karasu Development Kompani | 85,0 | 85,0 | • | |
| | Əli-Bayramlı Neft MMC | 15,0 | 15,0 | | |
| **Neftçala (hasilat mərhələsi)** | | | | | |
| 03.02.2009 | Neftçala İnvestments Limited | 80,0 | 80,0 | • | |
| | SOCAR | 20,0 | 20,0 | | |
| **Pirsaat (kəşfiyyat mərhələsi )** | | | | | |
| 04.06.2003 | Petro Hong Kong Limited | 50,0 | 50,0 | • | |
| | Middl İst | 30,0 | 30,0 | | |
| | SOCAR | 20,0 | 20,0 | | |
| **Suraxanı (hasilat mərhələsi)** | | | | | |
| 16.08.2005 | Novatis Oil F.Z.E. | 75,0 | 75,0 | • | |
| | SOCAR | 25,0 | 25,0 | | |
| **Zığ Hövsan (hasilat mərhələsi)** | | | | | |
| 03.11.2006 | Abşeron İnvestment Limited | 75,0 | 75,0 | • | |
| | SOCAR | 25,0 | 25,0 | | |
| **Binəqədi, Girməki, Çaxnaqlar, Sulutəpə, Masazır, Fatmayı, Şabandağ və Sianşor (hasilat mərhələsi)** | | | | | |
| 29.09.2004 | Azen Oyl Kompani B.V. | 75,0 | 75,0 | • | |
| | SOCAR | 25,0 | 25,0 | | |
| **Cənub-qərbi "Qobustan" bloku (hasilat mərhələsi)** | | | | | |
| 02.06.1998 | Commonvealth | 80,0 | 80,0 | • | |
| | Qobustan Neft MMC | 20,0 | 20,0 | | |

* Qaraçuxur neft yatağı üzrə HPBS-yə 2009-cu ildə xitam verilmişdir. [53]

53 SOCAR tərəfindən SOFAZ-a ünvanlanan rəsmi məktub, 16 fevral 2016-cı il, Bakı, Azərbaycan.

# Boru kəmərləri

Azərbaycan üç ixrac boru kəmərinə malikdir ki, neftin əsas hissəsi (80%–ə yaxını) BTC boru kəməri vasitəsilə ixrac olunur.

**Azərbaycandan keçən boru kəmərlərinin xəritəsi**




## Baku–Tbilisi–Ceyhan (BTC) [54]

Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəməri nefti Azəri–Çıraq–Dərinsulu Günəşli (AÇG) yatağından və kondensatı isə Şahdənizdən götürərək Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Ceyhan terminalına nəqlini təmin edir. O, Xəzər Dənizinin sahilində Səngəçal terminalı və Türkiyənin Aralıq dənizi sahilində Ceyhan dəniz terminalı arasında əlaqəni təmin edir. Həmçinin, Türkmənistandan xam neft də boru kəməri vasitəsilə nəql olunur. BTC boru kəməri vasitəsilə Qazaxıstandan müəyyən həcmdə Tengiz xam neftinin daşınması 2013–cü ilin oktyabr ayında bərpa edilmişdir.

2014-cü ildə Türkiyənin Ceyhan terminalında 262 milyon barel (34,8 milyon ton) xam neft 362 tankerə yüklənərək, ixrac edilmişdir.

54 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Boru kəmərləri", "Bakı-Tbilisi-Ceyhan boru kəməri" http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.

2014-cü ilin 11 avqust tarixində BTC Türkiyənin Ceyhan terminalında 2 milyard barel neftin yüklənməsi qeyd edilmişdir.[55]

### Cənubi Qafqaz boru kəməri [56]

Cənubi Qafqaz boru kəməri (CQBK), Şahdəniz qazını Azərbaycandan Gürcüstana və Türkiyəyə nəql etmək üçün inşa edilmişdir. Boru kəməri, Bakı yaxınlığındakı Səngəçal terminalından başlayır. Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri ilə eyni marşrutdadır və o, Türkiyədə bu ölkənin qaz paylama sisteminə birləşdirilib.

Bu boru kəməri 2006–cı ilin sonlarında istismara verilərək qazı əvvəl Azərbaycana və Gürcüstana, Şahdəniz Mərhələ 1 üzrə isə 2007-ci ilin iyul ayından başlayaraq Türkiyəyə çatdırır.

2014-cü ildə mövcud Şahdəniz qurğularının texniki olaraq daha da optimallaşdırılması hasilat sisteminin gündəlik maksimum gücünü 27,3 milyon standart kub metrdən 29,5 milyon standart kub metr səviyyəsinə qaldırdı. [57]

### Qərb İxrac boru kəməri [58]

Qərb İxrac boru kəməri (QİBK), Xəzər Dənizindəki neft yataqlarından xam nefti Qara dəniz sahilinə nəql edir və xam neft orada tankerlərə yüklənərək, Bosfor boğazından keçməklə Avropa bazarlarına göndərilir.

Boru kəmərinin tikintisi Azərbaycan ilə Gürcüstan arasında 1996–cı ilin aprel ayında bağlanmış Hökumətlərarası Sazişin ratifikasiyasından sonra başlanmış və 1998–ci ilin noyabr ayında başa çatmışdır. QİBK 1999–cu ilin fevral ayından istismardadır.

### Bakı–Novorossiysk boru kəməri [59],[60]

Bakı-Novorossiysk boru kəməri Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən keçməklə Qara dənizin Novorossiysklimanına nəql olunması haqqında müqavilə 18 fevral 1996–cı ildə imzalanmışdır.

Borunun neftlə doldurulmasına 1996–cı ilin oktyabr ayında başlanılmışdır. Kəmərin maksimum ötürmə qabiliyyəti gündə 105 min bareldir.

## Qızıl və gümüş hasilati [61]

Son illərdə qızıl yataqları mühüm geoloji kəşflərdəndir. Qarabağda (Ermənistan işğalı altında) Qızılbulaq qızıl–mis–kolçedanı və Zəngilanda Vəcnəli kvars qızıl yataqları, Ordubad ərazisində Ağyurd, Piyasbaşı, Şəkərdərə kvars-qızıl depozitləri, Gədəbəy və Dəlidağda Ağduzdaq kvars–qızıl yataqları geoloji ekspedisiyalar sayəsində aşkar olunmuşdurlar.

Azərbaycanda qızıl hasilatı sənayesinin yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının bir sıra qızıl yataqlarının aşkar olunması və emalı barədə» 1996–cı il 5 fevral tarixli sərəncamına uyğun olaraq 20 avqust 1997–ci ildə Azərbaycanın "Azərqızıl" Dövlət Şirkəti ilə ABŞ-ın "R.V.Investment Group Services" şirkəti arasında Gədəbəy, Qoşa, Ordubad qrupu, Söyüdlü, Qızılbulaq və Vecnəli potensial qızıl filizi yataqlarının aşkar olunması, emalı və hasilatın pay bölgüsü haqqında

55 http://www.bp.com/en_az/caspian/operationsprojects/pipelines/BTC.html
56 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Boru kəmərləri", "Cənubi Qafqaz boru kəməri" http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
57 http://www.bp.com/en_az/caspian/operationsprojects/Shahdeniz/SDstage1.html
58 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Boru kəmərləri", "Qərb İxrac Boru kəməri" http://www.bp.com/az_az/caspian/operationsprojects/ACG.html.
59 "Azərbaycan Respublikası Energetika Nazirliyi"," Əsas ixrac kəmərləri", "Bakı-Novorossiysk", http://www.minenergy.gov.az/?e=525&a=7
60 "SOCAR", "Nəql", "Bakı-Novorossiysk Neft Kəməri", http://www.socar.az/socar/az/activities/transportation/baku-novorossiysk-oil-pipeline
61 "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi", "Azərbaycanın faydalı qazıntıları", http://www.eco.gov.az/faydaliqazintilar.php.

saziş imzalanmışdır. 2000–ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən "Azərqızıl" Dövlət Şirkəti ləğv edilərək, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyinə verilmişdir. Azərbaycan hökumətinin Gədəbəy qızıl-mis yataqlarında hasilatın pay bölgüsü sazişinə əsasən ümumi gəlirin 51%-ni dövlətə məxsusdur. Qalan 49%-ə isə Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkəti tərəfindən idarə edilir. [62]




2014–cü ilin sonuna Azərbaycanın təsdiq edilmiş qızıl və gümüş rezervləri aşağıdakı cədvəldə əks etdirilmişdir:

| Sənaye nəticələri | |
|---|---|
| Qızıl ehtiyatları, ton [63] | 30,2 |
| Gümüş ehtiyatları, ton [64] | 1 300 |

62 "Azərbaycan Prezidenti", http://www.president.az/articles/9268.
63 "World Gold Council", "Statistics", "Foreign reserves statistics", http://www.gold.org/statistics
64 "OPEC", "Annual Statistical Bulletin", "Section 8 – Natural gas data", səh. 93, http://www.opec.org/opec_web/static_files_project/media/downloads/publications/ASB2015.pdf

# Mədən HPBS

| Mədən HPBS | | | |
|---|---|---|---|
| **İmzalanma tarixi** | **Podratçı tərəflər və onların payları** | | **Ehtiyatlar** |
| | **Şirkətin adı** | **%** | **Qızıl və Gümüş** |
| Gədəbəy qızıl-mislayihəsi (hasilat mərhələsi) | | | |
| 22.12.2009 | Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 51,0 | • |
| | R.V.Investment Group Services | 49,0 | |

# Mühüm kəşfiyyat fəaliyyəti

- 2014-cü ilin 22 dekabr tarixində BP və SOCAR Xəzər dənizinin Azərbaycan sektorunda Abşeron yarımadası ətrafında dayaz sulu ərazidə potensial perspektivləri birlikdə kəşf edərək, inkişaf etdirmək üçün yeni HPBS-ni imzalayıb. [65]
- 2014-cü ilin 28 yanvar tarixində Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli (AÇG) yatağının bir hissəsi olan Qərbi Çıraqda neft hasilatına dair işlərə başlanılmışdır. [66]
- 2012-ci il əvvəllərindən sonra Gilavar seysmik gəmisi Şəfəq-Asiman strukturunda planlaşdırılmış 3D seysmik kəşfiyyat məlumatlarının toplanmasını tamamlamışdır, bu müqavilədə nəzərdə tutulan ərazidə aparılan ilk 3D seysmik kəşfiyyat işləri olmuşdur. Bu analiz ölkədə aparılan ən böyük 3D tədqiqatı hesab olunur. Seysmik məlumatlarn işlənməsi başa çatmışdır və onun şərh edilməsinə 2014-cü il ərzində başlanılmışdır. [67]

# 3.3. Azərbaycan iqtisadiyyatına hasilat sənayesinin töhfəsi

Azərbaycan iqtisadiyyatı 2014–cü ildə iqtisadi artımı qoruyub saxlamış və Ümumi Daxili Məhsulun (ÜDM) məbləği 59,0 mlrd manat və adambaşına düşən ÜDM isə 6,3 min manat təşkil etmişdir. Mədən hasilatı sənayesi məhsullarının istehsalında yaranan əlavə dəyər ÜDM–nin sahə strukturunda aparıcı yer tutmuş və sənayenin ÜDM-də xüsusi çəkisi 34,6% təşkil etmişdir.

65 http://www.bp.com/en/global/corporate/press/press-releases/bp-and-socar-sign-an-agreement-to-explore-shallow-water-absheron.html
66 http://www.bp.com/en_az/caspian/operationsprojects/ACG/projecthistory.html
67 "BP şirkəti", "Əməliyyatlar vəlayihələr", "Şahdəniz", http://www.bp.com/en_az/caspian/operationsprojects/Shahdeniz/projecthistory.html

### ÜDM–nin istehsal strukturu (2014) [68]




59,0 milyard AZN məbləğində olan ÜDM-in 34,6%-i yəni 20,4 milyard AZN mədən hasilatı sənayesindən gələn gəlirdən ibarətdir.

Makroiqtisadi göstəricilərin hesablanması zamanı ÜDM-də kölgə iqtisadiyyatının payı da nəzərə alınır. Azərbaycanın ÜDM-də müşahidə olunan kölgə iqtisadiyyatının payı 9,1% təşkil edir. Bu məlumat heç bir rəsmi açıq mənbədə qeyd olunmasa da, bu barədə Dövlət Statistika Komitəsinin "Statistika xəbərləri" elmi-praktik jurnalında dərc edilən məqaləsinə istinad edilmişdir. [69]

### ÜDM-nın 2014-cü il üzrə sahə strukturu (faiz nisbətində)




68 Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik məlumatlar", "ÜDM (rüblük, illk)" http://www.stat.gov.az/source/system_nat_accounts/
69 http://az.trend.az/business/economy/2445536.html

**Hasilat sənayesindən əldə edilən dövlət gəlirləri**

2014–cü ildə konsolidasiya edilmiş dövlət büdcəsinin ümumi gəlirləri 23,1 mlrd manat təşkil etmişdir. Hesabat dövründə Azərbaycan Respublikasının icmal büdcəsinə olan mədən hasilatı sənayesi üzrə daxilolmalar 14,2 mlrd manat olmuşdur və bu büdcənin ümumi gəlirlərinin 61,7%–ni təşkil etmişdir.

| **2014-cü il üzrə hasilat sənayesindən MHŞT hesabatının əhatə etdiyi daxilolmalar** | | |
|---|---|---|
| **Gəlirin növləri** | **Məbləğ (mln manat)** | **Faiz nisbəti** |
| **Azərbaycan Respublikası Dövlət Neft Fondu** [70] | | |
| Mənfəət neftinin və qazın satışından daxilolmalar | 12 320 | 53,37% |
| Bonuslar | 13,3 | 0,06% |
| Akrhesabı ödənişlər | 1,7 | 0,01% |
| Tranzit haqqı | 8,9 | 0,04% |
| **Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi** | | |
| Mənfəət vegisi | 1 289 | 5,58% |
| Mədən vergisi | 112,6 | 0,49% |
| Əlavə dəyər vergisi | 140,6 | 0,61% |
| Torpaq vergisi | 10,7 | 0,05% |
| Əmlak vergisi | 38,1 | 0,17% |
| Qiymət fərqi | 311,7 | 1,35% |
| Sair vergilər | 0,5 | 0,00% |
| **Cəmi** | **14 247,1** | **61,73%** |

**2014–cü ildə ümumi hasilatın həcmi və cəmləşdiyi əsas rayonlar/ərazilər (natura və dəyər ifadəsində)**

Neft ehtiyatlarının əksər hissəsi yəni 80%–i Abşeron Yarımadası, Bakı və Abşeron arxipelaqı və Xəzər dənizinin şelf zonasının 3000–4000 metr dərinliyində yerləşir. Neft ehtiyatlarının formalaşması süxurları Kaynozoy dövrünə aiddir. Neft istehsalının istismarı Bibiheybət daxil olmaqla, Balaxanı, Sabunçu və Ramanada gedən qazıntı işləriylə əlaqədardır.

Əsas neft və qaz istehsalı əraziləri Bakı yaxınlığında yerləşir. Azərbaycan ərazisində Abşeron yarımadası, Aşağı və Orta Kür, Xəzəryanı ərazilər və Şamaxı–Qobustan kimi quruda istismara verilən 5 neft və qaz kondensatı əraziləri vardır. Bu zonalara 43 neft, qaz və kondensat əraziləri daxildir ki, bunlardan da 38–i istismar üçün əlverişlidir.

70 "Azərbaycan Respublikası Dövlət Neft Fondu", "İllik hesabat 2014", səh.30, http://www.oilfund.az/uploads/annual_2014az.pdf.

**Neft (kondensatlar daxil olmaqla) hasilatı, min ton** [71]

| Ərazilər | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Bakı | 42 346 | 42 558 | 41 366 |
| Siyəzən | 48 | 49 | 50 |
| Neftçala | 37 | 41 | 44 |
| Salyan | 193 | 187 | 184 |
| İmişli | 24 | 20 | 19 |
| Şirvan | 333 | 308 | 290 |
| **Cəmi** | **42 981** | **43 163** | **41 953** |

Bakı yaxınlığında yerləşən mühüm neft istehsalı ərazilərinə misal olaraq Sabunçu, Suraxanı və Bibiheybəti göstərmək olar. 2014–cü ildə Bakıda neft hasilatı 41 366 min tona çatmışdır və bu da ümumi neft hasilatının 98,6%–ni təşkil etmişdir.

2014-cü ildə natura ifadəsində göstərilən neft hasilatı (kondensatlar daxil olmaqla) quruda 1 679 min ton və dənizdə isə 40 273 min ton həcmində olmuşdur.

**Qaz hasilatı, mln. kub metr. (xammal)** [72]

| Ərazilər | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Bakı | 26 745 | 29 196 | 29 505 |
| Siyəzən | 8 | 7 | 7 |
| Neftçala | 9 | - | - |
| Salyan | 24 | 30 | 33 |
| Şirvan | 10 | 12 | 10 |
| **Cəmi** | **26 796** | **29 245** | **29 555** |

2014-cü ildə natura ifadəsində göstərilən qaz hasilatı səmt qazı üzrə 13 945 milyon kub metr və təbii qaz üzrə isə 15 610 milyon kub metr həcmində olmuşdur.

**Qızıl hasilatı, kq (əsas məhsulun istehsalı)** [73]

| Ərazi | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Gədəbəy | 1 562 | 1 619 | 1 873 |
| **Cəmi** | **1 562** | **1 619** | **1 873** |

71 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", səh. 308, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
72 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", səh. 308 və səh. 105, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
73 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Sənayesi", səh. 177, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

**Gümüş hasilatı, kq (əsas məhsulun istehsalı)** [74]

| Ərazi | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Gədəbəy | 626 | 630 | 240 |
| **Cəmi** | **626** | **630** | **240** |

**Mis filizləri və konsentrantlar, ton (əsas hasilat)** [75]

| Ərazi | 2012 | 2013 | 2014 |
|---|---|---|---|
| Gədəbəy | 505 | 329 | 675 |
| **Cəmi** | **505** | **329** | **675** |

**Ümumi hasilat məhsullarının dəyərləri** [76]

2014-cü il üzrə mədən hasilatı sənayesinin ümumi dəyəri 21 981 milyon manat təşkil etmişdir; xam neft və təbii qaz hasilatının həcmi 20 977 milyon manat və metal filizlərinin hasilatının həcmi isə 55 milyon manat təşkil etmişdir.

**İxracatda hasilat sənayesinin payı** [77]

Neft və təbii qaz ölkənin əsas ixrac məhsuludur. 2014–cü ildə ümumi ixracat 21,8 [78] mlrd manat təşkil etmişdir. 2014–cü il ərzində ixrac olunan mallar:

| Məhsulun adı | Həcmi | Məbləği (mln ABŞ dolları) | Faiz nisbəti |
|---|---|---|---|
| Xam neft (min ton) | 23 611,9 | 18 404,9 | 84,3% |
| Təbii qaz (min $m^3$) | 1 825,7 | 304,7 | 1,4% |
| Emal olunmuş və yarımfabrikat halında olan gümüş formalarında, kq | 242,3 | 0,2 | - |
| Digər məhsullar | - | 3 119,2 | 14,3% |

Azərbaycanın xarici ticarətində 2013-cü ilə nisbətən 2014-cü ildə 3,2% artım müşahidə edilmişdir. Beynəlxalq Valyuta Fonduna (“BVF”) əsasən xarici ticarət əlaqələri inkişaf etmiş ölkələrdə 3,3%, inkişaf etməkdə olan ölkələrdə isə 3,4% artmışdır.

Həmçinin 2014-cü ildə neftin azalan qiyməti də Azərbaycanın xarici ticarət əməliyyatlarına mənfi təsirini göstərmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən hesabat ilində xarici ticarət əməliyyatlarının həcmi 31,0 mlrd. ABŞ dolları ilə nəticələnmişdir. Ticarət əməliyyatlarında ixracatın həcmi 21,8 mlrd. ABŞ dolları təşkil etmişdir. Azərbaycana idxal olunan məhsulların dəyəri 9,2 mlrd. ABŞ dolları məbləğində olmuşdur. 2013-cü ilə nisbətən 2014-cü ildə xarici ticarət əməliyyatları 10,6%, ixracatın həcmi 9,0%, idxalın həcmi 14,2% azalmışdır.

74 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Sənayesi”, səh. 177, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
75 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Sənayesi”, səh. 177, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
76 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın Sənayesi”, səh. 29, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
77 “Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi”, “Statistik nəşlər”, “Nəşrlərin e-versiyası”, “Azərbaycanın xarici ticarəti”, səh. 80 və səh.253, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
78 “Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi”, “Ən çox ixrac olunan mallar”, http://customs.gov.az/files/ix122014.pdf

**Əsas kapitala cəmi investisiyalar (2014)** [79]

2014-cü ildə kapitala olan cəmi investisiyaların məbləği 17,6 mlrd AZN təşkil etmişdir. Kapitala olan cəmi investisiyaların 66,2%-i qeyri-neft sektoruna, 33,8%-i isə neft sektoruna aid olmuşdur.




Buna əlavə olaraq qeyd etmək olar ki, daxili investisiyalar xarici investisiyaları üstələyib. Cəmi investisiya mənbələrinin 72,2%-i yerli, digər yerdə qalan 27,8%-i isə xarici investisiyalardan yığılmışdır. [80]




79 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın statistik göstəriciləri - 2015", səh. 538, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.

80 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşrlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın statistik göstəriciləri - 2015", səh. 549, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/.

**Məşğulluğun iqtisadiyyatın sahələri üzrə xarakteristikası.**

2014-cü ildə Azərbaycan Respublikasında iqtisadi fəal əhalinin sayı 4 840,7 min nəfər təşkil etmişdir və həmin sayın 4 602,9 min nəfəri məşğul olanlardan ibarət olmuşdur. Mədən hasilatı sənayesinin məşğulluğa olan nisbəti 0,9% olaraq, ümumi saya nəzərən 41,5 min nəfər olmuşdur. [81]

| Məşğulluq | 2014-cü il (min nəfər) |
|---|---|
| İqtisadi fəal əhalinin sayı | 4 840,7 |
| İqtisadiyyatda məşğul olanların sayı | 4 602,9 |
| Mədən hasilatı sənayesində sayı | 41,5 |

**DSMF-ə edilən ödənişlər**

2014-cü il ərzində Qarşılıqlı Anlaşma Memorandumuna uyğun olaraq MHŞT hesabat verən yerli və xarici şirkətlər tərəfindən DMSF-ə ödənilən məcburi dövlət sığotra haqlarının cəmi 59,3 milyon AZN təşkil etmişdir. Bu məlumatı, MHŞT katibliyinin DSMF-dən əldə etdiyi informasiya əsasında qeyd olunmuşdur.

**Ümumi məşğulluğun strukturu (2014)** [82]




81 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Əmək bazarı", səh. 16 və səh.26, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.
82 "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi", "Statistik nəşlər", "Nəşrlərin e-versiyası", "Azərbaycanın Statistik Göstəriciləri", "3.5. Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü", səh. 101, http://www.stat.gov.az/menu/6/statistical_yearbooks.

BP şirkəti ilə SOCAR arasında 2013-cü il noyabr ayında Azərbaycan vətəndaşlarının inkişafına dəstək olunması məqsədilə 3 layihədə (Azəri-Çiraq-Günəşli, Şahdəniz, Bakı-Tbilisi-Ceyhan və Cənubi Qafqaz boru kəmərində) fəaliyyətinin göstərilməsi üçün əməkdaşlıq müqaviləsi imzalanmışdır. İki şirkət arasındakı müqavilənin əsas məqsədləri BP şirkəti Azərbaycanda öz işçi heyətinin milliləşdirilməsi, müəyyən təlimlərin həyata keçirilməsi nəticəsində peşəkarlığın inkişaf etdirilməsi və həmin işçi qüvvələrin Azərbaycanda neft və qaz layihələrinə cəlb edilməsinin təmin olunmasıdır. [83]

**BP şirkəti üzrə iki illik işçi qüvvəsi**




2014-cü il sentyabr ayında BP ilə SOCAR arasında BP-nin işəgötürmə prosesinin razılaşdırılması məqsədilə Anlaşma Memorandumu imzalanmışdır. 2014-cü ilin sonuna qədər BP-nin Azərbaycan ofisində fəaliyyət göstərən milli vətəndaşlar işçi qüvvəsinin 86%-ni təşkil etmişdir. [84]

2018-ci ilin sonuna kimi BP-nin 5 illik işçi heyətinin milliləşdirilməsinin inkişafı planına əsasən yerli işçi qüvvəsinin nisbətinin 90%-ə çatması nəzərdə tutulur.

83 http://www.bp.com/en_az/caspian/press/pressreleases/BP-signs-agreement-for-nationalization.html
84 http://www.bp.com/content/dam/bp/pdf/sustainability/country-reports/bp-sustainability-report-azerbaijan-2014-english.pdf

# 3.4. İstehsalın həcmi

2014-cü ildə xarici və yerli hasilat sənayesi şirkətləri tərəfindən hasil olunan xammal üzrə istehsalatın həcmi və məbləği aşağıdakı cədvəldə öz əksini tapmışdır:

| **Bakı** | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 41 366 | 295 471 | 100,8 [84] | 29 783 477 |
| **Məhsul** | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Təbii qaz hasilatı | 15 572 | 549 679 404 | 10,1 [85] | 5 551 762 |

| **Siyəzən** | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 50 | 357 | 100,8 | 35 986 |
| **Məhsul** | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Təbii qaz hasilatı | 5 | 182 717 | 10,1 | 1 845 |

| **Neftçala** | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 44 | 314 | 100,8 | 31 651 |
| **Məhsul** | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Təbii qaz hasilatı | 1 | 24 238 | 10,1 | 245 |

| **Salyan** | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 184 | 1 314 | 100,8 | 132 451 |
| **Məhsul** | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Təbii qaz hasilatı | 23 | 803 581 | 10,1 | 8 116 |

| **İmişli** | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 19 | 136 | 100,8 | 13 709 |

85 http://www.maliyye.gov.az/sites/default/files/6265-izahat%20(1)(1).pdf

86 "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.1", page 22, https://www.worldbank.org/content/dam/Worldbank/GEP/GEP2015b/Global-Economic-Prospects-CommodityMarketOutlook_Jan2015.pdf

| Şirvan | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (min ton)** | **Həcm (min barel)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Neft (kondensatlar daxil olmaqla) hasilatı | 290 | 2 071 | 100,8 | 208 757 |
| **Məhsul** | **Həcm (mln m3)** | **Həcm (MMBTU)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (min ABŞ dolları)** |
| Təbii qaz hasilatı | 10 | 343 060 | 10,1 | 3 465 |

Azərbaycan Respublikasında hasil olunmuş mineral ehtiyatların dəyəri xarici bazar qiymәti ilə hesablanıb.

*1) Neft hasilatı:* Azərbaycan Respublikasında hasil olunmuş neftin həcm göstəricisi ton ilə olduğundan, həmin həcmi xüsusi düsturla hesablayaraq həcm vahidini barel ifadəsi ilə qeyd edilmişdir (1 ton neft=7,1428571428571 barel neft) [87]. 2014-cü ildə ölkədə istehsal olunan "Azəri Light" markalı xam neftin bir barelinin dünya bazarı üzrə orta satış qiyməti 100,8 ABŞ dolları təşkil etmişdir;

*2) Təbii qaz hasilatı:* Azərbaycan Respublikasında hasil olunmuş təbii qazın həcm göstəricisi mln m3 ilə olduğundan, həmin həcmi xüsusi düsturla hesablayaraq həcm vahidini MMBTU (1 milyon Britaniya istilik vahidi) ifadəsi ilə qeyd edilmişdir [88]. 2014-cü ildə ölkədə istehsal olunan təbii qazın dünya bazarı üzrə orta satış qiyməti 10,1 ABŞ dolları təşkil etmişdir;

| Gədəbəy | | | | |
|---|---|---|---|---|
| **Məhsul** | **Həcm (kq)** | **Həcm (unsiya)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| Qızıl hasilatı | 1 873 | 60 218 | 1 266 [88] | 76 235 988 |
| **Məhsul** | **Həcm (kq)** | **Həcm (unsiya)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| Gümüş hasilatı | 240 | 7 716 | 19 [89] | 146 604 |
| **Məhsul** | **Həcm (ton)** | **Həcm (ton)** | **Qiymət (ABŞ dolları)** | **Məbləğ (ABŞ dolları)** |
| Mis və konsentratlar | 675 | 675 | 6 863 [90] | 4 632 525 |

*1) Qızıl və gümüş hasilatı:* Azərbaycan Respublikasında hasil olunmuş qızıl və gümüş həcm göstəricisi kq ilə olduğundan, həmin həcmi xüsusi düsturla hesablayaraq həcm vahidini unsiya ifadəsi ilə qeyd edilmişdir (1 kq=35,2739619 unsiya). [92] 2014-cü ildə ölkədə istehsal olunan qızıl və gümüşün dünya bazarı üzrə orta satış qiyməti müvafiq olaraq 1 266 və 19 ABŞ dolları təşkil etmişdir.

MHŞT standartlarının tələbinə uyğun olaraq, hasil olunmuş məhsulların həcmi və dəyər ifadəsi hesabatda əks etdirilməlidir. Biz, açıq mənbələrdən dəyər ifadəsində məlumatları əldə edərək müvafiq hasil olunmuş məhsulların ümumi məbləğlərini hesablayaraq yuxarıdakı cədvəldə əks etdirmişik.

87 https://www.unitjuggler.com/convert-energy-from-toe-to-boe.html?val=41953
88 http://www.delekenergy.co.il/?pg=calc&CategoryID=198
89 "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.1", səh. 23, https://www.worldbank.org/content/dam/Worldbank/GEP/GEP2015b/Global-Economic-Prospects-CommodityMarketOutlook_Jan2015.pdf
90 "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.1", səh. 23, https://www.worldbank.org/content/dam/Worldbank/GEP/GEP2015b/Global-Economic-Prospects-CommodityMarketOutlook_Jan2015.pdf
91 "World bank quarterly report", "Commodity Markets Outlook", "Appendix – Table A.1", səh. 23, https://www.worldbank.org/content/dam/Worldbank/GEP/GEP2015b/Global-Economic-Prospects-CommodityMarketOutlook_Jan2015.pdf
92 http://calculator-converter.com/converter_kg_to_oz_kilograms_to_ounces_calculator.php

# 3.5. Hasilat sənayesində dövlətin iştirakı

### a) Ümumi məlumat

Hasilat sənayesində dövlətin iştirakı Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ("SOCAR") hesabına təmin edilir. SOCAR Azərbaycan Respublikası Prezidentinin 13 sentyabr 1992–ci il tarixli 200 saylı Fərmanı ilə Azərbaycan Respublikası ərazisinə məxsus neftin istifadəsinə dair neft sənayesinin idarəetmə strukturunun təkmilləşdirilməsi və neft və enerji kompleksinin inkişafının təmin edilməsi məqsədilə vahid dövlət siyasətinə müvafiq olaraq "Azərineft" Dövlət Konserninin və Azərneftkimya" İstehsalat Birliyinin bazasında yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli 430 nömrəli fərmanına əsasən 24 yanvar 2003-cü il tarixli fərmanına edilmiş dəyişikliyə müvafiq şirkətin tam adı Azərbaycan Respublikası Dövlət Neft Şirkət, qısaca isə SOCAR kimi müəyyən edilmişdir.

Hazırda Şirkətin Bakı şəhəri də daxil olmaqla respublikanın bir çox rayonunda (işğal olunmuş rayonlar istisna olmaqla) müəssisələri və dünyanın 22 ölkəsində treydinq ofisləri, nümayəndəlikləri fəaliyyət göstərir. 2014–cü il üzrə, SOCAR ümumilikdə 54 714[93] işçi qüvvəsinə, 22 hüquqi şəxs statusuna malik olan, ölkənin ən böyük şirkəti olaraq Azərbaycan Respublikasının iqtisadiyyatında mühüm yer tutmuşdur. SOCAR–ın 100% səhmləri dövlətə məxsusdur və o bütün HPBS-lər üzrə tərəfdaş kimi iştirak edir.

SOCAR ölkə ərazisindəki neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi, neft və qazın hasilatı, emalı, neft–qaz və neft–kimya məhsullarının daxili və xarici bazarlarda satışı ilə məşğul olan neft şirkətidir.

***SOCAR-ın müvafiq dövlət qurumları ilə münasibəti:***

SOCAR öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, digər normativ-hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunları ilə təsdiq edilmiş neftin və qazın kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişləri və şirkətin nizamnaməsi ilə tənzimləyir.[94]

SOCAR, fəaliyyəti ilə bağlı istiqamətlərə dair müvafiq qurumlar olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Maliyyə Nazirliyi, Vergilər Nazirliyi, İqtisadiyyat və Sənaye Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi qarşısında daim hesabatlarla çıxış edir. Şirkət sosial proqramların dəstəkçisi olaraq, dövlət orqanları ilə münasibətləri digərlərindən fərqli istiqamətlərdə davam etdirir.

2009-cu il 26 noyabr tarixli 906-IIIQ nömrəli qanununa əsasən dövlətə məxsus olan şirkətlər 2010-cu ildən başlayaraq öz gəlir və xərclər smetalarını və müvafiq investisiya proqramlarını Azərbaycan Respublikasının aidiyyəti sahə nazirliyi, habelə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi ilə razılaşdırmaqla hər il fevral ayının 25-dək təsdiq edirlər. SOCAR hər il növbəti ayın 15-dək əvvəlki ay ərzində hesablarına və kassalarına daxil olmuş pul vəsaitinin məbləği və onun istifadə istiqamətləri barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikası İqtisadiyyat SənayeNazirliyinə bu nazirliklərin hazırladığı forma üzrə hesabat təqdim edirlər. SOCAR təbii qazın və neft məhsullarının istehlakı ilə bağlı maliyyə intizamının ciddiləşdirilməsi və qarşılıqlı münasibətlərdə kreditor borclarının yaradılmaması üçün təsirli tədbirlər görür və nəticəsi barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim edir.[95]

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə təsdiq edilmiş nizamnaməsinin 6-ci bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən Azərbaycan Respublikasının Qanunlarına müvafiq olaran mühasibat

93 "SOCAR", "Davamlı inkişaf haqqında hesabat", "İnsan Resursları", səh. 53, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2014.pdf
94 http://socar.az/socar/az/company/regulations/socar-charter
95 http://archive.president.az/articles.php?item_id=20091222035643032&sec_id=29

uçotu aparır, illik maliyyə hesabatlarını, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi hesabatlarını Azərbaycan Respublikası Vergilər Nazirliyinə təqdim edir. Şirkət "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlarını tərtib edərək Dövlət Statistika Komitəsinə təqdim edir. SOCAR konsolidasiya edilmiş maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə hesabat dövrü başa çatdıqdan sonra növbəti il iyun ayının 30-dan gec olmayaraq internet səhifəsində dərc etdirir və hesabat dövrü ərzində SOCAR və ya onun törəmə müəssisələri dövlət zəmanəti ilə kredit aldıqda və ya dövlət borcunun xərclənməsi ilə bağlılayihələrdə iştirak etdikdə, həmçinin onlara büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrıldıqda Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir. [96]

Təcrübəyə əsasən bu vaxta qədər dövlət tərəfindən SOCAR-a maliyyə vəsaitlərinin ayrılması daha çox nizamnamə kapitalı və ya kredit ayırmaları vasitəsi ilə həyata keçirilir. Borcverən qismində çıxış edərək Azərbaycan Respublikası Mərkəzi Bankı, borcalan Azərbaycan bankları, və təkrar borcalan qismində SOCAR-a dövlət zəmanəti ilə kredit vəsaiti ayırır. Zaminlik kimi Azərbaycan Respublikası Hökuməti adından çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankı, SOCAR və Azərbaycan bankları arasında dövlət zəmanətinin verilməsi barədə saziş imzalayırlar.

SOCAR Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 24 yanvar tarixli 844 nömrəli fərmanı ilə təsdiq edilmiş nizamnaməsinin 6-ci bəndinə ("Şirkətdə uçot, hesabat və nəzarət") əsasən yuxarıda qeyd olunan dövlət qurumları tərəfindən tələb olunarsa, müvafiq hesabatlar və məlumatlar tərtib edərək təqdim olunmasını təmin edir. [97]

### *SOCAR tərəfindən dövlət büdcəsinə edilən ödənişlər [98]*

*Əlavə ödənilmiş kapital*
2014-cü il ərzində Hökumət tərəfindən SOCAR-ın nizamnamə kapitalına edilən əlavə ödəniş məbləği 178 milyon AZN olmuşdur. 31 dekabr 2014-cü bitən il tarixinə qeydiyyata alınmamışdır və əlavə ödənilmiş kapital kimi daxil edilmişdir.

*Dövlətə ayırmalar*
Dövlətə ayırmalar hökumətin xüsusi qərarlarına uyğun olaraq dövlət büdcəsinə, ayrı–ayrı dövlət agentliklərinə və hökumətin həyata keçirdiyilayihələrə SOCAR tərəfindən pul şəklində qoyuluşları və ya maliyyələşdirməni əks etdirir. Bu cür ayırmalar kapitalın azalması kimi uçota alınır. Pul şəklində olmayan ayırmalar köçürülmüş aktivlərin balans dəyərində qeydə alınır. 2014-cü il ərzində SOCAR tərəfindən hökumətə edilən bu cür birbaşa köçürmələrin məbləği 476 milyon AZN olmuşdur.[99]

---

96 http://www.e-qanun.az/framework/28955
97 E-qanun: Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin nizamnaməsi, http://www.e-qanun.az/framework/ 1899
98 "SOCAR", "Maliyyə Hesabatı, 2014-cü il", "Qeyd 26, Nizamnamə kapitalı, əlavə ödənilmiş capital və bölüşdürülməmiş mənfəət",səhifə 62, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2014.pdf
99 "SOCAR", "Maliyyə hesabatı 2014-cü il", "Qeyd 26, Nizamnamə kapitalı, əlavə ödənilmiş kapital və bölüşdürülməmiş mənfəət", səh. 68, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2014.pdf

***SOCAR-ın 2012-2014-cü illər üzrə neft və qaz hasilatı:***

*Azərbaycan Respublikası üzrə neft hasilatı (faiz nisbətində):*[100]




*Azərbaycan Respublikası üzrə qaz hasilatı (faiz nisbətində):* [101]




***SOCAR-ın 2012-2014-cü illər üzrə maliyyə göstəriciləri*** [102]

SOCAR-ın gəlir və ümumi mənfəətə dair 2012-ci ildən 2014-cü ilədək üç illik dinamikası:

*Gəlirlər (mln manat):*




*Ümumi mənfəət (mln manat):*




100 "SOCAR", "Davamlı İnkişaf Hesabatı, 2014", "Şirkət haqqında", səh. 7, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2014.pdf
101 "SOCAR", "Davamlı İnkişaf Hesabatı, 2014", "Şirkət haqqında", səh. 7, il, http://www.socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2014.pdf
102 "SOCAR", "Maliyyə Hesabatı, 2014", "Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və Digər Məcmu Gəlir haqqında Hesabat", səh. 4, , http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2014.pdf

SOCAR-ın büdcə ödənişləri və nizamnamə kapitalı üzrə 2012-ci ildən 2014-cü ilədək üç illik dinamikası:

*Büdcə ödənişləri (mlrd manat):*




*Nizamnamə kapitali (mlrd manat):*




SOCAR ölkə üzrə ən iri vergi ödəyicilərindən biridir, Şirkət 2014-cü ildə ilk dəfə büdcəyə rekord səviyyədə 1 855 milyon AZN məbləğində ödənişlər etmişdir.

Xam neftin satışından əldə olunan gəlirlər, xam neftin beynəlxalq bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiyməti arasındakı qiymət marjası üzrə Azərbaycan Respublikasında müvafiq vergi çıxılmaqla göstərilir. Bazar qiyməti ilə dövlət tərəfindən tənzimlənən daxili qiymət arasındakı fərqə 30% qiymət fərqi tətbiq edilir və vergi məbləği Dövlət Büdcəsinə köçürülür. Neft məhsullarının satışından yaranan gəlirlər 458 milyon AZN (2013–cü il: 570 milyon AZN) məbləğində aksiz vergisi çıxılmaqla göstərilir.[103]

2005-ci ildə Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəməri tikintisi tam başa çatdırılanadək və SOCAR Treydinq şirkətinin təsis edilməzdən əvvəl, SOCAR xam nefti Gürcüstan və Rusiya ərazisindən ixrac edirdi. BTC SOCAR-a Türkiyədə Ceyhan ərazisindən Aralıq dənizinə çıxışına və oradan da Azərbaycan neftinin Aralıq dəniziboyu ərazilərə, daha sonra Asiya və Amerikaya çatdırılması məqsədilə Çox Böyük Xam Daşıyıcıların (ÇBXD) yüklənməsinə imkan yaratmışdır. SOCAR Treydinq şirkəti 2008-ci ildən 1 milyard barelə yaxın həcmdə Azərbaycanın "Azəri-Light" markalı neftini uğurla dünya bazarına ixrac etmişdir. Ticarət şirkəti olaraq SOCAR Treydinq, onun tərəfdaş və kontragentlərinin ümumi şəbəkəsindən geniş bazar biliklərinin alınmasına əlavə olaraq, qiymət artımı və qlobal tələblərin dəyişkənliyinə uyğunlaşması sayəsində Azərbaycanın xammal satışının idarə edilməsinin öhdəsindən layiqincə gəlmişdir.

SOCAR Treydinq şirkəti Azərbaycanın Azəri-Çıraq-Günəşli və digər neft yataqlarından hasil olunan neftin ixrac olunması üzrə SOCAR-ın marketinq qolu olaraq 2007-ci ilin dekabr ayında təsis edilmişdir.

Hal-hazırda Azərbaycan xammalı əsasən iki–Gürcüstanda Qərb İxrac Boru Kəməri (QİBK), Türkiyədə isə Bakı-Tbilisi-Ceyhan ("BTC") boru kəmərləri vasitəsilə çatdırılır.

Qərb İxrac Boru Kəməri hal-hazırda yalnız məhsul daşınması üçün istifadəyə verilərək SOCAR-ın xam məhsullarının yük maşınları və qatarla daşınması tələblərinə imtina etmiş və SOCAR-ın marketinq seçimlərini daha da genişləndirmişdir.

103 "SOCAR", "Maliyyə hesabatı 2014-cü il", "Qeyd 27, Gəlirlərin kateqoriyalar üzrə təhlili", səh. 68, http://www.socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2014.pdf

Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəmərinin tikintisi Azərbaycan üçün atılan çox mühüm addımlardan biri olmuşdur. Aralıq Dənizinə çıxışın əldə edilməsi Azərbaycan neftinin regionun müxtəlif yerlərində satışına imkan yaradır. Bu da həmçinin Azərbaycan xam-mal bazarının Asiya və Amerika Birləşmiş Ştatlarında inkişafını bir qədər asanlaşdırır. [104]

SOCAR Treydinq geniş miqyasda üçüncü tərəf xam nefti üzrə ticarət edir. Şirkət Afrika və Asiyada uzunmüddətli işgüzar münasibətlərin inkişafına dair səylər göstərir, həmçinin, dövlət şirkəti və Azərbaycanın xam neftinin əsas satıcısı kimi dünya üzrə limanların çıxışlarının qazanılması üçün zəruri prosesləri həyata keçirir. *(milyon barel)*




2014-cü ildə Şirkətin gəlirləri 38,8 milyard ABŞ dolları təşkil etmişdir və bu da əvvəlki illərə nisbətən artım tempini əks etdirir.[105]
*(milyard ABŞ dolları)*




104 http://www.socartrading.com/marketing/marketing-export
105 “SOCAR”, “Statistik göstəricilər”, http://www.socartrading.com/about-us/key-statistics.

SOCAR Birləşmiş Ərəb Əmirliklərində yerləşən Fuceyra terminalındakı neft məhsulları ticarətinin idarə edilməsini həyata keçirir. Bu, strateji olaraq Hind okeanının Hörmüz boğazında yerləşən yeni tikilmiş zavoddur.

1-ci fazanın (115 00 kub metr, yanacaq saxlaması) tikintisi 2012-ci ilin 1-ci rübündə bitmişdir. 2-ci faza (235 000 kub metr, neft-yanacaq qarışığı və təmiz məhsulların saxlanması) 2013-cü ilin 3-cü rübündə öz fəaliyyətinə başlamışdır. Terminalın uzadılması prosesi hal-hazırda (3-cü tikinti fazası 3 298 000 kub metr) davam etdirilir. Bu əmlak SOCAR şirkəti tərəfindən Şərqi Afrika və Ərəb Körfəzində olan yeni bazarlara inteqrasiyanın gücləndirilməsi sayəsində ticarət fəaliyyətinin təmin edilməsi üçün istifadə edilir.[106]

**b) Ölkənin hasilat sənayesi üzrə fəaliyyət göstərən dağ-mədən, neft və qaz şirkətlərinin benefisiar sahibliyinin səviyyəsi**

2014-cü il ərzində Azərbaycan Dövlət Neft Şirkətinin birgə və asılı müəssisələrdə iştirak payları, hesabat dövründə iştirak payının dəyişməsi, gəlir, aktiv və borc öhdəliklərinə dair məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

Asılı müəssisələr [107]:

| Asılı müəssisə və törəmə şirkətin adı | DŞ iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Cəmi öhdəlikləri* (milyon manat) |
|---|---|---|---|---|---|
| Ataşgah Sığorta Şirkəti QSC | 10% | Dəyişməyib | 36,0 | 32,0 | (25,0) |
| Azərbaycan Qaz Təchizatı Şirkəti | 28% | Dəyişməyib | 1 842,0 | 391,0 | (391,0) |
| AzLab | 50% | Dəyişməyib | 2,0 | 1,0 | - |
| Kaspian Geofisikal Kompani BM | 45% | Dəyişməyib | 6,0 | 23,0 | (1,0) |
| Kaspian Payp Kostinqs MMC | 50% | Dəyişməyib | 19,0 | 11,0 | (3,0) |
| Kross Kaspian Neft və Qaz Logistik | 34% | Dəyişməyib | 53,0 | 6,0 | (6,0) |
| İnterfaks Azərbaycan | 49% | Dəyişməyib | - | 4,0 | - |
| Tankanlagen Mellingeri AG (TAMAG) | 33% | Dəyişməyib | 3,0 | 6,0 | (2,0) |
| Tanklager Taegerschen AG (TLT) | 21% | Dəyişməyib | 1,0 | 1,0 | - |
| SOGEP AG | 34% | Dəyişməyib | 5,0 | 1,0 | (1,0) |
| UBAG AG | 24% | Dəyişməyib | 12,0 | 14,0 | (12,0) |
| SAPPRO SA | 13% | Dəyişməyib | 10,0 | 3,0 | (1,0) |
| SARACO SA | 20% | Dəyişməyib | 10,0 | 8,0 | (7,0) |
| Cənub Qafqaz Boru Kəməri Hold Ko | 10% | Dəyişməyib | - | 27,0 | - |
| Kooperativ Saif | 20% | Dəyişib | - | 73,0 | (82,0) |

106 http://www.socartrading.com/trading/storage
107 "SOCAR", "Maliyyə Hesabat, 2014-cü il", "Qeyd 17, Asılı müəssisələrə investisiyalar", səhifə 56-60, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2014.pdf

***Birgə müəssisələr* [108]:**

| BM və törəmə şirkətin adı | DŞ iştirak payı (%) | Hesabat dövründə iştirak payının dəyişməsi (%) | Gəlir (mln manat) | Aktivlər (mln manat) | Cəmi öhdəlikləri* (mln manat) |
|---|---|---|---|---|---|
| AGRI LNG Layihə Şirkəti | 33% | Dəyişməyib | - | - | - |
| Azeri M.İ. Qazma Mayeləri | 51% | Dəyişməyib | 148,0 | 57,0 | (36,0) |
| Azərbaycan Riqs | 10% | Dəyişməyib | - | 353,0 | - |
| SOCAR Fugro | 51% | Dəyişməyib | 1.0 | 1.0 | (1.0) |
| AZFEN | 60% | Dəyişməyib | 270,0 | 160,0 | (90,0) |
| AzGerneft MMC | 40% | Dəyişməyib | 39,0 | 91,0 | (34,0) |
| Ekol Mühəndislik Xidmətləri | 51% | Dəyişməyib | 12,0 | 16,0 | (1,0) |
| Kaspian Şipyard Şirkəti | 20% | Dəyişməyib | 85,0 | 38,0 | (18,0) |
| Neft və Qaz Proservis | 30% | Dəyişməyib | 6,0 | 19,0 | (10,0) |
| Sarmatia | 27% | Dəyişməyib | - | 1,0 | - |
| SOCAR AQŞ | 51% | Dəyişməyib | 99,0 | 357,0 | (135,0) |
| SOCAR Avrora Terminalı | 50% | Dəyişməyib | 15,0 | 86,0 | (45,0) |
| SOCAR Bağlan MMC | 51% | Dəyişməyib | 1,0 | 15,0 | (19,0) |
| SOCAR Foster Viler Mühəndislik xidmətləri | 65% | Dəyişməyib | 11,0 | 1,0 | (1,0) |
| SOCAR KAPE | 51% | Dəyişməyib | 57,0 | 26,0 | (32,0) |
| SOCAR KPS | 50% | Dəyişməyib | 5,0 | 16,0 | (16,0) |
| SOCAR Tikinti | 97% | Dəyişməyib | 1,0 | 13,0 | (1,0) |
| SOCAR STQ | 51% | Dəyişməyib | - | (2,0) | (2,0) |
| SOCAR Ümid | 80% | Dəyişməyib | - | 436,0 | (20,0) |

* Öhdəliklər hər bir müəssisənin ayrı ayrılıqda olan cəmi öhdəlikləridir.

***Benefisiar sahibliyin səviyyəsində dəyişikliklər (birgə və asılı müəssisələr)***

- 2014-cü ilin mart ayında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun törəmə müəssisələri ("Qrup") Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə Cənubi Qaz Dəhlizi (CQD) şirkətini təsis etmişdir. Qrup ÇQD-nın nizamnamə kapitalına 38 milyon AZN məbləğində vəsait yatıraraq ÇQD-də 49 faizlik pay əldə etmişdir;
- 2014-cü ilin may ayında Qrup 50 milyon AZN məbləğində asılı müəssisəsi olan SOCAR Turkey Yatırım A.S. ("STYAŞ") şirkətinin əlavə 18,5 faizini əldə etmişdir və müəssisənin nizamnamə kapitalına 24 milyon AZN (2013-cü il: 144 milyon AZN).məbləğində əlavə vəsait yönəltmişdir. Eyni zamanda STYAŞ-ın səhmdarları yeni səhmdar razılaşması imzalamışdır. Yeni səhmdar razılaşmasına uyğun olaraq Qrupun STYAŞ-da birgə nəzarəti mövcuddur. Bu əməliyyatın nəticəsində Qrup asılı müəssisəni birgə müəssisəyə keçirmişdir;

108 "SOCAR", "Maliyyə hesabatı, 2014-cü il", "Qeyd 16, Birgə nəzarət edilən müəssisələrdə investisiyalar", səhifə 49-51, http://www.socar.az/socar/assets/documents/en/socar-financial-reports/2014.pdf

- 2014-cü il ərzində Qrup asılı müəssisələr olan AzSCP və AzTap müəssisələrinin nizamnamə kapitallarına müvafiq olaraq 55 milyon AZN məbləğində (2013-cü il: sıfır) və 11 milyon AZN (2013-cü il: 33 milyon AZN) məbləğində əlavə vəsaitlər və digər birgə müəssisələrə əhəmiyyətli olmayan vəsaitlər yatırmışdır;
- 23 iyul 2014-cü il tarixində Qrup törəmə müəssisəsi olan AzTAP-ı Cənubi Qaz Dəhliz Şirkətinə satmışdır. Satış tarixi günü TAP-ın balans dəyəri 43 milyon AZN olmuşdur. Satışdan əvvəl Qrup özünün törəmə müəssisəsi AzTap vasitəsilə TAP-ın 20 faizlik payına sahib olmuşdur və bu pay 31 dekabr 2013-cü il tarixində asılı müəssisə kimi uçota alınmışdır.
- 2014-cü il ərzində Qrup Socar Ümid MMC, Azərbaycan Rigs MMC ve STYAS birgə müəssisələrin nizamnamə kapitalına, Müfaviq olaraq 40 milyon AZN ( 2013-cü il, 84 milyon AZN) 14 milyon AZN (2013-cü il, 19 milyon AZN) və 192 milyon AZN məbləğində əlavə vəsaitlər, eləcə də digər birgə müəssisələrə, əhəmiyyətli olmayan vəsaitlər yatırmışdır.
- MHŞT Hesabatı müddətində hökumət və SOCAR arasında benefisiar sahiblik səviyyəsində heç bir dəyişiklik baş verməmişdir;
- Birgə müəssisələr və asılı şirkətlərin məsuliyyət səviyyəsi Kapital Metodu ilə uçota alınır.

***Kreditlər və zəmanətlər***

SOCAR tərəfindən 2014-cü ilin mart ayının 11-də Avropa maliyyə bazarında 15 il müddətində 750 milyon ABŞ dolları məbləğində avrobondlar buraxılmışdır. İnvestorların faiz dərəcəsini nəzərə alaraq, qiymətli kağızların illik faiz dərəcəsi 6,95% kimi müəyyən edilmişdir. SOCAR tərəfindən buraxılan avrobondların coğrafi bölgüsü aşağıdakı kimidir: Avropa-18%, Birləşmiş Krallıq-39%, ABŞ-41% və digər investorlar-2%. İnvestorların yerləşməsi nəticəsində ayırmalar bu cür olmuşdur: 93%-fond birjası işçiləri, 5%-banklar və 2%-pensiya fondları. [109]

2014-cü il 31 dekabr bitən il üzrə SOCAR şirkətinin borc öhdəlikləri haqqında ətraflı məlumatı SOCAR-ın konsolidasiya edilmiş maliyyə hesabatının 19 nömrəli qeydində öz əksini tapmışdır. [110]

***SOCAR standartları***

SOCAR-ın satınalmalar üzrə müvafiq prosedurları "Satınalmaların təşkili və idarə olunması üzrə normativ sənədlər toplusu" adlı Əsasnaməyə uyğun olaraq həyata keçirilir. Həmin Əsasnamə Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli 844 nömrəli fərmanına əsasən qüvvəyə minmişdir.[111] Daha geniş məlumatı SOCAR-ın standartlar toplusu başlıqlı rəsmi internet səhifəsində yerləşən məlumat bazasından əldə etmək mümkündür.

SOCAR-ın digər standartları eyni məlumat bazasında yerləşdirilmişdir.

## c) Kvazi-fiskal xərclərin açıqlanması

2007-ci ildən başlayaraq Azərbaycanda xam neft, qaz və neft məhsullarının daxili topdan və pərakəndə satış qiymətləri dövlət tərəfindən tənzimlənir və qiymətlər bu işə məsul olan Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurası tərəfindən müəyyən edilir. "Ölkə daxilində neft məhsullarının tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasının 2 dekabr 2013-cü il tarixli 14 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurasının 10 fevral 2014-cü il tarixli 1 saylı Qərarı ilə ölkə daxilində neft məhsullarının topdan və pərakədə satışının yeni tarifləri müəyyən edilib.[112] Şura tərəfindən müəyyən edilən qiymətlər neft, qaz və neft məhsullarının dünya bazar qiymətlərindən aşağı olub. Bu o deməkdir ki, 2014-cü ildə SOCAR neft, qaz və neft məhsullarını daxili istehlakçılara dünya bazar qiymətlərindən aşağı qiymətlərlə təqdim edib. 2007-ci ildən başlayaraq dövlət büdcəsi haqqında qanunla ölkədə istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulun kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığım

109 "SOCAR", "Davamlı inkişaf haqqında hesabat", "SOCAR haqqında", səh. 9, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2014.pdf
110 "SOCAR", "Maliyyə hesabatı 2014", "Qeyd 19", səh. 61-63, http://socar.az/socar/assets/documents/az/socar-financial-reports/Maliyye.hesabat.2014.pdf
111 "SOCAR", "SOCAR standartları", "Satınalmalar üzrə normativ sənədlər" http://www.socar.az/socar/az/company/socar-standards/socar-standards
112 http://www.tariffcouncil.gov.az/?/az/resolution/view/118 /

(ixrac vergisi xarakterində) tətbiq edilir: 2014-cü ildə qiymət fərqindən yaranan gəlirlər hesabına SOCAR dövlət büdcəsinə 311,7 mln. AZN vəsait ödəyib.

SOCAR sosial xidmətlərin təminatı, ictimai infrastrukturun yaradılması, kvazi fiskal xərclər və s. bu kimi müxtəlif sahələrə investisiya qoyuluşlarını həyata keçirir. Xeyriyyə və sosial yardım əsasən aşağıdakılardan ibarətdir:

- Sosial yardım və mühafizə;
- Təhsil, mədəniyyət və idman təşəbbüslərinə dəstək;
- Səhiyyəyə dəstək;
- Digər dövlət sosial proqramlarına dəstək; və
- Şirkətin daxili sənədləri ilə nəzərdə tutulmuş digər tədbirlər.

SOCAR-ın xeyriyyə, sosial və sponsorluq məqsədləri üçün 2014-cü il üzrə ödənişləri: [113]

| Ödənişin təsviri | Məbləğ (min manat) |
|---|---|
| İdman | 4 527 |
| Maliyyə asossiyasiyaları və həmkarlar ittifaqları | 174 |
| Təhsil | 244 |
| Mədəniyyət və incəsənət | 1 992 |
| Dövlət müəssisələri və orqanları | 2 868 |
| Səhiyyə | 16 |
| Fiziki şəxslərə maddi yardım | 1 114 |
| Əlil veteran və digər şəxslər | 67 |
| **Cəmi** | **11 002** |

Xarici bazarlarda fəaliyyətin genişlənməsi: [114]

113 "SOCAR", "Davamlı inkişaf haqqında hesabat", "Sosial fəaliyyət və regionlarin inkişafına dəstək", səh. 67, http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/davamli-inkisaf2014.pdf
114 "SOCAR", "Davamlı İnkişaf üzrə Hesabat, 2014-cü il", http://socar.az/socar/assets/documents/en/socar-annual-reports/sus.dev.rep-2014.pdf

| **Layihələr** | **2014-cü il üzrə inkişaf** |
|---|---|
| DESFA | |
| DESFA - (Milli Təbii Qaz Sistemi Operatoru S.A.) Yunanıstanda təbii qaz nəqli sisteminin operatorudur. 2013-cü il iyul ayının 31-də Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin 31%-ni Yunanıstan hökumətindən, 35%-ni "Hellenic Petroleum SA" şirkətindən səhm paketinin almasına dair sövdələşməni təqdirəlayiq hesab edir. | Avropa Komissiyası Yunanıstanın DESFA qaz nəqli sistemi operatorunun səhmlərinin SOCAR tərəfindən alınmasına dair araşdırmaların ikinci mərhələsinə 2014-cü ilin sonunda başlayıb. Yekun qərarın 2015-ci ilin birinci yarısında veriləcəyi gözlənilir. |
| "Cənubi Qafqaz" Boru Kəməri | |
| 2014-cü ilin fevralında "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi, "Cənubi Qafqaz" boru kəmərinin genişləndirilməsi, "Trans-Anadolu" boru kəməri və "Trans-Adriatik" boru kəmərilayihələrində Azərbaycanın iştirak payını idarə etmək üçün "Cənub qaz dəhlizi" QSC yaradılıb. | 2014-cü ilin iyul ayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti "Cənub qaz dəhlizi"layihəsi çərçivəsində iki şirkət yaradıb: "SOCAR Upstream Management İnternational" və "SOCAR Midstream Operations". Hər iki şirkət SOCAR-ın mərkəzi ofisindədir və 1000 manat nizamnamə kapitalına malikdir.<br><br>Onun iştirak payları 49% olan SOCAR və 51% olan Sənaye Nazirliyi kimi iki səhmdarı vardır. Nizamnamə kapitalının dəyəri 100 milyon ABŞ dolları məbləğindədir. |
| TANAP layihəsi | |
| "Şahdəniz" yatağından çıxan qazın Gürcüstan-Türkiyə-Yunanıstan-Albaniya- İtaliya marşrutu üzrə nəqlini nəzərdə tutan TANAP (Trans Anadolu Təbii Qaz Boru Kəməri) Türkiyə və Azərbaycanın enerji sahəsində uğurla həyata keçirdikləri ən mühüm layihələrdən olmaqla dünya enerji sektoru üçün də müstəsna rola malikdir. | 5 mart 2014-cü il tarixli Ümumi Yığıncaq qərarına əsasən 31 mart 2014-cü il tarixində "Cənub qaz dəhlizi" QSC təsis edilmişdir. 2014-cü ilin iyul tarixində "TANAP Doğalgaz İletim A.S." şirkətində SOCAR-a məxsus 100% iştirak payının QSC-yə ötürülməsi məqsədilə QSC və SOCAR arasında "TANAP Alqı-Satqı" müqaviləsi imzalanmışdır.<br><br>2014-cü ilin sentyabr ayında tarixində TANAPlayihəsi ilə əlaqədar Türkiyə Respublikası və "TANAP Doğalgaz İletim A.Ş." arasında həmin ilin 26 may tarixində imzalanmış "Ev Sahibi Hökumət Sazişinə Düzəliş" müqaviləsi (AHGA) Türkiyə Parlamenti tərəfindən ratifikasiya olunmuşdur. |
| TAP layihəsi | |
| TAP layihəsinin köməyi ilə təbii qaz Azərbaycanın nəhəng "Şahdəniz-2" yatağından Avropaya nəql olunacaq. Təxminən 870 km uzunluğunda olan boru kəməri Yunanıstan-Türkiyə sərhədində Kipoda Trans-Anadolu boru kəmərinə (TANAP) birləşəcək. Layihədə iştirak payları BP (20%), SOCAR (20%), Statoyl (20%), Fluxys (19%), Enagas (16%) and Axpo (5%) məxsusdur. | 2014-cü ilin iyul ayında "AzTAP GmbH" şirkətində SOCAR-ın 100% səhmdarı olduğu "SOCAR Energy Holdings AG" (SESH) şirkətinə məxsus 100% iştirak payının və eyni zamanda "AzTAP GmbH" şirkətinin TAPlayihəsində 20% iştirak payının Cəmiyyətə ötürülməsi məqsədilə Cəmiyyət və SESH arasında payların alqı-satqısına dair "TAP Alqı-Satqı" müqaviləsi və borc müqavilələrinin Cəmiyyətə ötürülməsi məqsədilə SOCAR, Cəmiyyət və "AzTAP GmbH" şirkətləri arasında "Borcların Ötürülməsi" müqaviləsi imzalanmışdır. |
| Bakı Şipyard Plant | |
| Bakı Şipyard Plant Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə 2013-cü ilin sentyabr ayında istismara verilmişdir. Onun səhmdarları SOCAR (65%), Azərbaycan İnvestisiya Şirkəti (25%) və Keppel O&M (10%). | Bakı Şipyard Plant pontonların tikintisinə dair ilk sifarişini 40 milyon ABŞ dolları məbləğində SOCAR və Kaspian Drillinq şirkətindən almışdır. Şirkət 2014-cü il ərzində ümumi olaraq 3 sifariş almışdır. |

# 3.6. Hasilat sənayesindən Neft Fonduna və dövlət büdcəsinə daxil olan gəlirlər

2014-cü il ərzində HPBS üzrə podratçı şirkətlər tərəfindən dövlət büdcəsinə edilən köçürmələr barədə məlumatlar hesabatın 1.4 "Üzləşmə prosesinin nəticələri" bölməsində daha ətraflı təqdim edilmişdir. 2014-cü ildə HPBS üzrə podratçı və xarici subpodratçı şirkətlər tərəfindən muzdlu işlə əlaqədar əldə edilən gəlirlərdən dövlət büdcəsinə 252,8 milyon AZN məbləğində gəlir vergisi ödənilmişdir. [115]

2014–cü ildə Neft Fonduna ümumilikdə 12,7 [116] mlrd. manat (16,2 mlrd. ABŞ dolları) məbləğində vəsait daxil olmuşdur. Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər, tranzit haqları ilə bağlı ödənişlər, bonus ödənişləri, akrhesabı ödənişləri, fondun vəsaitinin idarə edilməsindən əldə edilən gəlirlər və digər mənbələrdən daxil olan gəlirlər Neft Fondunun gəlirlərinin formalaşa mənbələrini təşkil etmişdir.

***2014–cü ildə ARDNF gəlirlərinin formalaşma mənbələri (mln manat)*** [117]

| **Mənbələr** | **Məbləğ (mln manat)** |
|---|---:|
| Mənfəət neftinin və qazın satışından daxilolmalar | 12 319,8 |
| Vəsaitin idarə olunmasından gəlirlər | 387,2 |
| Tranzit haqları üzrə ödənişlər | 8,9 |
| Bonus ödənişləri | 13,3 |
| Akrhesabı ödənişlər | 1,7 |
| Digər gəlirlər və daxilolmalar | 0,1 |
| **Cəmi** | **12 731,0** |

***Neft fondunun 2014–cü il üzrə xərclərin bölgüsü (mln manat)*** [118]

| **Mənbələr** | **Məbləğ (mln manat)** |
|---|---:|
| Dövlət büdcəsinə transfer | 9 337,0 |
| Star neft emalı kompleksinin tikilməsi | 223,5 |
| Qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması | 300,0 |
| Samur–Abşeron suvarma sistemi | 80,2 |
| Neft Fondunun inzibati xərcləri | 45,9 |
| Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili | 33,5 |
| Bakı–Tbilisi–Qars yeni dəmir yolu | 57,1 |
| "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi | 40,0 |
| **Cəmi** | **10 117,2** |

115 Azərbaycan Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında qanunlayihəsinə əlavə edilmiş sənədlər toplusu. 5-ci kitab.
116 "Azərbaycan Respublikasi Dövlət Neft Fondu", "İllik hesabat-2014", "Neft Fondunun 2014-cü il büdcəsinin icrasi", səh. 75, http://www.oilfund.az/uploads/annual_2014az.pdf
117 "Azərbaycan Respublikasi Dövlət Neft Fondu", "İllik hesabat-2014", "Neft Fondunun 2014-cü il büdcəsinin icrasi", səh. 75, http://www.oilfund.az/uploads/annual_2014az.pdf
118 "Azərbaycan Respublikasi Dövlət Neft Fondu", "İllik hesabat-2014", "Neft Fondunun 2014-cü il büdcəsinin icrasi", səh. 77, http://www.oilfund.az/uploads/annual_2014az.pdf

# 3.7. Lisenziyaların reyestri

Azərbaycanda vahidlisenziya reyestri İqtisadi və Sənaye Nazirliyi ("İSN") tərəfindən aparılır. İSN–nin 30 sentyabr 2002–ci il tarixli 68 nömrəli əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikasında vahidlisenziya reyestrin aparılması qaydalarına ("Qaydalar") əsasən Azərbaycanda verilmiş bütün lisenziyaların reyestri ictimaiyyət üçün açıqdır. Digər tərəfdən isə Prezidentin 2 sentyabr 2002-ci il tarixli 782 [119] nömrəli fərmanı əsasında qəbul edilmişdir və ona görə qənaətə gəlmək olar ki, qaydalara əsasən lisenziyaların reyestri yalnız Prezidentin 782 nömrəli fərmanının təsir dairəsinə düşənlisenziyalar (məsələn, neft və qaz məhsullarının satışı üçünlisenziyalar, qiymətli metal və daşların istehsalı, emalı, və istifadəsi və dövriyyəsi üçünlisenziyalar, və s.) barədə məlumatları əhatə edir.

Neft, qaz və mineral resurslarının kəşfiyyatı və ya istismarına dairlisenziyaların verilməsi 782 nömrəli fərmanında nəzərdə tutulmur və Azərbaycan qanunvericiliyi ilə bu cürlisenziyanın alınması üçün heç bir prosedur yoxdur. Halbuki, ölkə prezidentinin 28 mart 2000–ci il tarixli 310 nömrəli fərmanına əsasən neft və qaz resurslarının kəşfiyyatı və istismarı dövlətin tam səlahiyyətində olub yalnız dövlət orqanları və ya dövlət nəzarətində olan səhmdar şirkətlər tərəfindən aparıla bilər.

Azərbaycan Hökuməti bu cür fəaliyyətlərin icrası ilə məşğul olmasına, təcrübəli və beynəlxalq səviyyədə tanınmış podratçıların cəlb olunmasına dair bütün haqlara məxsusdur. Digər bir tərəfdən, neft-qaz hasilatı və kəşfiyyatı ilə məşğul olmağa dair bu cür hüquq vəlisenziyaların verilməsi üçün dövlət (dövləti təmsil edən şirkət) və üçüncü tərəf arasında Hasilatın Pay Bölgüsü Sazişləri bağlanır və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən xüsusi qanunlar kimi təsdiq edildikdən sonra qüvvəyə minir. HPBS–ləri təsdiq edən qanunlarda podratçı tərəflərə saziş çərçivəsində (neft-qaz hasilatı və kəşfiyyatı daxil olmaqla) fəaliyyət göstərmək üçün tələb olunan bütün icazələrin vəlisenziyaların verilməsi, eləcə dəlisenziya ilə bağlı məlumatlar açıq şəkildə ifadə olunur.

MHŞT standartının 3.9. bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında HPBS-ya qoşulmuş aktiv şirkətlərin reyestri tərtib edilmişdir və açıq mənbədə dərc edilərək ictimaiyyətə təqdim olunmuşdur. [120] Tərtib olunmuş reyestrdə standartın tələbinə əsasən müvafiq məlumatlar öz əksini tapmışdır:

- Sazişlərərin tərəfləri;
- Sazişlərə əsasən əhatə olunan sahələrin koordinatları;
- Sazişlərin imzalanma tarixi və qüvvədə olma müddəti; və
- Sazişlərə əsasən hasil olunan məhsul.

119 http://www.e-qanun.az/framework/29576
120 MHŞT Azərbaycanın rəsmi internet səhifəsi, "Sənədlər", "Lisenziyaların reyestri", http://www.eiti.az/index.php/en/senedler-2/registration-of-licenses

## 3.8. Lisenziyaların təyinatı

Azərbaycan Respublikasında hasilatın pay bölgüsü sazişlərini ("HPBS") tənzimləyən qanun mövcud deyil və beləliklə potensial investorun seçim meyarları qanunvericilikdə nəzərdə tutulmamışdır.

Mövcud praktikaya əsasən karbohidrogen ehtiyatlarının işlənməsilayihələrində potensial investorun seçimi xüsusi olaraq səlahiyyətlər verilmiş dövlət orqanı və belə investor arasında birbaşa danışıqlar vasitəsilə keçirilir. Buna baxmayaraq, beynəlxalq praktikada geniş istifadə edilən digər formalar, o cümlədən tenderlərin keçirilməsi də istisna edilmir. Azərbaycanda xarici partnyorlarla karbohidrogen ehtiyatlarının işlənməsi layihələri üçün HPBS sazişi forması seçilmişdir. PBS praktikasının təməli 20 sentyabr 1994-cü il tarixdə Azəri-Çıraq-Günəşli HPBS-nin imzalanması ilə qoyulmuşdur və həmin tarixdən etibarən bu günədək 30-dan yuxarı HPBS imzalanmışdır. Mövcud HPBS praktikası aşağıdakı prosedurlardan ibarətdir:

- Karbohidrogenlərin işlənməsi üzrə kontraktların hazırlanması haqqında danışıqlar birbaşa hökuməti təmsil edən və hökumətin adından karbohidrogen ehtiyatları üzrə sərəncam hüququna malik olan SOCAR və maraqlı investorlar arasında aparılır.
- İlk növbədə SOCAR və xarici investor arasında karbohidrogen ehtiyatlarının kəşfiyyatı və işlənməsi layihəsi ("Layihə") haqqında anlaşma memorandumu ("AM") imzalanır. AM-nin müddəalarına uyğun olaraq investorlara müəyyən müddət ərzində Layihə üzrə əsas kommersiya prinsipləri və şərtləri haqqında saziş ("ƏKPŞS") üzrə danışıqların aparılmasına dair müstəsna hüquq verilir.
- ƏKPŞS üzrə danışıqlar bitəndən sonra SOCAR sənədi təsdiq edilməsi və onun əsasında HPBS-nin hazırlanması və imzalanması və HPBS-nin qüvvədə olduğu müddət ərzində dövlət səlahiyyətlərinə aid olan məsələlər üzrə funksiyaları həyata keçirmək səlahiyyətlərinin SOCAR-a verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edir.
2.3. Standartın 3.4-cü tələbinə görə hesabatın əhatə etdiyi maliyyə ili ərzində hasilat sənayesinin iqtisadiyyata töhfəsi barədə məlumatlar hesabatda açıqlanmalıdır. 2014-cü il MHŞT Hesabatının "3.3. Azərbaycan iqtisadiyyatına hasilat sənayesinin töhfəsi" bölməsində illik ÜDM-in həcmi, ÜDM-in sahə və istehsal strukturu (habelə hasilat sənayesinin payı), hasilat sənayesində dövlət məcmu gəlirinin (o cümlədən vergilər, royalti, bonuslar, komisyon haqları və digər ödənişlər) mütləq ifadəsinə və dövlətin ümumi gəlirlərində xüsusi çəkisinə dair məlumatlar, 2014-cü ildə neft, təbii qaz, qızıl və gümüş hasilatının həcmləri və ölkənin əraziləri üzrə hasilat həcmlərinə dair məlumatlar, hasilat sənayesinin ixracatının mütləq ifadəsinə dair məlumatlar, əsas kapitala investisiyalarda hasilat sənayesinin payı, məşğulluğun iqtisadiyyatın sahələri üzrə xarakteristikası və strukturu haqqında məlumatlar toplanmışdır.

2014-cü ilin Hesabatının bu bölməsinə əvvəlki ilin hesabatında olmayan aşağıdakı məlumatlar əlavə edilib: ÜDM-də kölgə iqtisadiyyatının payı haqqında qiymətləndirmə, 2014-cü ildə hasilat sənayesi şirkətlərinin Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ödənişlərinin ümumi məbləği, BP şirkəti üzrə məşğulluqda yerli və əcnəbi işçilərin sayı haqqında məlumatlar.

Ölkənin əraziləri (rayonları) üzrə mədən sənayesi məhsullarının hasilat həcmləri barədə 3 illik məlumatların hesabatda verilməsi vacib və əhəmiyyətlidir,lakin həmin məlumatların "Ölkə iqtisadiyyatına hasilat sənayesinin töhfəsi" bölməsinə daxil edilməsi başa düşülən deyil. Növbəti illərin hesabatlarında ərazilər (rayonlar) üzrə illik hasilat məlumatların "3.4. İstehsalın həcmi" bölməsində (Standartın 3.5-ci tələbinə uyğun olaraq) verilməsini, belə məlumatların 3 illik dinamikasınıı isə Hesabatın "3.1. Mədən sənayesinin icmalı" bölməsində olmasını məqsədəuyğun hesab edirik.

Bu bölmədə "İxracatda hasilat sənayəsinin payı" yarımbaşlığı altında təqdim edilən məlumatlarda ixrac olunan hasilat məhsullarının həcmi və dəyəri göstərilsə də, ölkənin ümumi ixracında bunların payını əks etdirən göstəricilər yoxdur. Həmçinin burada Beynəlxalq Valyuta Fonduna (BVF) istinadən göstərilir ki, "əvvəlki illə müqayisədə 2014-cü ildə ölkənin xarici ticarət əlaqələri inkişaf etmiş ölkələrdə 3,3%, inkişaf etməkdə olan ölkələrdə isə 3,4% artmışdır". Belə informasiya bu bölmə və bütövlükdə hesabat üçün yersiz görünür. Burada hasilat sənayesinin ixracda payının illər üzrə dəyişilməsi haqqında məlumatların yerləşdirilməsi daha məqsədəuyğun olardı. Həm də belə məlumatların ölkədə belə informasiyanın sahibləri olan Dövlət Statistika Komitəsinə və Dövlət Gömrük Komitəsinə istinadən verilməsi (bu qurumların saytlarında belə məlumatlar olur) daha məqsədəuyğundur.

2013-cü il Hesabatına Koalisiyanın rəyində qeyd etmişdik ki, "bu bölmədə təqdim olunan investisiya və məğulluq göstəricilərinin şirkətlər üzrə verilməsi, habelə mədən sənayesi şirkətlərində məşğul olanların yerli və əcnəbi işçilər üzrə bölgüsünün təqdimatı hesabatın kefiyyətini artıra bilər". 2014-cü il Hesabatında yalnız BP şirkəti üzrə işçilərin sayının dinamikası və strukturu verilmişdir. Müstəqil Administrator bunu digər hasilat şirkətləri üzrə oxşar məlumatların açıq mənbələrdə olmaması ilə əlaqələndirib. Hesab edirik ki, ÇQ bu məsələni diqqətdə saxlamalı, digər hasilat şirkətləri üzrə belə məlumatların toplanması üçün tədbirlər görməli və növbəti illərin hesabatlarına belə məlumatların daxil edilməsini təmin etməlidir.

Standartda tələb olunmasa da, bu bölmədə yerli və xarici hasilat şirkətlərinin 2014-cü ildə DSMF-ə ödənişlərinin məbləği haqqında məlumat daxil edilib. Burada hasilat şirkətlərinin bu ödənişlərinin ölkə üzrə DSMF-ə olan illik bütün ödənişlərinin ümumi

məbləğində payı, habelə bu payın illər üzrə dəyişməsi kimi məlumatların verilməsi həm bölmənin tələblərinə uyğun olardı, həm də məlumatın əhəmiyyətini artırardı.

2.4. Standartın 3.5-ci tələbi hesabat ilində hasilat və ixracat göstəriciərinin (buraya aiddir: ümumi hasilat həcmləri və növlər üzrə məhsulların dəyəri (uyğun gələn hallarda hətta bölgələr üzrə hasilatın dəyəri); ümumi ixrac həcmləri və növlər üzrə məhsulların ixracının dəyəri (uyğun gələn hallarda hətta bölgələr üzrə hasilatın dəyəri)) hesabatda əks etdirilməsini tələb edir.

Ötən ilki hesabatda Standartın bu tələbinə əməl edilməmişdi. Bu tələbin yerinə yetirilməsi ilə bağlı metodoloji problemlər (hasil edilən məhsulun dəyərinin hansı qiymət əsasında təyin edilməsi məsələsi) İşçi Qrupunun toplantısında və ÇQ-nin iclasında müzakirə edilərək belə qərara alındı ki, hasil edilmiş ehtiyatların həcminin dəyər ifadəsi həmin məhsul üzrə hesabat ilinin orta illik ixrac qiyməti əsasında hesablansın.

Hesabatın "3.4. İstehsalın həcmi" bölməsində hesabat ilində ölkədə hasil edilmiş mineral ehtiyatların ölkədaxili həcm göstəriciləri, bunların beynəlxalq həcm göstəricilərinə uyğunlaşdırılmış göstəriciləri, həmin resursların orta illik ixrac qiymətləri və bu qiymətlə hesablanmış dəyər göstəriciləri cədvəl şəklində yerlışdirilmişdir.

Lakin bu bölmədə hasil edilmiş ehtiyatların ərazilər üzrə hasilat həcmləri və dəyəri, habelə hasil edilmiş xammalın ixrac həcmləri və dəyəri haqqında məlumatlar verilməyib. Halbuki, artıq yuxarıda qeyd etdiyimiz kimi, hesabatın 3.3-cü bölməsində ölkənin əraziləri (rayonları) üzrə hasilat həcmləri ilə bağlı məlumatlar yerləşdirilib. Həmin məlumatların bu bölməyə keçirilməsi və oxşar metodologiyadan istifadə etməklə bunların dəyərinin müəyyən edilməsi Standartın tələbinə uyğun olardı. Habelədə burada ixrac məlumatlarının 3.3-cü bölmədə (səhifə göstərilməklə) yerləşdiyini xüsusi qeyd yaxud istinad verməklə göstərmək olardı.

2.5. Standartın 3-cü tələbinin 3.6-cı bəndi dövlətin hasilat sənayesində iştirakı ilə bağlı məlumatların MHŞT hesabatlarına daxil edilməsini vacib sayır. Standartın bu tələbinə uyğun məlumatlar Hesabatın "3.5. Hasilat sənayesində dövlətin iştirakı" bölməsində yerləşdirilib. Ötən ilki Hesabatla bağlı Koaliisyanın rəyində ən çox iradlar bu bölmə ilə bağlı idi. Bu Hesabatda Standartın 3.6-cı tələbinə uyğun aşağıdakı məlumatlar yerləşdirilib: milli hasilat şirkəti olan SOCAR-la bağlı ümumi məlumat, SACARın dövlət qurumları ilə münasibətləri barədə çox ümumi və qısa məlumat, onun bəzi maliyyə göstəricilərinin 3 illik dinamikası, SOCAR-ın asılı və törəmə müəssisələri, habelə birgə müəssisələri üzrə benefisiar sahibliyin səviyyəsi və həmin müəssisələr üzrə benefisiar sahibliyin səviyyəsində 2014-cü ildə baş verən dəyişikliklər, Şirkətin kredit və zəmanətləri, standartları, kvazi-fiskal xərclərin açıqlanması ilə bağlı qısa məlumat, dövlətə ayırmalar və xarici bazarlarda SOCAR-ın fəaliyyətinin genişlənməsi barədə məlumatlar. Ötən ilki Hesabatla müqayisədə son Hesabatın bu bölməsində az da olsa dəyişikliklərin olduğunu (məsələn, müvafiq məlumatların genişləndirilməsi, benefisiar sahiblik səviyyəsində dəyişikliklərdə olan əlavələr, xarici bazarlarda fəaliyyət və kvazi-fiskal fəaliyyət barədə qısa məlumatın olması və s.) qeyd etmək olar.

Bununla belə Standartın 3.6-cı tələbinin icrası ilə bağlı ciddi hesab etdiyimiz aşağıdakı problemlər hələ qalmaqdadır:

2.5.1. Apardığımız qiymətləndirmə belə söyləməyə əsas verir ki, ötən ilki hesabatda olduğu kimi, bu ilki Hesabatda da Standartın bu yarımbəndində tələb olunan məlumatların əksəriyyəti hesabatda əks etdirilməyib: məsələn, SOCAR-ın Maliyyə Nazirliyi, Neft Fondu, Sosial Müdafiə Fondu, Mərkəzi Bank, Azərbaycan Beynəlxalq Bankı ilə qarşılıqlı münasibətləri və öhdəlikləri ilə bağlı məlumatlar çox ümumi xarakter daşıyır, bu münasibətlərin mexanizmləri açıqlanmadığından məlumatlar anlaşılan deyil.

2.5.2. 2013-cü il üzrə Hesabata Koalisiyanın rəyində göstərildiyi kimi, Koalisiyanın araşdırmaları göstərmişdi ki, SOCAR-ın fəaliyyətində BVF-nin enerji sektoru üzrə müəyyənləşdirdiyi 4 kvazi-fiskal fəaliyyət növündən ən azı 3-ü üzrə kvazi-fiskal əməliyyatların baş verməsi ehtimalı var. Koalisiyanın həmin araşdırması ÇQ-də müzakirə edildikdən sonra SOCAR-a təqdim edilmiş və MHŞT hesabatına daxil edilmək üçün zəruiri məlumatların verilməsi ilə bağlı Şirkətə müraciət edilmişdi. Lakin Hesabatın hazırlanması dövründə bu sahədə Şirkətdən heç bir əlavə məlumat təqdim etməmişdir. Bununla belə ötən ilki hesabatdan fərqli olaraq 2014-cü ilin Hesabatında hesabat dövründə Şirkətin kvazi-fiskal əməliyyatlarının olması nəinki inkar edilməyib, hətta ölkə daxilində neft və neft məhsullarının topdan və pərakəndə satış qiymətlərinin hökumət (Tarif (Qiymət) Şurası) tərəfindən tənzimləndiyi və onun təyin etdiyi qiymətlərin 2014-cü ildə dünya bazar qiymətlərindən aşağı olması, yəni neft və neft məhsullarının yerli istehsalçılara bazar qiymətindən aşağı satılması qeyd edilmişdir. Burada SOCAR-ın sosial xarakterli xidmətlərə xərcləmələri barədə də ümumiləşdirilmiş məlumat verilmişdir.

Bununla belə hesab edirik ki, SOCAR-ın kvazi-fiskal əməliyyatları ilə bağlı araşdırmalar davam etdirilməli və növbəti illərin MHŞT Hesabatlarında bununla bağlı daha dolğun məlumatlar yerləşdirilməlidir. Dünya bazarlarında neftin qiymətinin kəskin aşağı düşməsi ilə əlaqədar SOCAR-ın gəlirlərinin kəskin azalması və onun maliyyə durumu ilə bağlı yarana biləcək narahatlıqlar və şirkətin vəsaitlərindən daha səmərəli istifadə edilməsi zəruriliyi bu məsələnin aktuallığını daha da artırır.

2.5.3. Hesabatda benefisiar sahibliyin səviyyəsi və burada olan dəyişikliklərlə bağlı məlumatlar SOCAR-ın maliyyə hesabatından olduğu kimi götürülüb (hətta maliyyə hesabatının dili saxlanılmaqla) MHŞT Hesabatına yerləşdirildiyindən bu məlumatlar sistemli və istifadəçi üçün anlaşıqlı deyil (məsələn Qrup qeyd edilir,lakin bura kimin daxil olması göstərilmir). Buna görə də demək olar ki, həmin məlumatlar Standartın tələbinə uyğun deyil. Növbəti MHŞT Hesabatında bu məlumatların təkmilləşdirilməsi və anlaşıqlı şəkildə təqdim edilməsi diqqət mərkəzində olmalıdır.

2.6. Hasilat sənayesində dövlətin iştirakı bölməsində  "Azərqızıl" Dövlət Şirkətinin hüquqi varisi hesab  edilən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin  R.V. İnvestment Qroup Services, LLC USA arasında Saziş"dən irəli gələn öhdəlikləri  barədə də məlumatların yerləşdirilməsini zəruri hesab edirik.

2.7. Standartın 3-cü tələbinin 3.7-ci bəndində hasilat  sənayesindən daxil olan gəlirlərin bölünməsi və istifadəsinin MHŞT hesabatlarında təsvir edilməsi tələb olunur. Bu tələbə əsasən hasilat sənayesi üzrə hansı gəlirlərin (dəyər və natural ifadəsində) milli büdcədə qeyd edildiyi MHŞT Hesabatında əks olunmalıdır. Gəlirlər milli büdcədə qeyd edilmədikdə bu gəlirlərin necə bölüşdürülməsi izah olunmalıdır.

2014-cü il üzrə MHŞT Hesabatının "Hasilat sənayesindən Neft Fonduna və dövlət büdcəsinə daxil olan gəlirlər" adlı 3.6-cı bölməsində 2014-cü ildə hasilat sənayesi şirkətlərinin dövlət büdcəsinə ödəmələri haqqında məlumat (bu məlumat Koalisiyanın təşəbbüsü ilə bu Hesabata əlavə edilib), ARDNF-in gəlirlərinin formalaşma mənbələri və xərclərin bölgüsü təqdim olunmuşdur. Bu məlumatların Hesabatda ən azı son 3 ilin dinamikası şəklində qrafik təsvirlərlə təqdim edilməsi həmin məlumatların əhəmiyyətini və anlaşıqlılığını daha da artıra bilər.

Dövlət Neft Fondundan dövlət büdcəsinə edilən transfertlərin və haslat sənayesindən dövlət büdcəsinə daxil olan vəsaitlərin istifadəsi istiqamətləri ilə bağlı müəyyən məlumatların növbəti illərin MHŞT hesabatının bu bölməsinə əlavə edilməsini, habelə müvafiq illərin dövlət büdcəsi və onun icrası haqqında hüquqi normalara, dövlət büdcəsininlayihəsi və dövlət büdcəsinin icrası ilə bağlı hökumətin arayışlarına istinadların verilməsini məqsədəuyğun hesab edirik. Qeyd etdiyimiz məlumatların hamısı Standartın tələbinə uyğun və açıq mənbələrdə (Maliyyə Nazirliyinin və Hesablama Palatasının saytlarında) olan məlumatlardır.

2.8. Standartın 3.8-ci bəndi gəlirlərin idarə edilməsi və xərclər barədə əlavə məlumatların hesabatlara daxil edilməsini təşviq edir. 2013-cü ilin Hesabatında olduğu kimi 2014-cü ilin Hesabatına da bu məlumatlar daxil edilməmişdir. QHT Koalisiyası Şurası növbəti illər üzrə hesabatlara bu məlumatların (belə məlumatlar açıq mənbələrdə mövcuddur) daxil edilməsini yaxud həmin məlumatların yerləşdirildiyi açıq mənbələrə istinadlaırn verilməsi ölkəmizin şəffaflıq imicinin yüksəldilməsi baxımından əhəmiyyətli hesab edir.

2.9. Standartın 3.9 və 3.10-cu tələblərilisenziyaların qeydiyyatı və təyinatı ilə bağlı məlumatlara aiddir. Standartın bu tələblərinin yerinə yetirilməsi ilə bağlı 2013-cü ilin Hesabatına həm Beynəlxalq MHŞT Katibliyinin, həm də Koalisiyanın rəylərində iradlar vardı. Həmin iradlarda ölkənin neft-qaz və digər mədən hasilatı yataqlarının hasilat şirkətlərinə kəşfiyyatı və istismar üçün təqdim edilməsi və HPBS-in bağlanılması prosedurları haqqında məlumatların açıqlanması zəruriliyi vurğulanırdı.

Bu Hesabatın "3.7. Lisenziyaların reyestri" və "3.8. Lisenziyaların təyinatı" bölmələrində də hasilat sənayesində lisenziyalaşdırma fəaliyyəti ilə bağlı çox məlumatlar təqdim edilmişdir. HPBS-in bağlanılması prosedurları haqqında məlumat bu bölmədə yox, Hesabatın "3.1. Ümumi məlumat" bölməsində yerləşdirilib. Lakin həmin məlumat natamam xarakter daşıyır: orada hansı yataqların kəşfiyyatı və işlənilməsi ilə bağlı işlərin başlanılması haqqında məlumatın şirkətlərə çatdırılması, yataqların kəşfiyyatı və işlənilməsinə şirkətlərin cəlb edilməsi mexanizmləri (məsələn, elanların verilməsi, tender və ya müsabiqələrin keçirilməsi və s.) barədə məlumat verilmir. Hesab edirik ki, HPBS-in bağlanılması prosedurları ilə bağlı məlumatlar yuxarıdakı qeydlərə və Standartın 3.9-cu tələbinə uyğun təkmilləşdirilməli və növbəti  MHŞT hesabatlarında bu məlumatlar lisenziyalarla bağlı bu bölməyə daxil edilməlidir.

Ən əsası isə odur ki, bu prosedurların legitimliyinə dair məlumat verilmir. Yəni bu prosedurların hansı normativ akta (qanunda, prezident fərmanına və s) əsaslandığı göstərilmir.

Hesabatın 3.7-ci ("Lisenziyaların reyestri") bölməsində qeyd edilib ki, "MHŞT standartının 3.9. bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında HPBS-ya qoşulmuş aktiv şirkətlərin reyestri tərtib edilmişdir və açıq mənbədə dərc edilərək ictimaiyyətə təqdim olunmuşdur". Lakin Hesabatda bu məlumatlarrn yerləşdirildiyi mənbəyə istinad verilməyib.

2.10. Standartın 3.11-ci bəndi – benefisiar sahiblik məsələsi – üzrə 2014-cü ilin hesabatında olan məlumat elə əvvəlki hesabatda olduğu kimidir. Bununla bağlı Koalisiyanın mövqeyi 2913-cü il Hesabatına Koalisiyanın rəyində qeyd edildiyi kimi qalır.

2.11. Standartın 3-cü tələbinin 3.12-ci bəndi sazişlər haqqında məlumatların ictimaiyyətə açıqlanmasını təşviq edir. Burada qeyd olunur ki, MHŞT Hesabatında neft, qaz və mineralların kəşfiyyatını və hasilatını tənzimləyən saziş vəlisenziyalara dair məlumatlaırn açıqlanması üzrə dövlət siyasətinin sənədləşdirilməsi tələb olunur. 2014-cü il Hesabatında bu məsələlərlə bağlı ölkədə hüquqi rejim barədə məlumat verilib.

Qeyd etməliyik ki, Azərbaycanda fəaliyyətdə olan neft-qaz sazişlərinin 6-sı MHŞT-nin saytına yerləşdirilib. Qalan sazişlərin açıqlanması istiqamətində ÇQ-nin, Katibliyin və Koalisiyanın cəhdləri davam edir.

2.12. Beləliklə, MHŞT Standartlarının 3-cü tələbinə uyğun olaraq 2014-cü ilin Hesabatında təqdim edilən məlumatların qiymətləndirilməsi əsasında belə bir qənaətə gəlmək olar ki, Standartın tələb etdiyi məlumatların əksər hissəsinin hesabata salınması təmin edilmişdir,lakin bu məlumatların ardıcıl, sistemli və anlaşıqlı təqdim edilməsi ilə bağlı problemlər var (sanki Standartın tələb etdiyi məlumatlar ayrı-ayrı mənbələrdə olduğu kimi götürülüb və mexaniki olaraq bir yerə cəmlənib). Növbəti hesabatlarda həm belə problemlərin aradan qaldırılması, həm də Kontekstual məlumatlarla bağlı Standartın 3-cü tələbi üzrə çatışmazlıqların aradan qaldırılması istiqamətində ÇQ-nin səyləri gücləndirilməlidir.

# III. Üzləşmə prosesi və onun nəticələri ilə bağlı məlumatların təhlili

Standartın 4-cü tələbi hökumətin hasilat sənayesindən olan bütün gəlirlərinin və hasilat şirkətlərinin hökumətə bütün əhəmiyyətli ödənişlərinin MHŞT Hesabatında hərtərəfli əks olunmasından ibarətdir. Standartın 4.1 bölümü MHŞT Hesabatında əhatə ediləcək ödəniş və gəlir növləri ilə əlaqədar tələbləri təsvir edir.

3.1. MHŞT Hesabatının "4. Üzləşmə prosesi" adlı bölməsində qeyd edilir ki, ÇQ-nin 10 dekabr 2014–cü il tarixli 34-cü iclasında gedən müzakirələrə əsasən infrastruktur müddəaları və barter tədbirlərinə dair, sub-milli ödənişlər və köçürmələrə dair, habelə sosial xərclərə dair məlumatlar Azərbaycan Respublikasında tətbiq edilmədiyindən 2014-cü il üzrə MHŞT hesabatına daxil edilməmişdir. Fikrimizcə, hər növbəti hesabata hazırlıq işləri başlayanda növbəti hesabatda əks etdiriləcək gəlir növlərinin siyahısına ÇQ-də yenidən baxılıb təsdiq edilməsi məqsədəuyğundur. Bu siyahı sonradan Müstəqil Administratorla imzalanan müqavilədə və Hesabatda göstərilməlidir.

3.2. Yeri gəlmişkən Koalisiya hesab edir ki, ÇQ sosial xərclərlə bağlı məlumatların növbəti hesabata daxil edilməsi məsələsini müzakirə edərək bununla bağlı Standartın 4.1.e altbəndinin tələblərinə uyğun qərar qəbul etməsi zəruridir. Şirkətlərin sosial xərcləri barədə məlumatlar tutuşdurula bilməsə də, Standartın 4.1.e. altbəndinin ii hissəsində göstərildiyi kimi, şirkətlər tərəfindən birtərəfli açıqlana bilər. Məsələn, SOCAR-ın 2014-cü ildəki sosial xərcləri ilə bağlı ümumi məlumatları bu Hesabatın "Hasilat sənayesində dövlətin iştirakı" bölməsində qısa şəkildə olsa da açıqlanıb. Şirkətlərin sosial xərcləri ilə bağlı məlumatlar BP, SOCAR və başqa şirkətlərin hesabatlarında (Korporativ sosial məsuliyyət hesabatlarında) olduğu və belə açıq mənbələrə istinadların verilməsi mümkün olduğu halda həmin məlumatların ölkədə tətbiq edilmədiyini söyləməklə bunların Hesabata daxil edilməsindən imtina edilməsi ölkənin şəffaflıq imicinə ziyan vurur.

3.3. Hesabatın bu bölməsi sanki natamam xarakter daşıyır: bir tərəfdən, burada Standartın 4-cü tələbi ilə bağlı Hesabat üçün bəzi zəruri məlumatlar (Standartın tələb etdiyi kimi ayrı-ayrı ödənişlərin hesabatda əks olunması ilə bağlı ÇQ-nin sənədləşdirilmiş qərarları) təqdim olunur; digər tərəfdən isə, burada üzləşmə prosesinin metodologiyası haqqında heç bir məlumat verilmir. Düzdür, hesabatın hazırlanması ilə bağlı bütün metodoloji məlumatlar hesabatın "Yanaşma və metodologiya" adlı 2-ci bölməsində verilmişdir,lakin üzləşmə prosesinin nəticələri ilə tanış olan şəxs üçün metodologiyanın bu bölmədə - nəticələrin təqdim edilməsindən əvvəl – verilməsi daha yaxşı ola bilərdi. Buna görə də hesab edirik ki, üzləşmə prosesinin metodoloji məsələləri Hesabatın 2-ci bölməsində yox, məhz "Üzləşmə prosesi" bölməsində verilməsi, habelə "Üzləşmə prosesi üzrə nəticələr"bölməsinin ayrıca bir bölmə kimi yox, məhz "Üzləşmə prosesi" bölməsi ilə birləşdirilməsi və bu bölmənin "Üzləşmə prosesi və onun nəticələri" adlandırılması hesabatın strukturunun və dizaynının təkmilləşdirilməsi baxımından əhəmiyyətli ola bilər.

3.4. Üzləşmə prosesinin nəticələri ilə bağlı aşağıdakıları qeyd edə bilərik:

3.4.1. Üzləşmə prosesində şirkətlərlə hökumətin hesabat məlumatları arasında çoxsaylı kənarlaşmaların (fərqlərin) olması narahatlıq doğurur. 2014-cü ilin Hesabatında ümumi say etibarı ilə 16 kənarlaşma (fərq) qeydə alınmışdır. Müqayisələr göstərir ki, belə səhvlərin (kənarlaşmaların) əksəriyyəti hər il eyni şirkətlər tərəfindən baş verir. Hesabatların hazırlanması mərhələsində Müstəqil Administrator tərəfindən Şirkətlərin təmsilçiləri üçün hesabat formalarının (şablonların) doldurulması ilə bağlı təlimlərin keçirilməsinə rəğmən oxşar səhvlərin təkrar baş verməsi bu istiqamətdə daha ciddi tədbirlərin görülməsini zəruri edir;

3.4.2. Üzləşdirmə prosesində meydana çıxan fərqlərlə (düzəlişlərlə) bağlı izahat yetərli və tam anlaşıqlı deyil. Kənarlaşmaların səbəbləri ilə bağlı izahatlar daha geniş və ətraflı verilməlidir, habelə burada seçmə üsulu ilə şirkətlər üzrə aparılan əminlik yoxlamalarının nəticələrinə istinad olunmalıdır;

3.4.3. 2013-cü ilin Hesabatında olduğu kimi, bu Hesabatda da nəqletmə və tranzit gəlirləri ilə bağlı məlumatlarda qarışıqlıq var. "Nəqletmə" və "tranzit" terminlərinin dəqiqləşdirilməsinə, ölkədə hasil edilən neftin boru kəmərləri yaxud dəmiryolu ilə nəql edilməsi ilə başqa ölkələrin neftinin boru kəməri yaxud dəmiryolu ilə tranziti məsələlərinə aydınlıq gətirilməlidir. Standartın

4.1.f yarımbəndinin tələblərinə uyğun olaraq nəqletmə tarifləri, tarif dərəcələri və nəqletmənin digər göstəricilərinin açıqlanması təmin edilməlidir;

3.5. Şahdəniz HPBS üzrə hökumətə ödənişlərin məbləği ilə bağlı MHŞT Hesabatında və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) 2014-cü il üzrə illik hesabatında olan məbləğlər arasında 8.8 milyon ABŞ dolları fərq var. Belə ki, ARDNF-in 2014-cü il üzrə illik hesabatında (səh. 28) göstərilir ki, həmin il bu Şahdəniz HPBS qaz satışından Fonda 532.0 milyon ABŞ dolları məbləğində vəsait daxil olub[130]. 2014-cü il MHŞT Hesabatının 32-ci səhifəsində 2014-cü ildə hasilat şirkətlərinin hökumətə nağd pul ödənişlərin cədvəli verilib. Həmin cədvəldə qaz satışı ilə bağlı Şahdəniz HPBS-nə daxil olan şirkətlərin hökumətə ödənişlərinin cəmi 523.2 milyon ABŞ dolları olması göstərilir. Bu məbləğ Hesabatın əlavələrində olan hasilat şirkətləri üzrə hesabat şablonlarında olan müvafiq məlumatlarla da təsdiq olunur. Buna görə də Şahdəniz HPBS üzrə qaz satışından hökumətə nağd ödənişlərlə bağlı ARDNF və MHŞT üzrə 2014-cü ilin hesabatlarında olan 8.8 milyon ABŞ dolları məbləğində fərqlə bağlı hökumət tərəfndən əlavə izahatın verilməsini zəruri hesab edirik.

# IV. 2013-cü il MHŞT Hesabatı ilə bağlı Koalisiyanın tövsiyələrinə münasibət

Hesabatın 8-ci bölməsi "Tövsiyələr və nəticələr" adlanır. Burada 2014-cü ildə üzləşmə prosesindən əldə olunmuş təcrübələr və 2013-cü ilə aid MHŞT hesabatı üzrə tövsiyələrin icrası durumu haqqında məlumat verilir.

4.1. Bu bölmə hesabatın hazırlanması prosesində Müstəqil Administratorun üzləşdiyi və ya işin gedişi ilə bağlı üzə çıxardığı problemlərin həlli yolları, cari və əvvəlki illərin təcrübəsindən ortaya çıxan dərslərin qeyd edilməsi və bunlardan əldə edilən faydaların göstərilməsi, habelə  növbəti illərdə hesabatın hazırlanması prosesində nəzərə alınmalı tövsiyələrin verilməsi baxımından çox önəmlidir. Burada üzləşmə prosesi üçün Müstəqil Administratorun göndərdiyi hesabat şablonlarının doldurulması zamanı bəzi hasilat şirkətlərinin əvvəlki illərdə yol verdikləri eyni səhvləri təkrarlamaları qeyd edilsə də, bu problemin həlli üçün Müstəqil Administratorun verdiyi tövsiyələr elə əvvəlki illərdə olandan heç nə ilə fərqlənmir. Problemin həlli üçün Müstəqil Administratorun daha sistemli tədbirləri əhatə edən tövsiyələr irəli sürməsi işin xeyrinə ola bilər.

4.2. Hesabatın bu bölməsində həm də QHT Koalisiyasının və Müstəqil Administratorun 2013-cü il MHŞT Hesabatına dair tövsiyələrinin icrası durumu barədə məlumat daxil edilib. Bu, hesabatla bağlı rəylərdə olan irad və tövsiyələrə diqqətlə yanaşıldığını, bunun hesabına hesabatların təkmilləşməsinə nail olunduğunu nümayiş etdirmək baxımından önəmli addımdır. Hesabata rəylərdə olan irad və tövsiyələrin nəzərə alınması həm də bütövlükdə ölkədə MHŞT prosesinin inkişafına fayda verən, bu prosesin məhz Təşəbbüsün mahiyyətinə uyğun inkişaf etdiyini nümayiş edən addımdır.

Hesabatın hazırlanması prosesində İşçi Qrupundakı müzakirələr zamanı Müstəqil Administratora tövsiyə edilmişdi ki, Koalisiyanın və Beynəlxalq Katibliyin rəylərində olan irad və tövsiyələrin hər birinin bu Hesabatda nəzərə alınması səviyyəsi ilə bağlı dəqiq məlumat hazırlansın. Xüsusilə qismən nəzərə alınan və ümumiyyətlə icrası mümkün olmayan tövsiyələr üzrə atılan addımlar və icra olunmamasının səbəbləri göstərilməklə izahat verilsin.

4.3. Koalisiyanın tövsiyələrinin icrası ilə bağlı Hesabatda verilən məlumatdan belə aydın olur ki, yalnız bir tövsiyə icra olunmayıb, bir tövsiyənin icrası davam edir, qalan tövsiyələrin hamısı müsbət həll olunub. Halbuki apardığımız müqayisəli tutuşdurma göstərdi ki, ötən ilki Hesabatla bağlı Koalisiyanın ÇQ-yə və Müstəqil Administratora ünvanladığı və bu Hesabatda nəzərə alınması vacib olan 23 tövsiyədən 12-sinin icrası ilə bağlı burada qeydlər var. Araşdırmamız göstərdi ki, Koalisiyanın 23 tövsiyəsindən 9-unun tam və 8-nin isə qismən icra olunduğunu söyləmək olar. 8 tövsiyə isə ya ümumiyyətlə icra olunmayıb, ya da həmin tövsiyələr üzrə ciddi irəliləyiş olmayıb. Həmin tövsiyələrin qismən və ya tam icra olunmaması isə həmin tövsiyələrdə qeyd edilən informasiyaların açıq mənbələrdə olmaması ilə bağlıdır.

130 http://www.oilfund.az/uploads/annual_2014az.pdf

4.4. Beynəlxalq MHŞT Katibliyin tövsiyələrinin icrası vəziyyəti ilə bağlı məlumat Hesabatda ümumiyyətlə verilməyib. Halbuki 2013-cü il Hesabatı ilə bağlı Beynəlxalq Katibliyinin irad və tövsiyələri ÇQ-də və İşçi Qrupunun iclaslarında müzakirə edilib və onların icrası istiqamətində tədbirlər həyata keçirilib. Həmin irad və tövsiyələrin icrası barədə məlumatların hesabata daxil edilməsi zəruridir. .

# V. Hesabat məlumatlarının təqdim edilməsi (hesabatın dizaynı) ilə bağlı məsələlər

MHŞT Hesabatı hasilat sənayesinin fəaliyyəti, hökumətin hasilat sənayesindən gəlirləri və hasilat sənayesinin ölkə iqtisadiyyatına töhfələri ilə bağlı cəmiyyətdə məlumatlılığın artırılması, bu sahədə hesabatlılığın və şəffaflığın genişləndirilməsi və bununla da cəmiyyətdə etimad mühitinin yaxşılaşdırılması məqsədinə xidmət edir. Buna görə də MHŞT Hesabatınında olan məlumatların sadə və anlaşıqlı formada, sistemli şəkildə, ardıcıllıqla və bir-birini tamamlayan şəkildə təqdim edilməsi, əyani qrafiklərdən və izahedici sxemlərdən geniş istifadə edilməsi, anlaşıqlı şərhlərin verilməsi xüsusi əhəmiyyət kəsb edir. Bir sözlə, MHŞT hesabatının məzmunu və dizaynı elə qurulmalıdır ki, hesabatın (orada olan zəngin məlumatların) istifadəçiyə yönəlik (user friendly) olması təmin edilsin.

Lakin Koalisiyanın ekspertləri hesab edir ki, bu sahədə 2014-cü il MHŞT Hesabatı ciddi qüsurlara malikdir:

5.1. Hesabatın mövcud strukturu yersiz dərəcədə mürəkkəbləşdirilib, bölmələr sistemsiz və qarışıq təqdim edilib. Fikrimizcə, hesabatın dizaynının sadələşdirilməsi və məlumatların sistemləşdirilməsi üçün bölmələrin aşağıdakı ardıcıllıqla yerləşdirilməsi daha faydalı ola bilər: 1. İcmal (Xülasə); 2. Metodologiya və yanaşma; 3. Kontekstual məlumatlar; 4. Üzləşdirmə prosesi və nəticələri; 5. Tövsiyyələr; 6. Tərəflər haqqında məlumatlar; 7. Əlavələr.

5.2. Hesabatın ayrı-ayrı bölmələrində olan məlumatlar qarışıq və sistemsiz verilib, hətta bəzi hallarda yersiz yüklənmələr müşahidə edilir. Məsələn, işin məzmunu və məlumatların məxfiliyi, tamlığı və dəqiqliyi ilə bağlı hissələrin 1-ci ("İcmal") bölmədən çıxarılması və  2-ci bölməyə əlavə edilməsi məqsədəuyğundur. "İcmal" bölmədə (Xülasə) Azərbaycanın MHŞT hesabatlılığında profili, gəlirlərin əldə edilməsinin əsas formaları, şirkətlər və ödəniş növləri üzrə fərdiləşdirilmiş məlumatlar cədvəli, MHŞT prosesi ilə bağlı ölkənin nailiyyətləri və hazırkı durumun əks olunması daha məqsədəuyğun olardı.

5.3. Hesabatın 2-ci  ("Yanaşma və metodologiya") bölməsində sadəcə  görülmüş işlərin əhatə dairəsi göstərilir, məlumatların toplanması və üzləşdirilməsi proseduraları, metod və üsullarından bəhs olunmur, onlar sadəcə təsvir edilir. Burada üzləşmə mərhələsində  görülən işlər, sənədlərin yoxlanılması, hesabatların müqayisəsi və təhlili, məlumatların üzləşdirilməsi üsul və metodlarından bəhs edilmir. Əminlik mərhələsi bəndində seçim hansı  üsulla və necə aparılıb, bu barədə heç nə yazılmayıb. Seçilən  şirkətlərin hansı meyarlarla müəyyənləşdirilməsi göstərilməyib, onlarla iş necə qurlub, onların  hansı sənədləri, necə  və nə məqsədlə nəzərdən keçirməsi, eləcə də icra olunmuş işin yekunlaşması barədə nəticənin hesabata necə  daxil edilməsi kimi suallar açıq qalır. Bu bölmədə həmçinin  dövlət şirkətlərinin  məlumatalarına əminlik yaradılması ilə bağlı prosedurlarım nədən aparılmaması izah olunmalıdır. Bir sözlə, bu bölmənin təkmilləşdirilməsini zəruri hesab edirik.

5.4. "Kontekstual məlumatlar" bölməsinin ümumi məlumat hissəsində ötən  ilki hesabatdan  qalma nəzəri, texniki və tarixi məlumatlar var. Belə az əhəmiyyətli və təkrarlanan məlumatların hesabatdan çıxarılması (həmin məlumatların əvvəlki hesabatda olmasını qeyd etməklə və istinad verməklə) məqsədəuyğundur. Burada ümumiləşdirilmiş məlumatların dinamikada verilməsi (ən azı 3 il) oxucuda hasilat sənayesi və gəlirləri  haqqında müqayisəli təəssürat yaratması baxımından əhəmiyyətli olardı. Burada habelə Azərbaycanda hansı dövlət qurumlarının hansı növ gəlirləri/daxilolmaları əldə etməsi aydın şəkildə, sxem və qrafik izahlarla verilməsi daha yaxşı olardı.

Ümumiyyətlə bu bölmənin ayrı-ayrı hissələrində olan məlumatların yerləşdirilməsi ardıcıllığında və təqdim edilməsində müşahidə olunan problemlər yuxarıda (bu rəyin II bölməsində) geniş qeyd olunub və bunların aradan qaldırılması üçün təkliflər verilib.
5.5. Hesabatın "7. Hökumət gəlirlərinin təhlili" bölməsinin ayrıca verilməsinin səbəbləri anlaşılmır. Burada olan məlumatlar kontekstual məlumatları tərkib hissəsi kimi Standartın 3.7-ci tələbinə uyğun olaraq hesabatın müvafiq bölməsinə əlavə etmək məqsədəuyğundur.

# VI. Tövsiyyələr

MSŞA QHT Koalisiyası Şurası Azərbaycan Respublikasının 2014-cü il üzrə MHŞT Hesabatında qeydə alınan MHŞT Standartı ilə uyğunsuzluqların, çatışmazlıqların və üzləşmə prosesində müşahidə edilən anlaşılmazlıqların aradan qaldırılması, növbəti illər üzrə MHŞT Hesabatlarının daha təkmil alınması üçün aşağıdakı təklif və tövsiyələri irəli sürür:

**I. Hesabatın "Kontekstual məlumatlar" bölməsinin təkmilləşdirilməsi üzrə:**

1.1. Bölmənin ümumi məlumat hissəsində təkrarlanmaların aradan qaldırılsın, ümumiləşdirilmiş məlumatların dinamikada (ən azı 3 il) verilsin, habelə Azərbaycanda hansı dövlət qurumlarının hansı növ gəlirləri/daxilolmaları əldə etməsi aydın şəkildə, sxem və qrafik izahlarla təqdim edilsin;

1.2. Hüquqi rejimin anlaşılması üçün Hesabatda sadalanan hüquqi normaların hər birinin mədən sənayesi ilə bağlı tənzimlədiyi konkret münasibətlərin və mexanizmlərin qısa icmalının verilməsi, habelə bu norma və mexanizmlərin qarşılıqlı əlaqəsinin göstərilməsi, habelə hüquqi və fiskal rejimlər barədə məlumatların qrafik şəkildə (əyani sxemlərlə) verilməsi təmin edilsin;
1.3. Ölkənin bütün neft-qaz və mineral ehtiyat yataqları və məhsul növləri (neft, qaz, kondensat, qızıl, gümüş və s.) üzrə ehtiyatların həcminin Hesabata daxil edilməsi təmin edilsin;

1.4. Boru kəmərlərinə dair məlumatların genişləndirilməsi (ötürmə qabiliyyəti və ixrac edilmiş məhsullar üzrə statistikanın Hesabata əlavə edilməsi) məqsədəuyğundur;

1.5. "Hasilat sənayesinin iqtisadiyyata töhfəsi" bölmədə təqdim olunan investisiya və məğulluq göstəricilərinin bütün hasilat şirkətləri üzrə verilməsi, habelə mədən sənayesi şirkətlərində məşğul olanların yerli və əcnəbi işçilər üzrə bölgüsünun təqdimatı istiqamətində səylər davam etdirilsin;.

1.6. Yerli və xarici hasilat şirkətlərinin DSMF-ə ödənişlərinin illik bütün oxşar ödənişlərinin ümumi məbləğində payı, bu payın illər üzrə dəyişməsi və bunun məşğulluq strukturu ilə müqayisəsi formasında təqdim edilsin;

1.7. SOCAR-ın Maliyyə Nazirliyi, Neft Fondu, Sosial Müdafiə Fondu, Mərkəzi Bank, Azərbaycan Beynəlxalq Bankı ilə qarşılıqlı münasibətləri və öhdəlikləri ilə bağlı məlumatlar daha detallaşdırılmış formada və bu münasibətlərin mexanizmləri açıqlanmaqla hesabata daxil edilsin;

1.8. SOCAR-ın kvazi-fiskal əməliyyatları ilə bağlı araşdırmalar davam etdirilməli və növbəti illərin MHŞT Hesabatlarında bununla bağlı daha dolğun məlumatlar yerləşdirilməlidir;

1.9. Hesabatda SOCAR-ın benefisiar sahibliyin səviyyəsi və burada olan dəyişikliklərlə bağlı məlumatlar Standartın tələbinə uyğulaşdırılması, bu məlumatların təkmilləşdirilməsi və anlaşıqlı şəkildə təqdim edilməsi təmin olunmalıdır;

1.10. Hasilat sənayesində dövlətin iştirakı bölməsində "Azərqızıl" Dövlət Şirkətinin hüquqi varisi hesab edilən Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin R.V. İnvestment Qroup Services, LLC USA arasında Saziş"dən irəli gələn öhdəlikləri barədə məlumatların hesabata əlavə edilməlidir;

1.11. Növbəti illər üzrə MHŞT hesabatlarına Standartda təşviq olunan məlumatların daxil edilməsi ölkəmizin şəffaflıq imicinin yüksəldilməsi baxımından əhəmiyyətli olduğundan ÇQ bu istiqamətdə müvafiq addımların atılması imkanlarını müzakirə etsin;

1.12. HPBS-in bağlanılması prosedurları ilə bağlı məlumatlar Standartın 3.9-cu tələbinə uyğun təkmilləşdirilməli və növbəti MHŞT hesabatlarında bu məlumatlarlisenziyalarla bağlı bölməyə daxil edilməli, bu prosedurlarınlegitimliyini təsdiq edən normativ akt göstərilməlidir.

**II. Üzləşmə prosesinin aparılması və onun nəticələrinin hesabatda təqdim edilməsi ilə bağlı:**

2.1. Hər növbəti hesabatın hazırlıqlarına başlanılması zamanı növbəti hesabatda əks etdiriləcək gəlir növlərinin siyahısına ÇQ-də yenidən baxılaraq təsdiq edilməsi təmin edilsin. Həmin siyahı Müstəqil Administratorla imzalanan müqavilədə və Hesabatda əks olunmalıdır;

2.2. Sosial xərclərlə bağlı məlumatların növbəti hesabata daxil edilməsi məsələsinin ÇQ-də müzakirə edilməsi və bununla bağlı Standartın 4.1.e altbəndinin tələblərinə uyğun qərar qəbul olunması zəruridir;

2.3. Üzləşmə prosesində şirkətlərlə hökumətin hesabat məlumatları arasında çoxsaylı kənarlaşmaların (fərqlərin) aradan qaldırılması üçün ÇQ və Müstəqil Administrator tərəfindən daha ciddi tədbirlərin görülməsi zəruridir;

2.4. Üzləşdirmə prosesində meydana çıxan fərqlərlə (düzəlişlərlə) bağlı izahatlar daha geniş və ətraflı verilməli, habelə burada seçmə üsulu ilə şirkətlər üzrə aparılan əminlik yoxlamalarının nəticələrinə istinad olunmalıdır;

2.5. "Nəqletmə" və "tranzit" terminlərinin dəqiqləşdirilməsinə, ölkədə hasil edilən neftin boru kəmərləri yaxud dəmiryolu ilə nəql edilməsi ilə başqa ölkələrin neftinin boru kəməri yaxud dəmiryolu ilə tranziti məsələlərinə aydınlıq gətirilməli, Standartın 4.1.f yarımbəndinin tələblərinə uyğun olaraq nəqletmə tarifləri, tarif dərəcələri və nəqletmənin digər göstəricilərinin açıqlanması təmin edilməlidir;

2.6. Şahdəniz HPBS üzrə hökumətə ödənişlərin məbləği ilə bağlı MHŞT Hesabatında və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun (ARDNF) 2014-cü il üzrə illik hesabatında olan məbləğlər arasında müşahidə olunan 8.8 milyon ABŞ dolları fərqlə bağlı hökumət tərəfndən əlavə izahatın verilməsini zəruri hesab edirik.

**III. Hesabat məlumatlarının təqdim edilməsinin (hesabatın dizaynının) təkmilləşdirilməsi ilə bağlı:**

3.1. Fikrimizcə, hesabatın dizaynının sadələşdirilməsi və məlumatların sistemləşdirilməsi üçün bölmələrin aşağıdakı ardıcıllıqla yerləşdirilməsi daha faydalı ola bilər: 1. İcmal (Xülasə); 2. Metodologiya və yanaşma; 3. Kontekstual məlumatlar; 4. Üzləşdirmə prosesi və nəticələri; 5. Tövsiyyələr; 6. Tərəflər haqqında məlumatlar; 7. Əlavələr.

3.2. "İcmal" bölmədə (Xülasə) Azərbaycanın MHŞT hesabatlılığında profili, gəlirlərin əldə edilməsinin əsas formaları, şirkətlər və ödəniş növləri üzrə fərdiləşdirilmiş məlumatlar cədvəli, MHŞT prosesi ilə bağlı ölkənin nailiyyətləri və hazırkı durumun əks olunması daha məqsədəuyğundur;

5.3. Hesabatın "Yanaşma və metodologiya" bölməsinin strukturu və məzmunu təkmilləşdirilməlidir;

5.4. Üzləşmə prosesinin metodoloji məsələləri Hesabatın 2-ci bölməsində yox, məhz "Üzləşmə prosesi" bölməsində verilməsi, habelə "Üzləşmə prosesi üzrə nəticələr"bölməsinin "Üzləşmə prosesi" bölməsi ilə birləşdirilməsi və bölmənin "Üzləşmə prosesi və onun nəticələri" adlandırılması hesabatın strukturunun və dizaynının təkmilləşdirilməsi baxımından əhəmiyyətli ola bilər;

5.5. Hesabatın "7. Hökumət gəlirlərinin təhlili" bölməsinin məlumatlarını kontekstual məlumatları tərkib hissəsi kimi Standartın 3.7-ci tələbinə uyğun olaraq hesabatın müvafiq bölməsinə əlavə etmək məqsədəuyğundur.

5.6. "Kontekstual məlumatlar" bölümünün hazırlanması Müstəqil Administrator tərəfindən yox. ÇQ-nin sifarişi əsasında ekspert və mütəxəssislərin cəlb edildiyi xüsusi İşçi Qrupu tərəfindən hazırlanması təmin edilsin.

MSŞA QHT Koalisiyası Şurası ÇQ-ni Azərbaycan Respublikasının 2014-cü il üzrə MHŞT Hesabatını 2016-cı ilin Fəaliyyət Planına uyğun olaraq geniş ictimaiyyətə çatdırılması üçün fəallıq göstərməyə və geniş tədbirlər həyata keçirməyə çağırır.

Koalisiyası Şurası MHŞT üzrə Azərbaycan təcrübəsinin daha da təkmilləşdirilməsinə yönəldilmiş bu təkliflərə Hökumət Komissiyasının və şirkətlərin diqqətlə yanaşacaqlarına və bunların reallaşdırılması istiqamətində əməli addımlar atacaqlarına ümid edir. Bu, MHŞT prosesinə və hesabatlılıq sisteminə vətəndaş cəmiyyətinin inam və etibarının artmasında mühüm rol oynaya bilər.

Koalisiyası Şurası MHŞT üzrə Azərbaycan təcrübəsinin daha da təkmilləşdirilməsinə yönəldilmiş bu təkliflərə Hökumət Komissiyasının və şirkətlərin diqqətlə yanaşacaqlarına və bunların reallaşdırılması istiqamətində əməli addımlar atacaqlarına ümid edir. Bu, MHŞT prosesinə və hesabatlılıq sisteminə vətəndaş cəmiyyətinin inam və etibarının artmasında mühüm rol oynaya bilər.

# MSŞA QHT Koalisiyasının rəyi təqdim edildikdən sonra 2014-cü il MHŞT Hesabatında edilən dəyişikliklər barədə Koalisiya Şurasının mövqeyi

(MSŞAQHT Koalisiyası Şurasının 27 aprel 2016-cı il tarixli 154-cü iclasında təsdiq edilib))

Azərbaycan Respublikasının 2014-cü il üzrə MHŞT Hesabatı 2016-cı il fevralın 15-də Çoxtərəfli Qrupun (ÇQ) iclasında açıqlandıqdan sonra "Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün Azərbaycan Respublikasında tətbiqinə dair qarşılıqlı anlaşma haqqında" Memorandumun 2.4.9.-cu maddəsinə müvafiq olaraq MSŞA QHT Koalisiyası 1 ay müddətində Hesabata geniş rəy hazırlayaraq ÇQ-yə təqdim etmişdi. Koalisiyanın rəyində 2013-cü il MHŞT Hesabatı ilə müqayisədə 2014-cü il Hesabatında müşahidə olunan irəliləyişlər əksini tapmaqla yanaşı, bu Hesabatda təqdim edilən məlumatların məzmunu ilə MHŞT Standartının tələbləri arasında olan uyğunsuzluqlara dair, habelə hesabatın strukturu və məlumatların təqdim edilməsi formaları ilə bağlı iradlar qeyd edilmiş və hesabatın məzmununun təkmilləşdirilməsi istiqamətində 24 tövsiyə verilmişdi.

Koalisiyanın rəyi təqdim edildikdən sonra Müstəqil Administrator tərəfindən (yerli MHŞT Katibliyi ilə birlikdə) Koalisiyanın və Beynəlxalq Katibliyin bəzi irad və tövsiyələri nəzərə alınaraq 2014-cü il MHŞT Hesabatına bir sıra əlavə və dəyişikliklər etmişdir. Bunların sırasında aşağıdakıları göstərmək olar:

- İxracatda hasilat sənayesinin payını əks etdirən məlumatlar Hesabata əlavə edilib (Hesabatın 61-ci səh.) – Koalisiyanın rəyinin 2.3 bəndində olan irad nəzərə alınıb;
- Ölkənin rayonları və əraziləri üzrə hasil olunan məhsulların hasilatın həcmi və dəyəri ilə bağlı məlumatlar Hesabata əlavə edilib (səh. 65) – Koalisiyanın rəyinin 2.4 bəndində olan irad və 1.3-cü tövsiyəsi nəzərə alınıb;
- SOCAR-ın dövlət qurumları ilə münasibətlərinə dair Hesabatda olan məlumatlar bir qədər genişləndirilib (səh. 67-68) - Koalisiyanın rəyinin 2.5.1 bəndində olan irad və 1.7-ci tövsiyəsiqismən nəzərərə alınıb. Bununla belə qeyd etməliyik ki, SOCAR-la bağlı Hesabatda olan məlumatlar hələ də MHŞT Standartının tələblərinə tam uyğun gəlmir;
- Ölkənin hasilat sənayesinə xarici və yerli hasilat şirkətlərinin cəlb edilməsi və HPBS-nin hazırlanması mexanizmi barədə Hesabata əlavə məlumat yerləşdirilib (səh. 79) – Koalisiyanın rəyinin 1.12-ci tövsiyəsi qismən nəzərə alınıb;
- Hesabat ilində AÇG sazişi üzrə hökumətə çatan mənfəət neftinin alıcılarının adı, satılan neftin həcmi və dəyəri haqqında məlumatlar Hesabata əlavə edilib (səh. 83) – 2013-cü il MHŞT Hesabatı ilə bağlı Koalisiyanın rəyində bununla bağlı tövsiyə vardı;
- Sazişlər çərçivəsində hökumətə natura formasında təqdim edilən xam neftin və səmt qazının şirkətlər üzrə həcmini əks etdirən toplu cədvəllər Hesabata əlavə edilib (səh. 91).

Qeyd etməliyik ki, Azərbaycan MHŞT prosesinə qoşulandan bəri birinci haldır ki, təsdiq edilmiş MHŞT Hesabatında Koalisiyanın rəyi əsasında dəyişikliklər edilmişdir. Koalisiya bunu ölkədə MHŞT prosesinin inkişafı istiqamətində irəliləyiş hesab edir. Bununla yanaşı Koalisiya Şurası ümid edir ki, 2015-ci il üzrə MHŞT Hesabatının hazırlanması zamanı 2014-cü il MHŞT Hesabatı ilə bağlı Koalisiyanın rəyində olan digər irad və tövsiyələrin nəzərə alınması təmin ediləcəkdir.

EITI
Extractive
Industries
Transparency
Initiative

MHŞT
Mədən
Hasilatı üzrə
Şəffaflıq
Təşəbbüsü